Ceyhun Hidayətli

# ƏQRƏB

Ceyhun Hidayətli
**Əqrəb**

Bakı, Qanun Nəşriyyatı, 2015, 208 səh. tiraj 500
Çapa imzalanmışdı:

Korrektor: Ceyran Abbasova

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/ Qanunpublishing

ISBN 978-9952-36-

© Qanun Nəşriyyatı, 2015
© Ceyhun Hidayətli, 2015

# GİRİŞ

Bir gün qurbağa ilə əqrəb dost olurlar. Bir-birlərinə ömür boyu sadiq qalacaqlarına, həmişə kömək edəcəklərinə söz verirlər. Aradan bir müddət keçdikdən sonra çayın qırağında dayanan qurbağa əqrəbin çaya yaxınlaşdığını görür. Əqrəb qurbağadan onu çayın digər tərəfinə keçirtməsini xahiş edir. Qurbağa əqrəbə onu belinə alıb qarşı tərəfə keçirtməkdən qorxduğunu deyir. Əqrəb bunun səbəbini soruşduqda qurbağa, əqrəbin onu sancmasından çəkindiyini bildirir. Əqrəb qurbağaya:

– Axı biz dostuq. Həm də mən səni sancsam, özüm də suda boğulub ölərəm. Belə bir şeyi niyə edim? – deyir.

Qurbağa bir qədər fikirləşdikdən sonra əqrəbin dediklərinə inanır. Əqrəbi belinə götürüb çaya girir və üzməyə başlayır. Düz çayın ortasına çatdıqda qurbağa belində bir ağrı hiss edir. Çox keçmədən əqrəbin onu sancdığını başa düşür. Ölmək üzrəykən son nəfəsində əqrəbdən bunun səbəbini soruşur:

– Bəs biz dost idik, əqrəb qardaş?! Mən sənə kömək edirdim. Sən niyə belə bir şey etdin? İndi ikimiz də birlikdə öləcəyik.

Əqrəb isə cavabında:

– Nə edə bilərəm, qurbağa qardaş? Mən əqrəbəm. Sancmaq və xəyanət mənim təbiətimdə var, – deyir.

Bundan sonra ölən qurbağanın belində olan əqrəbin özü də suda boğularaq ölür.

# I FƏSİL

Yenə də yorucu bir iş günü başa çatmışdı. Gündüzlərin uzanması aşkar olaraq müşahidə olunurdu. Hələ bir neçə həftə əvvəl bu saatlarda zil qaranlığa qərq olan şəhər indi batmaqda olan günəşin şüaları ilə əhatə olunmuşdu. Kərim ofisdəki işlərini yekunlaşdırıb oradan ayrıldı və avtomobilinə doğru addımlamağa başladı. Qapıdan çıxarkən adəti üzrə qarovulçu Rasim dayı ilə sağollaşmağı da unutmadı. Rasim dayı əlli yaşlarında, qarayanız, alçaqboy bir kişi idi. Üzündəki qırışlara hopmuş dərin kədərə baxdıqda çox da asan olmayan həyat keçirdiyi aşkar olunurdu. Artıq dörd il idi ki, bu binada qarovulçu işləyirdi. Həddindən artıq ciddi və zəhmli olmasına baxmayaraq insanlara qarşı mehribanlığı onun hamı tərəfindən sevilməsinə səbəb olurdu. Elə Kərim ilə də araları yaxşı idi.

Kərim gülümsədi və binadan çıxdı. Avtomobilinə əyləşib mühərriki işə saldıqdan sonra bir müddət dayanıb ofisin yerləşdiyi bu köhnə binaya baxaraq fikrə getdi. Həqiqətən də zaman istənilən məkanı necə də doğmalaşdırırmış. Bu köhnə, baxımsız bina indi Kərimə ikinci evi qədər doğma gəlirdi. Axı o ilk olaraq çalışmağa burda başlamış və zəhmətinin bəhrəsi olan ilk məvacibini də elə bu iş yerindən almışdı. Kərimə

bu binanın doğma gəlməsinin səbəblərindən biri də ilk məhəbbətini bu binadan tapması idi. Kərim dalğın fikirlərdən ayrılıb avtomobili hərəkətə gətirdi. Qocaman Bakının yolları yenə də son vaxtlar adət halını almış tıxaclar ilə dolu idi. Kərim şəhərin səs-küylü tıxaclarının içində qəribə bir sükut yaşayırdı. Yol boyu fikri uzaqlara çox uzaqlara gedirdi. O bu fikirlərdən yalnız evə çatdıqda uzaqlaşa bildi.

Kərim ailəsi ilə birlikdə həyət evində yaşayırdı. Həyətə daxil olduqda burada üçmərtəbəli dəbdəbəli yaşayış evini görmək olardı. Həyətləri çox geniş olmasa da Kərimin atası Qurban müəllim burada müxtəlif meyvə ağacları əkdirmişdi. Ağacların arası müxtəlif rənglərə və qoxulara sahib güllərlə əhatə olunmuşdu. Yaz aylarında təbiətin oyandığı vaxtlar başqa bir aləm olurdu bu həyət. Qurban müəllim də axşamlar ailəsini başına yığıb bu həyətdə çay içməyi xoşlayırdı.

Qapını Kərimə yenə həmişəki kimi anası açdı:

– Axşamın xeyir, ana.

– Hər vaxtın xeyir, a bala. Xoş gəlmisən.

– Yenə deyəsən yeməyin hazırdır, iyi həyətə qədər gəlir?!

Anası gülümsəyib:

– Yemək çoxdan hazırdır. Səni gözləyirik süfrəyə oturmaq üçün. Keç əllərini yu, gəl süfrə arxasına.

Kərim adəti üzrə öz otağına keçib əvvəlcə paltarını dəyişdi. Evə gələn kimi paltarını dəyişməyə adət etmişdi. Belə daha rahat olurdu. Daha sonra əl-üzünü

yuyub mətbəxə yollandı. Atası Qurban müəllim yenə stolun baş tərəfində əyləşmişdi. Onun sağ tərəfində anası Səkinə xanım, anasının yanında bacısı Nailə, onlarla üzbəüzdə isə qardaşları Kamran ilə Nurlan əyləşmişdi. Kərim isə həmişə atası ilə üzbəüzdə stolun digər ucunda əyləşirdi. Kərim ailənin ən böyük övladıydı. Qardaşları və bacısı ona həmişə böyük qardaş kimi hörmət qoymuş, onun sözündən çıxmamağa çalışmışdılar. Bircə evin sonbeşiyi olan Nurlan bir az ərköyün böyümüşdü. Hələ uşaqlıqdan hamı tərəfindən əzizlənən Nurlanın xətrinə daha sonralar da heç kim dəymirdi. İki il dalbadal universitetə qəbul ola bilməmiş, buna baxmayaraq heç kim ona güldən ağır söz deməmişdi. Halbuki atası Qurban kişi digər övladlarına belə bir şeyi heç vaxt keçməz, ən yüngül halda aylarca danışdırmazdı. Hərçənd bütün digər övladları universitetə daxil olmuşdular, lakin atalarının xasiyyətinə də bələd idilər.

Kərim süfrə arxasında əyləşənlərə şən və gümrah səslə:

– Axşamınız xeyir, ev əhli, yenə baş aşpaz göstərib hünərlərini? – deyərək anasını nişan verdi və gülümsədi.

Qurban kişi oğlunun zarafatına cavab olaraq:

– Evlənərsən görərik sənin gətirdiyin baş aşpaz nə hünərlər göstərəcək, – dedi.

Bu söz Səkinə xanımın sinəsinə yağ kimi yayıldı. Elə süfrə arxasında əyləşənlər hamısı güldülər bu sözə. Kərim utandığından qızardı və tutuldu. Qardaşının bu halını görən Nailə sözə qarışıb:

– İşiniz yoxdur mənim qardaşımla. O eləsini gətirəcək ki, heç anam onun bişirdiklərinin yarısını bişirə bilməyəcək, – dedi və Kərimə göz vurdu.

Kərim bundan sonra özünə gələrək anasına baxıb:

– Daha bizi niyə acından öldürüb o gözəl qoxulu yeməyin intizarında qoyursan? Gətir bir dadına baxaq da.

Nailə anasından əvvəl cəld ayağa qalxdı və yeməyi böyük bir buluda çəkib stola gətirdi. Stolun üstünə gələn yarpaq dolması hələ də isti olduğundan buğlanırdı. Ailənin demək olar bütün fərdləri yarpaq dolması ilə birlikdə qatıq olmasını istədiyindən Səkinə xanım heç vaxt süfrədən qatığı əskik etmirdi. Kamran səliqə ilə bükülmüş dolmaya baxıb:

– Bəh-bəh elə bil dolma dil açıb adamla danışır, özünə çəkir. Ana sənin bu başı boş qızın nə vaxt öyrənəcək yemək bişirməyi? – deyərək Nailəyə sataşdı.

Nailə incik halda:

– Niyə bişirə bilmirəm ki? Bax bu salatı özüm hazırlamışam. Dolmanı da hazırlamağa kömək etmişəm anama.

Səkinə xanım Kamranın sözünün Nailənin xətrinə dəydiyini görüb:

– İşin yoxdur  mənim ağıllı qızımla. Tayları onun əlinə heç su da tökə bilməzlər. Maşallah, hər işimə kömək edir.

Nailə anasının tərifindən sonra özünə gəlib iştahayla öz düzəltdiyi salatdan qabına çəkməyə başladı. Süfrə arxasındakı hamı artıq yeməyə başlamışdı.

Yeməyi bitirdikdən sonra Kərimlə Qurban müəllim televizorda xəbərlər proqramına baxmağa keçdilər. Kamran yenə kompüter arxasına qaçdı. Nurlan da atasıgillə birgə oturmuşdu. Səkinə xanım və Nailə süfrəni yığışdırırdılar. Kərim atası ilə həmsöhbət olmağı xoşlayır, sanki bundan xüsusi bir zövq alırdı. Kamran daha çox təkliyi sevdiyi üçün gününün çox hissəsini kompüter arxasında keçirdirdi. Onun bu hərəkətini həm Qurban müəllim, həm də Səkinə xanım dəfələrlə tənqid etmişdilər. Lakin Kamran xasiyyətini heç cür dəyişmirdi. Nurlan isə son vaxtlar evdə tapılmırdı. Gecə gec saatlara qədər çöldə olur, evə səhərə yaxın gəlib çatırdı. Qurban kişi dəfələrlə onu danlamaq istəsə də Səkinə xanım mane olmuşdu. Yenə də Nurlanın mobil telefonuna zəng gəldi:

– Alo. Hə Samir. Siz görüşmüsünüz? 15-20 dəqiqəyə orda olaram. Görüşərik. Hələlik.

Kərim eşitdiklərindən heç də xoşhal olmadı:

– Yenə hara gedirsən bu saatda? Kim idi o zəng edən?

– Samirdi. Sinif yoldaşım. Şəhərdə məni gözləyirlər.

– Bəsdir gecə vaxtı çölə çıxdığın. Nə var bu şəhərdə, başa düşmürəm. Qoşulmusan özün kimi səfehlərə hər gün bir yerə gedirsən. Bir gün də evdə, ailənin yanında otur.

Səkinə xanım qışqırıq səslərinə içəridən gəldi:

– Kərim, qadan alaram, işin yoxdur uşaqla. Qoy getsin gəzsin bir az fikri dağılsın. Mən tanıyıram dostlarını heç biri pis uşağa oxşamırlar.

Kərim üzünü atasına tutub ondan dəstək gözlədi, amma atası heç nə demədiyinə görə daha anasına etiraz etmədi:

– Nə deyirəm ana gəzsin deyirsən getsin gəzsin. Amma bax axırı yoxdur belə gecə vaxtı səfeh-səfeh gəzməyin.

Nəticədən razı qalan Nurlan sevincək ayağa qalxdı. Gəlib anasını qucaqlayıb öpdü və evdən çıxdı. Nurlan on səkkiz yaşını üç ay əvvəl tamamlamışdı. Elə o vaxtdan özünü azad fərd hesab edir, nə istəsə sərbəst edə biləcəyini düşünürdü. Qardaşlarına nisbətən hündür boylu idi. Onu çox vaxt dayısına oxşadırdılar. Dəblə geyinməyi sevirdi. Saçlarına da xüsusi diqqət ayırırdı. Bəzən saatlarla aynanın qarşısında saçını darayırdı. Hərdən Nailə ona sataşaraq qız kimi bəzəndiyini deyirdi. Bu Nurlanın acığına getsə də bacısına heç nə deyə bilmirdi. Hər dəfə bir formaya saldığı qara saçları, səliqəli qaşları, üzündə hələ yeni-yeni formalaşan tükləri ilə ümumilikdə yaraşıqlı saymaq olardı Nurlanı. Üzündəki əsas eybi alnında yaşı ilə bağlı yaranan səpgilər idi. Bu səpgilər Nurlanın yaraşığına kölgə salsa da saçları ilə həmin səpgiləri gizlədirdi.

Xəbərlər bitdikdən sonra Kərim atası ilə şahmat oynamağa başlamışdı. Nailə qardaşı ilə atasına çay verdikdən sonra anası ilə televizorda sevimli teleserialına baxmağa yollanmışdı. Qurban müəllim ilə Kərim çaylarını içərək cidd-cəhdlə edəcəkləri gedişlər haqqında fikirləşirdilər. Aralarında olan şahmat oyununda gah ata, gah da oğul qalib gəlirdi. Şahmat

oynamağı Kərimə öyrədən də, elə onu sevdirən də Qurban kişi olmuşdu. Kərimə şahmatı yeddi yaşında öyrətmişdi. Elə o vaxtdan hər həftə azı bir dəfə şahmat oynayırdılar. İlk əvvəllər Qurban kişi kiçik oğlunun könlü xoş olsun deyə qəsdən uduzmasına baxmayaraq vaxt keçdikcə Kərim artıq həqiqi qələbələr qazanmağa başlamışdı. Hazırda isə şahmatda Qurban kişinin ciddi rəqiblərindən idi.

Kamran vaxtını daha çox kompüter oyunlarına sərf edirdi. Arada internetdə sosial şəbəkələrdə dostları ilə danışır, bir azdan bezib yenə də oyunlara qayıdırdı. Onun ayrı aləmi varıydı. Nə kimləsə görüşməyi, nə də evdəkilərlə söhbət etməyi sevərdi. Kompüterlə məşğul olmadığı vaxtlarda belə otağında tək oturub musiqiyə qulaq asar, ya da nəsə cızma-qara edərdi.

Şahmat oyunu bu dəfə Qurban kişinin qələbəsi ilə başa çatdı. Kərim daşları səliqə ilə qabına yığdı və taxtanı aparıb yerinə yerləşdirdi. Daha sonra saata baxdı. Saat artıq on ikini adlamışdı. Anasını səsləyib:

– Ana, bu Nurlan harada qaldı? Nə vaxt təşrif buyuracaq evinə bəyzadə?

Bu dəfə atası Qurban kişi də oğluna dəstək verdi:

– Səkinə, sən çox üz verirsən o uşağa. Nə özün bir qabağına qoyub başa salırsan ki, belə olmaz, nə də mənə imkan verirsən.

Bu sözlərdən Səkinə xanım da narahat olub Nurlanın mobil telefonuna zəng vurdu. Nurlan telefona cavab vermirdi. Səkinə xanım daha bir dəfə zəng vurdu yenə telefona cavab verilmədi.

Qurban kişi əsəbiləşərək:

– Bu saata qədər küçələrdə veyilləndiyi bəs deyil hələ bir telefona da cavab vermir – dedi və Nurlana özü zəng etdi.

Bu dəfə artıq telefona zəng çatmırdı. Qurban kişi indi, ümumiyyətlə, hövsələdən çıxmışdı:

– And olsun Allaha, Səkinə, sən bu dəfə də imkan verməsən ki, mən o küçüyü necə lazımdırsa başa salım, onda vay sənin halına – dedi və yatmağa yollandı.

Səkinə xanımın narahatlığı indi birə-beş artmışdı. O, dəfələrlə oğluna zəng edir yenə də bir nəticə əldə edə bilmirdi. Kərim də artıq yerində dura bilmir, evin içində o tərəfə-bu tərəfə gedirdi. Səkinə xanım Kamranı səslədi:

– Kamran. Gəl bəri görüm. Qardaşın ortalıqda yoxdur yenə gedib yıxılmısan o zəhrimarın qabağına. Dədəndən, anandan artıq olub o kompüter sənə.

Kamran anasının səsindəki hiddəti hiss edib cəld yanına gəldi:

– Nə olub, ay ana?

– Nə olacaq, Nurlan ortalıqda yoxdur. Telefonuna da zəng çatmır. Sən o Samirdir nədir, o oğlanın nömrəsini bilmirsən?

– Yox, ay ana, mən haradan bilim Samirin nömrəsini?

– Başqa dostundan-tanışından kimin nömrəsini bilirsən?

– Vallah heç kəsin nömrəsi yoxdur məndə. Darıxma, ana, harada olsa çıxıb gələr. Birinci dəfə deyil ki,

Nurlan bu saatlarda gəlir evə. Bundan da gec gəldiyi vaxtlar olub.

– Sən necə qardaşsan, bir dostunun, tanışının nömrəsini bilmirsən? Səninki odu elə yıxılasan o zəhrimarın qabağına, dünya-aləmi vecinə almayasan. Mən neyniyim indi? Başıma haranın daşını salım? – ananın narahatlığı getdikcə artırdı.

Dəqiqələr sanki illər kimi keçirdi. Qurban kişidən başqa ailənin bütün üzvləri bir otağa yığışmış, Nurlanın gəlməsini gözləyirdilər. Heç kimin gözünə yuxu getmirdi. Qurban kişi də gedib yerinə uzanmasına baxmayaraq yata bilməmişdi. O, da qulağı səsdə Nurlanın gəlişini gözləyirdi. Artıq saat gecə üçü adlamışdı. Bu müddət ərzində Səkinə xanım nələr yaşamışdı bir Allah bilirdi. Dəfələrlə olunan telefon zəngləri heç bir nəticə vermirdi. Artıq günün işığı yavaş-yavaş özünü göstərməyə başlayırdı. Qurban kişi də yerində qala bilməyib ailə üzvlərinin yanına gəlmişdi. Bu dəm Nailə Nurlanın otağından köhnə mobil telefonunu tapıb gətirdi. Kərim cəld telefonu Nailədən alaraq nömrələrin yazıldığı yaddaşdan Samirin nömrəsini tapıb zəng etdi. Bir xeyli cavabsız qalan telefon zəngini Samirin yuxulu səsi dayandırdı:

– Alo. Kimdir?

– Alo. Samir sənsən?

– Hə mənəm. Kimdir danışan?

– Kərimdir, Nurlanın qardaşı.

Samirin bayaqdan yuxulu gələn səsi sanki indi özünə gəldi:

– Bəli, Kərim qardaş, eşidirəm. Nə lazımdır?

– Samir Nurlan sənin yanında deyil? Gecədən onu axtarırıq. Telefonuna zəng çatmır. Evdən səninlə görüşmək üçün çıxmışdı.

– Hə, Kərim qardaş, axşam bir yerdəydik. Getdik şəhərdə gəzdik bir az. Amma axşam saat on ikinin yarısı olardı biz ayrıldıq. O da evə gəlirdi. Necə gəlib çıxmayıb?

– Nə danışırsan, Samir? Harada ayrıldınız siz? Sənə dedi evə gedirəm?

– Hə elə Nizami küçəsində sağollaşdıq. Yollarımız ayrı idi. O da dedi ki, gedirəm evə. Ondan sonra xəbərim olmayıb ondan.

– Yaxşı, Samir. Sən Allah, bir xəbər bilən kimi bizə də bildir. Sən bizdən daha yaxşı bilərsən onun dost-tanışını.

– Arxayın ol, Kərim qardaş. Bir məlumat alan kimi sizə xəbər edəcəyəm.

– Xudahafiz.

– Xudahafiz.

Səkinə xanım bütün telefon danışığını səbirsizliklə dinləyib Kərim telefonu qapayan kimi həyəcanla sual verdi:

– Nə dedi, ay oğul? Hardaymışlar? Yanındadır Nurlan?

– Axşam görüşüblər. Amma on ikinin yarısında sağollaşıblar. Nurlan da deyib ki, gedirəm evə. Ondan sonra xəbər almayıb Nurlandan.

Səkinə xanımın eşitdiyi sözlərdən sonra bənizi soldu. Əli ilə dizlərinə çırpa-çırpa:

– Allah, bu nə iş idi başımıza gəldi? Sənə qurban olum, Allah, balamı sağ-salamat yetir mənə, – deyə nalə çəkdi.

Qurban kişinin də, Kərimin də, elə digərlərinin də narahatlığı az deyildi. Qurban kişi özünü tox tutmağa çalışır, mümkün qədər sakit hərəkət edirdi. Kərim həyəcandan yenə otağın içində var-gəl edir, yerində dayana bilmirdi. Səkinə xanımla Nailə göz yaşlarına boğulmuşdular. Kərim atasına üzünü tutaraq:

– Ata, qalx gedək polisə xəbər verək. Onlar da axtarsınlar. Adam belə əli-qolu bağlı oturduqca lap dəli olur.

Qurban kişi razılıq əlaməti olaraq başını tərpədib paltarını dəyişməyə yollandı. Elə Kərim də paltarını dəyişdi. Artıq beş dəqiqə sonra hər ikisi Kərimin avtomobilinin yanında idilər. Daha bir beş dəqiqədən sonra qara "Nissan" artıq yola düzəlmişdi. Qurban müəllim hörmətli, sayılıb-seçilən adamlardan idi. Elə polis bölməsində də tanıyırdılar onu. Onları burada xüsusi ehtiramla qarşılayıb məsələnin nə yerdə olduğunu soruşdular. Qurban müəllim bütün baş verənləri olduğu kimi danışdı. Daha sonra onlardan ərizə alıb əllərindən gəldikləri qədər kömək edəcəklərinə söz verdilər:

– Darıxmayın, Qurban müəllim, cavan oğlandır, bəlkə də gedib harasa. Telefonu da yaddan çıxarıb. Qayıdıb gələr. Biz də bütün əməkdaşlarla Nurlanın tapılmasında əlimizdən gələni əsirgəməyəcəyik.

Yenidən qayıdıb evə gəldilər. Səkinə xanım Qurban kişini görən kimi qabağına yüyürüb:

– Nə oldu, a kişi? Nə dedilər polisdə?

– Heç nə. Nə deyəcəklər? Dedilər axtaracağıq. Sən də özünü bir az ələ al. Birtəhər tapacağıq uşağı.

Elə bu vaxt Kərimin mobil telefonuna zəng gəldi. Bu Kərimin iş yoldaşı, həm də ən yaxın dostu Elnur idi. Kərim telefonu götürüb:

– Alo. Eşidirəm Elnur.

– Alo. Kərim salam. Necəsən? Gördüm işdə yoxsan narahat oldum. Sən heç gecikməzdin işə. Nəsə problem yoxdur ki?

– Balaca qardaşım Nurlan dünən gecədən itib. Tapa bilmirik. İndicə polis idarəsindən qayıtmışam.

– Necə itib? Bir görən olmayıb? Nəsə kömək lazımdı sənə?

– Uzun söhbətdir bu. Məni soruşan olmayıb işdə? Soruşan olsa vəziyyəti izah edərsən də zəhmət olmasa.

– Sən narahat olma işdən. Yoluna qoyarıq. Nəsə lazım olsa dərhal əlaqə saxlaya bilərsən mənimlə. Xudahafiz.

– Xudahafiz.

Səkinə xanım yenə həyəcanla:

– Kimdir, bala? Nurlandan xəbər var nəsə?

– Yox, ay ana. Dostumdu, Elnur. Görüb işə gəlmirəm, narahat olub.

Daha sonra Kərim üzünü Nailəyə tutub:

– Nailə, get o Nurlanın köhnə telefonunu gətir görək kimi tapırıq nömrələrdən.

Nailə tez Nurlanın otağına yüyürüb dərhal da əlində telefonla qayıtdı. Kərim telefondakı nömrələri bir-bir incələyib beyninə batan bütün adamlara zəng

eləməyə başladı. Artıq axşam düşürdü. Saat yeddiyə yaxınlaşırdı. Kərim yaddaşdakı demək olar bütün nömrələri yığmış lakin Nurlan haqqında heç bir məlumat öyrənə bilməmişdi. Evdə ölü bir sükut hökm sürürdü. Heç kim bir kəlmə belə danışmadan gözləyirdi. Hər dəqiqə nəsə bir məlumatın gəlməsi ilə ötüb keçirdi. Hər keçən dəqiqə ev sakinlərini daha da bədbinliyə qərq edirdi.

Artıq Nurlanın yoxa çıxmasından iki gün ötmüşdü. Sirli bir şəkildə yoxa çıxan Nurlandan iki gündür heç bir xəbər almaq mümkün olmurdu. Polisin də, Qurban müəllimgilin də axtarışları nəticəsiz qalırdı.

# II FƏSİL

Bütün ailə üzvləri yenə də qonaq otağına yığılmış hər an bir xəbərin gəlməsini gözləyirdilər. Kərim yaxın dostu Elnurla birgə Nurlanın ən son dəfə görüşdüyü yerə baxmağa yollanmışdı. Nurlanın özünü olmasa belə ona aid hər hansı bir iz tapacağına ümid edirdi. Düzdür, bu hər gün minlərlə insanın keçdiyi küçədə demək olar ki, qeyri-mümkün idi, lakin Kərimin evdə sakit oturub gözləməyə səbri çatmırdı. Saat beşi adlamışdı ki, Kərimlə Elnur evin qapısından içəri daxil oldular. Bütün ailə bir ümidlə Kərimin gözünün içinə baxırdı. Kərimin üzündəki ifadə heç bir əlavə kəlməyə ehtiyac olmadığını hiss etdirirdi. Kərimlə Elnur bütün küçəni dəfələrlə gəzsələr belə hər hansı bir izə rast gəlməmişdilər. Qurban müəllim də öz növbəsində dövlət orqanlarında çalışan dostlarına müraciət etmiş, onlardan kömək istəmişdi. Artıq bəlkə də yüzlərlə insan müəmmalı şəkildə yox olan bu on səkkiz yaşlı oğlanı axtarırdı. Kazımovlar ailəsi bəlkə də həyatlarının ən uzun iki gününü yaşamışdılar. Hava getdikcə qaralmağa başlamışdı. Günəş artıq yarım saat idi ki batmışdı. Düşən qaranlıq Kazımovlar ailəsinin azalan ümidlərini bir az da zəiflədirdi.

Gecənin sükutunu Qurban kişinin mobil telefonunun zəngi pozdu. Qurban kişi həyəcanlı olaraq dərhal telefona cavab verib:

– Alo. Kimdir? Bəli mənəm. Nurlanla bağlı nəsə xəbər var? Bu saat gəlirəm.

Səkinə xanım halsız vəziyyətdə yıxılıb qaldığı stuldan cəld durub:

– Nə olub, a kişi? Nə dedilər? Nə xəbər var balamdan?

– Dedilər sizi polis bölməsində gözləyirik. Zəhmət olmasa gələrsiniz. Gedim görüm nə məsələdir.

– Tez get, a kişi, qurbanın olum tez get. Get oğlumun şad xəbəri ilə qayıt.

Qurban kişi, Kərim və Elnur birlikdə evdən ayrılıb polis bölməsinə yollandılar. Qara rəngli "Nissan" şəhərin yollarında sürətlə hərəkət edirdi. Yolda Qurban kişi bir az titrəyən səslə:

– Nəsə heç xoşum gəlmədi polisin danışığından. Qurban olum Allaha, axırın xeyrə calasın.

Kərim sanki atasının dediklərini heç eşitmirdi də. Bütün diqqəti ilə yola baxır və əlindən gəldiyi qədər sürətlə hərəkət etməyə çalışırdı. Lakin fikrinin yalnız yolda olmadığı açıq-aydın müşahidə olunurdu. Elnur narahatlığı azaltmaq üçün sözə qarışdı:

– Narahat olmayın, ay Qurban əmi. Bir də görərik elə Nurlanın özü yanlarındadır. Ya da nə bilim harda olduğunu tapıblar. Sıxmayın ürəyinizi.

– Nə bilim Elnur. Nəsə fikrimə heç yaxşı şeylər gəlmir.

Avtomobil artıq polis bölməsinin qabağında idi. Hər üçü cəld avtomobildən düşərək bölməyə doğru yüyürdülər. Qapıdakı növbətçidən zəng vuran adamın

otağını öyrənib oraya yollandılar. Otaqda otuz-otuz beş yaşlarında polis qarşıladı onları. Qısa kəsilmiş saçları, qalın qaşları, iri gözləri və dolu bədəni ilə ilk başda insanda heç xoş təəssürat oyatmayan insan idi bu polis. Əynində olan forma çox səliqəsiz görsənirdi. Çiyinlərində yerləşən ulduzlardan kapitan olduğu müəyyənləşirdi. Polis kapitanı sözə başladı:

– Qurban müəllim sizsiniz?

– Bəli, mənəm. Siz Allah deyin görüm Nurlan haqqında nə məlumat var?

– Qurban müəllim əvvəlcə onu deyim ki, çalışın sakit olun. Biz hələ dəqiq heç nə bilmirik.

– Niyə sakit olum? Deyin görüm nə baş verib?

– Bizim əməkdaşlar bu gün hissələrə parçalanmış on yeddi on səkkiz yaşlı gənc oğlan meyiti aşkar ediblər. Oğlan sizin təsvir etdiyiniz qədəri ilə Nurlana bənzəyir, amma üzərindən heç bir sənəd tapılmadığına görə kimliyini müəyyən edə bilməmişik.

– Aman Allah. Siz nə danışırsınız? Necə hissələrə parçalanmış?

Qurban kişi az qalırdı uşaq kimi ağlasın. Amma özünü birtəhər toplayıb məsələnin nə yerdə olduğunu aydınlaşdırmağa çalışırdı. Kərim ilə Elnur da polis kapitanının danışdıqlarından sonra donub qalmışdılar. Polis kapitanı davam etdi:

– Xahiş edirəm sakit olun. Biz hələ dəqiq heç nə bilmirik. Sizi buraya çağırmaqda məqsədimiz həmin meyitə baxıb onun Nurlan olub-olmadığını aydınlaşdırmağınızdır – dedi və bənizi solmuş Qurban kişiyə su təklif etdi.

Qurban kişi sudan bir neçə qurtum içib yenidən polis kapitanına müraciət etdi:

– Sən Allah, ləngimə dur gedək baxaq görək kimdir o oğlan. Onu görənə qədər mənim bağrım yarılar.

Polis kapitanı kiməsə zəng vuraraq maşını hazırlamağı tapşırdı. Daha sonra Qurban müəllim, Kərim, Elnur və polis kapitanı birlikdə otaqdan çıxıb aşağıya endilər. Polis maşınına əyləşib hərəkətə başladılar. Bir neçə dəqiqədən sonra artıq gedəcəkləri ünvana çatmışdılar. Yolda keçən bu bir neçə dəqiqə Qurban kişiyə illər qədər uzun görsənmişdi. Onlar avtomobildən enib binaya daxil oldular. Morqun qapısına çatdıqda polis kapitanı üzünü onlara tutub:

– Dediyim kimi meyit hissələrə parçalanıb və bu səhnəni görmək olduqca çətin olacaq. Sizdən artıq dərəcədə xahiş edirəm mümkün qədər sakitliyinizi qoruyasınız – dedi və morqun qapısını açıb içəri daxil oldular.

Buranın qəribə ab-havası heç nə görməyəndə belə insanın içində bir qorxu yaradırdı sanki. Onlar birlikdə üzərinə ağ parça sərilmiş meyitə yaxınlaşdılar. Meyitin başı üzərində əlli-əlli beş yaşlarında saçları gicgahdan başlayaraq ağarmış, üzündə kiçik çapıq izi olan, gözünə eynək taxmış ağ xalatlı kişi dayanmışdı. Onlar meyitin yanına çatdıqda həmin ağ xalatlı kişi yavaşca meyitin üzünü açdı. Meyitin üzü açılar-açılmaz Qurban kişinin dizləri boşaldı. O dizi üstə yerə çöküb:

– Nurlan, bu nə haldır düşmüsən, bala? Sənə bunu kim eləyib Nurlan? – deyə nalə çəkdi.

Kərim hönkürtü ilə ağlamağa başladı. Həm Qurban kişi, həm də Kərim göz yaşlarına boğulmuşdular. Elnur da bir yandan onları sakitləşdirməyə çalışır bir yandan da göz yaşlarını saxlaya bilmirdi. Vəziyyəti görən ağ xalatlı adam tez meyitin üzünü örtdü. Polis kapitanı digər polis əməkdaşlarının köməkliyi ilə meyitin yaxınlarını dəhlizə çıxarmağa çalışırdı. Lakin nə Qurban kişi, nə də ki, Kərim oradan ayrıla bilmirdilər. Elnurun və polis işçilərinin vasitəsilə Qurban kişi və Kərim otaqdan uzaqlaşdırıldılar. Hər ikisi dəhlizdə divarın dibi ilə yığılmış stullarda əyləşdirildi. Polis əməkdaşlarından biri qaçıb hər ikisinə su gətirdi. Onlar sudan bir az içdilər. Daha sonra Elnur sudan həm Kərimin, həm də Qurban kişinin üzlərinə vurdu.

Aradan yarım saat keçmişdi. İndi bu xoşagəlməz binanın soyuq dəhlizində oturmuş Qurban kişi və Kərim nisbətən sakitləşmişdilər. Kərim özünü ələ alıb atasını sakitləşdirməyə çalışırdı. Elnurla Kərim Qurban kişinin qoluna girərək onu binadan çıxarıb polis maşınına doğru apardılar. Qurban kişinin ayaqlarında taqət yox idi. Sanki ayaqları onu daşımır, yer ayağının altından qaçırdı. Birlikdə polis maşınına əyləşdikdən sonra Qurban kişigilin evlərinə doğru yollandılar. Qurban kişi yolda:

– Mən indi gedib Səkinəyə necə deyim ki, yoxdur Nurlan? Necə deyim balamız yoxdur? Necə izah edim ki, hansısa alçaq qatil balamızı vəhşicəsinə öldürüb? – deyib yenidən hönkürtü ilə ağlamağa başladı.

Kərim atasının sözlərindən təsirlənərək yenidən göz yaşlarına boğuldu. Elnurun da bədənindən sanki

titrətmə keçdi bu sözlərdən sonra. O da göz yaşlarına hakim ola bilmirdi. Artıq evin qapısına çatmışdılar. Qurban kişi çox yaxşı başa düşürdü ki, indi onu çox çətin bir vəzifə gözləyir. Bəlkə də həyatı boyu üzləşmədiyi qədər çətin vəzifə. İndi o özünü ələ almağa çalışırdı. Axı o bu acı xəbəri Səkinə xanıma çatdırmalı, daha sonra da sarsılmış ailəyə dayaq olmalı idi. Bu fikirlərlə Qurban kişi özünü ələ alıb həyət qapısına yaxınlaşdı. Elə Kərim də ailənin ən böyük övladı olaraq üzərinə düşən vəzifələri başa düşür və o da özünü toplamağa çalışırdı. Onları gətirən polis maşını hərəkətə gələrək gözdən itdi. İndi Qurban kişi, Kərim və Elnur həyət qapısını aralayıb həyətə daxil oldular. Bir neçə addım atmışdılar ki, Səkinə xanım evin qapısını açaraq qabaqlarına yüyürdü:

– Qurban, nə xəbər var balamdan? Haradadır Nurlan?

Hər üçü başlarını aşağı dikib susurdular. Qurban kişi özündə güc tapıb xəbəri vermək istəyirdi, lakin bacarmırdı. Səkinə xanım onların susduqlarını görüb yenidən soruşdu:

– Niyə susursuz? Nə dedilər Nurlandan? Niyə cavab vermirsən, Qurban? – deyib Qurban kişini silkələməyə başladı.

Qurban kişi bir anlıq Səkinə xanımın üzünə baxıb:

– Yoxdur Nurlan, Səkinə. Yoxdur balamız. Öldürdülər Nurlanı – deyib yenidən hönkürtü ilə ağlamağa başladı.

Səkinə xanım indi Qurban kişini daha möhkəm silkələyərək:

– Nə danışırsan, Qurban, nə danışırsan, a kişi? Necə yoxdur Nurlan? – deyib son bir ümidlə Qurban kişinin üzünə baxdı.

Qurban kişinin hələ də ağladığını görən qadın əllərini dizinə çırpıb elə bir nalə çəkdi ki, harayı ərşə ucaldı. Sonra Səkinə xanım özünü yerə çırpıb saçlarını yolaraq ağlamağa başladı. Kərim əyilib yerə yıxılan anasını qucaqladı və göz yaşlarını saxlaya bilmədi. Ev qapısının həndəvərində dayanmış Nailə ilə Kamran da hönkür-hönkür ağlayırdılar. Kərim anasını yerdən qaldırıb qucağında evə apardı. Elnur da Qurban kişinin qolundan yapışıb yeriməsinə kömək edirdi. Kərim anasını çarpayıya uzatdı. Səkinə xanım sakitləşmək bilmirdi. Elə hey əlləri ilə sinəsinə, dizlərinə çırpır, hönkürtü ilə ağlayırdı. Kərim anasının yanında oturub saçlarını sığallayaraq onu sakitləşdirməyə çalışırdı. Kamran ilə Nailə də çarpayının aşağısında dayanaraq göz yaşlarına qərq olmuşdular. Qurban kişi Elnurla birlikdə qonaq otağına keçmiş, halsız vəziyyətdə oturmuşdu. Elnur mətbəxdən su götürərək Kərimə apardı. Kərim sudan anasının üz-gözünə vurub yenə saçlarını sığalladı.

Artıq səhər açılırdı. Dan yeri sökülməyə başlamışdı. Ailənin hər bir üzvü taqətsiz və pərişan halda idilər. Xəbəri eşidən qohumlar və Qurban kişinin dostları da gəlmişdilər. Evdə xeyli adam var idi. Yaxın qohumların köməkliyi ilə həyətdə müsəlman adət-ənənəsinə uyğun olaraq mərasim çadırı qurulmağa başlanmışdı. Gələn qonaqlar bu çadırda yerləşdirilir, onlara çay

verilirdi. Kərim əl-üzünü yuyub nisbətən özünə gəldikdən sonra Elnurla birgə evdən çıxıb yenidən polis bölməsinə yollandı. Yoldan keçən bir taksini işarə ilə saxladıb əyləşdilər. Taksi sürücüsü gənc bir oğlan idi. Onlardan gedəcəkləri yeri soruşub yola düzəldi. Gəncin əhvalı yaxşıya bənzəyirdi. O, radioda şən bir mahnı qoymuşdu ki, Elnur radionu söndürməsini xahiş etdi. Kərim, sadəcə, donmuş halda pəncərədən çölə baxırdı. Lakin baxışları sanki çox uzaqlara yönəlmişdi. Çöhrəsində həm kədər, həm də qorxu hiss olunurdu. Kiçik qardaşı Nurlanın ölümünə görə keçirdiyi dəhşətli kədərlə birlikdə hazırda üstünə düşən vəzifənin ağırlığı qorxudurdu onu. Kərim bu vəzifənin öhdəsindən lazımınca gələ bilməyəcəyindən qorxurdu.

Taksi artıq polis bölməsinin qarşısında idi. Elnur taksinin pulunu ödədikdən sonra hər ikisi taksidən düşüb polis bölməsinə daxil oldular. Yenidən dünənki polis kapitanı Zeynalovun otağına yollandılar. Qapını döyüb içəri keçmək istədikdə qapının bağlı olduğunu gördülər. Kapitan Zeynalov otağında deyildi. Onlar dəhlizdə əyləşib Zeynalovun gəlişini gözləməyə qərar verdilər. Kərim stulda əyləşib başını divara söykəmiş, gözlərini yummuşdu. Elnur isə hərdən onun yanında əyləşir, hərdən isə dəhlizdə gəzişməyə başlayırdı. Kapitan Zeynalov təxminən iki saat sonra gəlib çatdı. Otağına yaxınlaşdıqda qapının yanında əyləşmiş gəncləri dərhal tanıdı. Onlara yaxınlaşıb əl uzatdı:

– Salam. Bağışlayın, deyəsən çoxdandır gözləyirsiniz. Xidmətlə əlaqədar əraziyə çıxmışdıq.

Kərim yorğun halda ayağa qalxıb Zeynalovun əlini sıxdı. Elnur da polis kapitanı ilə görüşdükdən sonra Zeynalov onları içəri dəvət etdi. Hər üçü içəri daxil olub əyləşdilər. Kapitan Zeynalov sözə başladı:

– İnsan bilmir belə vaxtlarda nə desin, necə təskinlik versin. Bəlkə də heç təskinlik vermək mümkün deyil. Sadəcə, demək istəyirəm ki, başınız sağ olsun. Allah rəhmət eləsin!

– Çox sağ olun. Allah ölənlərinizə rəhmət eləsin. Buraya gəlməkdə məqsədim sizdən daha ətraflı məlumat almaqdır. Nurlanı hardan tapmısınız? Cinayətlə bağlı hər hansı başqa bir izə rast gəlmisinizmi?

– Bildiyiniz kimi Nurlanın meyiti hissələrə parçalanmışdı. Səhər saatlarında süpürgəçi bir qadın bizim qaynar xəttə zəng vuraraq un kisəsinin içində meyit hissəsi tapdığını bildirmişdi. Bizim əməkdaşlar dərhal əraziyə gedərək hadisə yerinə baxış keçirmişdilər. Müəyyən fasilələrlə daha beş zəng daxil oldu və şəhərin başqa hissəsində daha beş meyit hissəsi tapıldığı bildirildi. Nurlanın cəsədi altı hissəyə parçalanmış və meyitin hissələri şəhərin müxtəlif hissələrinə qoyulmuşdu. Lakin cinayətkarın şəxsiyyəti və ya cinayətin törədilməsi ilə bağlı heç bir izə rast gəlinməyib. İşin materialları artıq prokurorluğa yollanmışdır. Bildiyim qədəri ilə işlə bağlı ibtidai istintaqı müstəntiq Rauf Eyvazov həyata keçirir.

Bu eşitdiklərindən sonra Kərimin bənizi yenidən soldu. Qəhər onu boğurdu sanki. Özünü toplayıb:

– Bəs cənazəni nə vaxt təhvil ala bilərik?

– Hazırda meyitin üzərində ekspertiza işləri aparılır. Ümid edirəm ki, üç-dörd gün ərzində sizə təhvil verilər.

– Çox sağ olun. Xudahafiz.

– Xudahafiz.

Kərimlə Elnur otaqdan çıxıb aşağı endilər. Polis bölməsindən çıxıb bir az hava aldıqdan sonra dünəndən bölmənin qabağında qalmış avtomobillərinə tərəf addımlamağa başladılar. Kərim sakit və titrək səslə:

– Heç cürə başa düşə bilmirəm, Elnur, kim nə istəyirdi Nurlandan? Axı niyə öldürdülər onu? Həm də belə vəhşiliklə niyə öldürdülər?

– Darıxma, Kərim, tapılacaq o alçaq canavar. Tapılıb cəzasına çatacaq.

– Onun tapılması Nurlanı geri qaytarmayacaq ki, Elnur. Nurlan əbədiyyətə qədər ayrıldı aramızdan.

– Məkanı cənnət olsun. Allah sevdiyi bəndələri yanına tez aparır. Sən bu halda maşın sürə bilməzsən. Açarları ver mən sürərəm.

Kərim maşının açarlarını Elnura uzadıb özü də maşına əyləşdi. Avtomobil polis bölməsindən ayrılıb evə doğru yol almağa başladı. Məhəlləyə çatdıqda burada xeyli maşın və onlarla insanın toplaşdığı görsənirdi. Qapının ağzında dayanmış təcili yardım maşınını gördükdə Kərim cəld maşından aşağı sıçradı və evə doğru qaçmağa başladı. Evə girdikdə həkimlərin anasıgilin otağından çıxdığını gördü. Cəld içəri daxil oldu. Nailə Kərimi görüb ayağa qalxdı və gəlib onu qucaqlayaraq:

– Anamın vəziyyəti pisləşmişdi, Namaz əmi təcili yardım çağırdı. Onlar da gəlib sakitləşdirici vurdular. İndi-indi yuxuya gedib – dedi və hıçqıraraq ağlamağa başladı.

Kərim Nailənin saçını sığallayıb onu sakitləşdirməyə çalışdı. Sonra əyilib yanağından öpdü və otaqdan çıxdı. Atasını axtardıqda mərasim çadırının yanında gələn qonaqları qarşıladığını öyrəndi. Kərim də atasının yanına gedərək Nurlanı nə vaxt təhvil alacaqları barədə məlumat verdi və o da qonaqları qarşılamağa başladı.

Dəhşətli qətl hadisəsi kütləvi informasiya vasitələrində öz əksini tapmışdı. Bütün qəzetlər vəhşicəsinə qətlə yetirilən on səkkiz yaşlı gəncdən bəhs edirdi. Televizorda xəbərlər proqramında da bu xəbərə yer verilmişdi. Bu xəbər ölkə ərazisində böyük sensasiya yaratmışdı. Artıq şəhərdə şayiələr də yayılmağa başlamışdı. Kimisi bunun bir manyak tərəfindən törədilməsindən bəhs edir, kimisi atasının düşmənləri tərəfindən törədilməsini deyir, kimisi isə namus məsələsi üstündə öldürüldüyünü söyləyirdi. Amma məsələnin nə yerdə olduğunu dəqiq olaraq hələ heç kim bilmirdi.

# III FƏSİL

Səhərin erkən saatlarında prokurorluğun qarşısında bir avtomobil dayandı. Bu prokurorluğun təcrübəli müstəntiqi Rauf Eyvazovun avtomobili idi. Adəti üzrə işə tam vaxtında gəlmişdi. Getdiyi yerlərə gecikməyi heç sevməzdi. Avtomobili saxlayıb prokurorluğun binasına daxil oldu. İçəri girər-girməz ona prokurorun təcili olaraq onu gözlədiyini söylədilər. Təcrübəli müstəntiq bu hallara artıq öyrənmişdi. Prokuror Rauf Eyvazovun bacarığına və iş təcrübəsinə etimad edirdi. Bunun üçün də çətinliyi ilə fərqlənən işləri onun öhdəsinə verirdi. Rauf Eyvazov da daima prokurorun ona olan etimadını doğruldurdu. O, işinə qarşı hər zaman diqqətli idi. Rauf müəllimin iki ay sonra qırx dörd yaşı tamam olacaqdı. Qara saçlarının arasında gözə dəyən ağ saçlar ona xarizmatik görünüş verirdi. Səliqə ilə qırxılmış üzü və saçları, nisbətən uzun çənə quruluşu, qövsvarı qaşları ilə insanda özünə qarşı müsbət emosiya oyadırdı. Geyindiyi formanın səliqəsinə daim fikir verərdi. O, həmişə deyirdi ki, insanın işinin səliqəsi ilk növbədə xarici quruluşunun səliqəsindən başlayır. Rauf müəllimin atletik bədən quruluşu gəncliyində idmanla məşğul olmasından xəbər verirdi. Alnındakı qırışlar isə işinin ağırlığını özündə əks etdirirdi sanki.

Rauf Eyvazov təmkinlə prokurorun otağına qalxdı. Qapını döyüb icazə istədikdən sonra otağa daxil oldu:

– Buyurun, cənab prokuror, məni çağırmısınız.

– Hə, gəl əyləş, Rauf. Rauf, mənim bir yaxın dostumun oğlunu iki gün əvvəl qətlə yetiriblər. Bəlkə elə sən də eşitmiş olarsan adını, Qurban müəllimin oğlunu.

– Qurban müəllimi qiyabi olaraq tanıyıram, bəli.

– Məsələ burasındadır ki, qətl xüsusi amansızlıqla törədilib. Oğlanın meyiti altı hissəyə parçalanıb və şəhərin müxtəlif hissələrinə tullanıb.

– Dünən bu qətl barədə eşitmişdim. Amma qətlə yetirilənin Qurban müəllimin oğlu olduğunu bilmirdim.

– Qulaq as, biz ən qısa müddətdə cinayətkarı tapmalıyıq. Bu bizim ilk növbədə vəzifə borcumuzdu, ikinci növbədə isə mənim dostuma olan borcumdu. Başa düşürsən məni, Rauf?

– Aydındır, cənab prokuror.

– İndi mən səndən bu işə maksimum diqqətlə yanaşmağı və əlindən gələn ən qısa müddətdə qatili tapıb təqsirini sübut etməyini istəyirəm.

– Baş üstə, cənab prokuror. Qatilin tapılmağı və cəzasına çatması üçün əlimdən gələni əsirgəməyəcəyimə əmin ola bilərsiniz.

– Buna əminəm. İndi isə get və artıq işə başla. Nəsə köməyə ehtiyacın olsa və ya nəsə məlumat əldə etsən dərhal mənə məlumat ver.

– Oldu, cənab prokuror.

– Gedə bilərsən.

Prokuror cinayət işinin materiallarını Rauf Eyvazova uzatdı. Rauf müəllim cinayət işini götürüb otaqdan çıxdı. Pilləkənlərə doğru addımlayıb bir mərtəbə aşağı endi. Rauf müəllimin otağı prokurorun otağının altında yerləşirdi. O, otağının qapısını açıb içəri daxil oldu. Köməkçisi onu gördükdə dərhal ayağa qalxdı. Bu gənc oğlan hüquq fakültəsini yenicə bitirmiş, atasının xahişi ilə Rauf müəllim işi öyrənməsi üçün onu öz yanına götürmüşdü. Amma bacarıqlı oğlan idi. Rauf müəllimin izah etdiklərini ilk dəfədən başa düşür və sonra da sərbəst tətbiq edə bilirdi. İşlərində xeyli kömək edirdi ona. Rauf müəllim əlini gəncə doğru uzatdı:

– Salam, Şamil. Necəsən?

– Salam Rauf müəllim. Çox sağ olun, siz necəsiniz?

– Şükür olsun Allahın bu gününə, yaxşıyam. Nə etdin, yekunlaşdıra bildin dünən tapşırdığım işləri?

– Bəli, Rauf müəllim. Demək olar hamısı hazırdır. Dediyiniz sorğunu da göndərdim. Bu gün cavab gəlməlidir.

– Yaxşı eləmisən. Yeni bir cinayət işi var. İndi cidd-cəhdlə bununla məşğul olmalıyıq. Zəhmət olmasa mənə bir çay denən gətirsinlər, sonra başlayaq görək nə edə bilirik.

– Baş üstə, Rauf müəllim, – dedi və zəng edib Rauf müəllimin otağına bir çay gətirilməsini tapşırdı.

Rauf müəllim cinayət işinə nəzər yetirməyə başladı. Yazılan hər bir detalı diqqətlə incələyir, xüsusi marağına səbəb olan hissələri qələmlə qeyd edirdi. Beş dəqiqədən sonra artıq çayı da gətirmişdilər. Rauf müəllim səbirlə cinayət işini nəzərdən keçirdi və gözdən keçirməsi üçün Şamilə uzatdı. Şamilin bu işlərə marağı böyük idi. Rauf müəllim də onun bu marağından xəbərdar idi. Bunun üçün də o, imkan olduqca Şamilə cinayət işləri ilə tanış olmaq şansı verirdi. Şamil cinayət işini həvəslə vərəqləyərkən Rauf müəllim çayını içməyə başlamışdı. O, çayını içdikcə görəcəyi işləri planlaşdırırdı. İşə haradan başlayacağına qərar verməyə çalışırdı. Çayını içdikdən sonra sakit bir tərzdə ayağa qalxdı. Qapıya doğru addımladı və qapıdan çıxarkən üzünü Şamilə çevirib:

– Şamil, mən mərhumun ailəsi ilə görüşməyə gedirəm. Nə isə vacib bir şey lazım olsa zəng edərsən. Ola bilsin axşam mən gec qayıdası oldum bura. Sən axşam həmişəki vaxtda bağlayıb gedərsən.

– Oldu, Rauf müəllim. Siz narahat olmayın.

– Xudahafiz.

– Xudahafiz.

Rauf müəllim bundan sonra otağı tərk etdi və pilləkənlərlə aşağı enməyə başladı. Yolda rastlaşdığı iş yoldaşları ilə fikirli halda salamlaşıb prokurorluğun binasından çıxdı. Avtomobilinə əyləşib mühərriki işə saldı və dərhal da hərəkətə başladı. On beş dəqiqədən sonra "BMW" artıq Qurban müəllimgilin evinin qarşısında idi. Rauf müəllim avtomobilinə yer tapıb sax-

ladıqdan sonra Qurban müəllimgilin həyətinə daxil oldu. Burada xeyli insan var idi. O, insanların arası ilə addımladı və mərasim çadırının qarşısına çatdı. Rauf müəllimin Qurban müəllimlə şəxsən tanışlığı yox idi. Lakin o, Qurban müəllim haqqında çox eşitmişdi. Hətta bir dəfə qəzetdə Qurban müəllim haqqında çıxan məqalədə onun şəklini də görmüşdü. Bu səbəbdən də o, Qurban müəllimi dərhal tanıdı. Ona yaxınlaşıb əlini uzatdı:

– Salam. Başınız sağ olsun. Allah rəhmət eləsin.

– Salam. Çox sağ olun, Allah ölənlərinizə rəhmət eləsin. Amma üzrlü hesab edin, sizi tanıya bilmədim.

– Adım Raufdur, Rauf Eyvazov. Prokurorluğun müstəntiqiyəm. Oğlunuz Nurlanın qətli ilə bağlı işi araşdırıram. İcazə versəniz sizə bir neçə sualım olacaq.

– Buyurun, Rauf müəllim, gəlin keçək içəri əyləşək, – dedi və əli ilə Rauf müəllimə yol göstərdi.

Hər ikisi içəri daxil olub bir stol arxasında üzbəüz əyləşdilər. Qurban müəllim əli ilə işarə edib çay gətirilməsini xahiş etdi. Dərhal hər ikisi üçün çay gətirildi. Rauf müəllim çaydan bir qurtum alıb sözə başladı:

– Sizin üçün nə qədər ağır və çətin bir mərhələ olduğunu başa düşürəm. Sizi belə bir vaxtda bu suallarla narahat etmək istəməzdim, lakin oğlunuzun qatilinin tez bir zamanda tapılması üçün buna məcburam.

– Yox, Rauf müəllim, siz qətiyyən narahat olmayın. Mənim üçün Nurlanın qatilinin tapılması hazırda yaşadığım kədərdən daha vacibdir. Buyurun nə öyrənmək istəyirsinizsə mən cavablandırmağa hazıram.

– Anlayış göstərdiyiniz üçün sizə təşəkkür edirəm. Nurlanı son dəfə nə vaxt və harada görmüsünüz?

– Mart ayının ikisində. Evdəydik. Ailəlikcə şam yeməyi yedikdən sonra mən böyük oğlum Kərimlə televizorda xəbərlər proqramına baxmağa keçdim. Nurlan da bir müddət bizim yanımızda əyləşdikdən sonra telefonuna zəng gəldi və o telefondakı şəxsə evdən çıxıb gələcəyini bildirdi.

– Zəng edən kim idi? Kiminlə danışdığını bilmədiniz?

– Yaxın dostlarından Samir adlı oğlan idi zəng edən. Nurlanla sinif yoldaşı olublar. Həmişə onunla görüşərdi.

– Bəs Nurlan evdən çıxarkən saat neçə olardı?

– Təxminən saat doqquz olardı. Nurlan zəng gələndən təxminən beş dəqiqə sonra evdən çıxdı.

– Hara gedəcəyi barədə bir məlumat vermədi?

– Dedi ki, şəhərdə dostları ilə gəzməyə gedir. Böyük oğlum Kərim gec olduğu üçün getməyinə imkan vermək istəmirdi. Lakin anasının xahişi ilə getməsinə mane olmadı.

– Bundan sonra onunla hər hansı formada danışmısınızmı?

– Xeyr. Gecə saat on ikini keçdikdən sonra yenə də Kərim ilk olaraq Nurlanın harada olmasını maraqlandı. Bundan sonra anası Nurlanın telefonuna zəng etsə də cavab verən olmadı. Daha sonra mən zəng etdim onun mobil telefonuna. Bu dəfə artıq telefon söndürülmüşdü. Səhərə qədər gözlədik, amma heç bir xəbər

ala bilmədik. Səhər saatlarında onun köhnə mobil telefonundan Samirin nömrəsini tapdıq. Kərim Samirə zəng etdi. Samir bizə bildirdi ki, Nurlanla gecə on ikinin yarısı ayrılıblar və Nurlan ona evə gedəcəyini söyləyib. Bundan sonra biz polisə məlumat verməyi qərara aldıq və polis bölməsinə yollandıq. Ayın dördündə isə mənə polisdən zəng edib bölməyə dəvət etdilər. Biz oradakı polis kapitanı ilə birgə meyitə baxmağa getdik və burada cəsədin Nurlana aid olduğunu öyrəndim. Bütün bildiyim bu qədərdir.

Rauf müəllim Qurban müəllimə diqqətlə qulaq asdı və əli ilə alnını ovuşdurdu. Bir qədər fikrə getdikdən sonra ayağa qalxdı. Onlar birlikdə çadırın çıxışına doğru addımlamağa başladılar. Birlikdə addımlayarkən Rauf müəllim Qurban müəllimə üzünü tutub:

– Qurban müəllim, Nurlanın köhnə mobil telefonunu mənə verə bilərsinizmi? Ümid edirəm ondan istintaqa kömək edəcək materiallar tapa bilərəm.

– Bəli, bəli, bu saat tapşıraram gətirərlər telefonu, – dedi və Kamranı yanına çağırıb Nurlanın köhnə telefonunu gətirməsini tapşırdı. Daha sonra üzünü müstəntiqə tutub:

– Oğlumdur, Kamran.

– Allah saxlasın. Allah qalan övladlarınıza dəyməsin, Qurban müəllim. Ailəniz neçə nəfərdən ibarətdir, ümumiyyətlə?

– Böyük oğlum Kərim, ondan iki yaş kiçik oğlum Kamran, qızım Nailə, rəhmətlik Nurlan və həyat yoldaşım Səkinə xanım.

– Hazırda psixoloji vəziyyətlərinin qaydasında olmadığını başa düşürəm, lakin daha sonra onlarla da söhbət etməli olacam.

– Buyurun, nə zaman istəsəniz.

– Bir də mənə Nurlanın həmin gün istifadə etdiyi telefon nömrəsini deyərdiniz zəhmət olmasa.

Qurban müəllim Nurlanın nömrəsini səsləndirdi. Elə bu vaxt Kamran əlində “Samsung” markalı telefonla qaçaraq gəldi. Kamran telefonu atasına uzatdı və dönüb gəldiyi istiqamətə qayıtdı. Qurban kişi telefonu Kamrandan alıb müstəntiqə uzatdı. Rauf müəllim telefonu alıb bir qədər nəzər yetirdikdən sonra cibinə qoydu. Daha sonra Qurban müəllimə əl uzadıb:

– Çox sağ olun, Qurban müəllim. Allah bir daha rəhmət etsin.

– Siz sağ olun, Rauf müəllim. Sizdən çox xahiş edirəm tezliklə tapın o alçaq canavarı. Tapın ki, ürəyim bir zərrə təskinlik tapsın.

– Arxayın olun, Qurban müəllim, bunun üçün əlimdən gələni edəcəyəm.

– Sağ olun.

– Sağ olun.

Rauf müəllim həyətdən çıxdı. Avtomobilə doğru irəliləyib qapını açdı. Əyləşmək istəyərkən jurnalistlərin həyətə daxil olmaq istədiklərini gördü. Bu dəm o daxili aləmində fikirləşməyə başladı ki, baş verən hadisələr insanın baxdığı prizmadan asılı olaraq dəyişir. Bu kimilərinin faciəsidir, kimilərininsə, sadəcə, sabah dərc edərək reytinq qazanmaq istədiyi kiçik bir

məqalədir. O bu fikirləri beynindən kənarlaşdırıb avtomobilə əyləşdi. Nurlanın telefonunu cibindən çıxarıb avtomobilin saxlanc qutusuna qoyduqdan sonra avtomobili işə salıb hərəkətə başladı. İndi o, Nurlanın cəsədinə baxış keçirmək niyyətində idi. Bunun üçün də o, avtomobili ilə morqa doğru istiqamət aldı. Yol boyu hərəkəti çətinləşdirən tıxac və bəzi təcrübəsiz sürücülərin etdiyi hərəkətlər insanı hövsələdən çıxarırdı. Bu tıxaclardan çətinliklə canını qurtarıb morqun yerləşdiyi binaya tərəf dönən müstəntiq avtomobilini saxlayıb binanın giriş qapısına yaxınlaşdı. Qapının ağzındakı növbətçi hissədə gənc bir polis nəfəri əyləşmişdi. Polis nəfəri Rauf müəllimi görüb cəld ayağa qalxdı. Rauf müəllim polis nəfəri ilə salamlaşdıqdan sonra morqa doğru addımlamağa başladı. Morqun qapısını açıb içəri daxil oldu. Ağ xalatlı kişi Rauf müəllimi görən kimi qarşılamaq üçün qabağına gəlib əlini uzatdı. Səmimi şəkildə görüşməklərindən bir-birlərini uzun müddətdir tanıdıqları aydın olurdu:

– Salam, Rauf, necəsən?

– Salam, Akif müəllim. Siz necəsiniz? – deyə cavab verdi. Akif müəllim müstəntiqdən yaşca böyük olduğu üçün Rauf müəllim ona "siz" deyə müraciət edirdi.

– Nə bilim, Rauf, yaxşı sayılaram. Bu dəfə kimin üçün gəlmisən?

– Kazımov Nurlan Qurban oğlunun meyitinə baxmalıyam.

– Hə, o cavan uşaq. Dəhşətli qətldir. Uzun müddət idi ki, belə qətl ilə rastlaşmırdım. Gəl gedək göstərim.

Onlar birlikdə içəri otağa keçdilər. Burada üzərinə ağ parça çəkilmiş meyit uzadılmışdı. Akif müəllim parçanı bütünlüklə cəsədin üstündən çəkdi. Rauf müəllim tez-tez insan meyitləri görməsinə baxmayaraq bu gördüyü mənzərə qarşısında narahatlığını gizlədə bilmədi. Özünü toplayıb meyiti nəzərdən keçirməyə başladı. Meyit altı hissəyə parçalanmışdı. Qolları, ayaqları və başı gövdəsindən ayrılmışdı. Rauf meyitə baxarkən Akif müəllim danışmağa başladı:

– Kəsici alətlə endirilmiş qüvvətli zərbələrlə bədən hissələri gövdədən ayrılmışdır. Xəsarətlər böyük ehtimalla baltayla yetirilmişdir. Daha bir maraqlı məqam isə meyitin alın nahiyəsində “V” işarəsinin olmasıdır.

Rauf müəllim bundan sonra Nurlanın alın nahiyəsinə baxdı. Burada həqiqətən də “V” hərfini xatırladan işarə mövcud idi. Amma görəsən, nə demək idi bu işarə? Nə mənaya gəlirdi? Hər halda bunun üzərində kifayət qədər düşünmək lazım gəlirdi. Rauf müəllim meyitə son dəfə ümumi nəzər yetirib Akif müəllimlə sağollaşdı və otağı tərk etdi. Yeyin addımlarla dəhlizlə addımlayıb binadan çıxdı. Sanki sürətlə yeriyib içəridə gördüyü mənzərədən kifayət qədər tez uzaqlaşmaq istəyirdi. Uzun illər müstəntiq işləməsinə və bu kimi hallarla demək olar tez-tez üzləşməsinə baxmayaraq o, hələ də bir insanın başqa bir insana bu cür vəhşilik etməsini başa düşə bilmirdi. Avtomobilinə doğru addımlayarkən saatına baxdı. Saat artıq beşə iyirmi dəqiqə işləyirdi. Maşına əyləşib yenidən prokurorluğun binasına doğru sürdü. Prokurorluq binasına daxil

olub dərhal da otağına qalxdı. O, yanında Nurlanın "Samsung" markalı telefonunu da götürmüşdü. Otağına daxil olduqda Şamil yenə də ayağa qalxıb onu qarşıladı. Rauf müəllim telefonu Şamilə uzatdı:

– Şamil, telefonu aç, telefon nömrələrinin olduğu yaddaşa daxil ol. Oradan Samir adını tap və nömrəsini mənə bildir.

– Baş üstə, Rauf müəllim, bu saat taparam, – dedi və dərhal telefonu açıb deyilən nömrəni axtarmağa başladı.

Aradan bir neçə dəqiqə keçdikdən sonra Şamil axtardığı nömrəni tapdı və kağız parçasına qeyd edib Rauf müəllimə verdi. Rauf müəllim nömrəyə nəzər yetirdikdən sonra Şamilə Nurlanın nömrəsini söylədi. Daha sonra əlavə etdi:

– Bu nömrənin mobil operatoruna sorğu göndərərsən. Qoy mart ayının ikisində olan bütün zənglərin siyahısını göndərsinlər.

Şamil başı ilə razılıq etdikdən sonra dərhal sorğunu yazmağa başladı. Rauf müəllim Samirin nömrəsini yığdı. Cavabın gəlməsi uzun müddət gözlənilmədi. Samir dərhal telefona cavab verdi:

– Alo. Salam. Samirdir danışan?

– Salam. Bəli mənəm. Kim idi danışan?

– Prokurorluğun müstəntiqi Rauf Eyvazov. Nurlan Kazımovun qətli ilə bağlı zəng etmişdim.

– Buyurun, eşidirəm sizi.

Samirin səsindəki həyəcan aşkar hiss olunurdu. Səsi titrəməyə başlamışdı. Yalnız özünü sakit göstərməyə çalışırdı. Rauf müəllim sözə davam etdi:

– Samir, qətl ilə bağlı bildiklərini danışmaq üçün prokurorluğa gəlməlisən.

– Nə vaxt?

– Elə indi gəlsən daha yaxşı olar.

– Yaxşı, gəlirəm indi. Hara yaxınlaşmalıyam?

– Elə mənim otağıma gələrsən.

– Yaxşı. Yarım saata orda olaram.

– Hələlik.

– Hələlik.

Rauf müəllim indi Samirin gəlməsini gözləyirdi. Siyirməsini açıb bir siqaret götürdü. Ötən doğum günündə dostunun bağışladığı "Zippo" alışqanı ilə siqaretini yandırdı. Rauf müəllim daimi olaraq siqaret çəkən insan deyildi. O, yalnız çox fikirli və ya stressli olduğu vaxtlar siqaretdən istifadə edirdi. Hazırda isə təcrübəli müstəntiq həm fikirli idi, həm də bu gün Nurlanın meyitini gördükdən sonra əhvalı əhəmiyyətli dərəcədə dəyişmişdi. Bütün bunlardan qaçmaq üçün siqareti, sadəcə, çıxış yolu kimi görürdü. Şamil də artıq bələd idi Rauf müəllimin bu xasiyyətinə. O da gözəl bilirdi ki, belə vaxtlarda Rauf müəllimlə mümkün qədər az ünsiyyətə girmək lazımdır. Bunun üçün də o heç bir əlavə sual vermədən, sadəcə, cinayət işini nəzərdən keçirirdi. Rauf müəllim siqaretin yarısını çəkdikdən sonra onu əzərək söndürdü. İndi o, qətl barədə düşünürdü. Mümkün variantları fikrində götür-qoy edirdi. Hələ ki əlində cinayətə dair heç bir iz yox idi. Sadəcə, Nurlanın alnında qoyulan " V " işarəsi nədənsə xəbər verə bilərdi. Görəsən, bu iz

qatil tərəfindən qəsdən qoyulmuşdu, ya sadəcə, təsadüf nəticəsində belə bir iz yaranmışdı. Diqqətlə nəzər yetirdikdə heç də təsadüfən düşmüş izə bənzəmirdi. Bəs onda nə demək idi bu “ V ” işarəsi? Qatil niyə belə bir iz qoymuşdu, görəsən? Bəlkə bu psixoloji vəziyyəti yerində olmayan manyak tərəfindən törədilmiş bir qətldir və o, sadəcə, öz adının baş hərfini yazmağa çalışıb? Və yaxud da bu işarə caniləşmiş bir qatilin imzası kimi çıxış edir? Rauf Eyvazov bu suallar ətrafında fikirləşərkən qapının səsi onu fikrindən ayırdı. O, başını qaldırıb nisbətən uca səslə gəl dedi. Qapı açıldı. İçəri ortaboylu, qarayanız, nisbətən qıyıqgözlü, gənc bir oğlan daxil oldu. Əyninə geyindiyi paltarların markasından maddi vəziyyətinin yaxşı olduğu aşkar olunurdu. Lakin heç də səliqəli geyim sayılmazdı geyindikləri. Gözlərinə baxdıqda hiss olunan narahatlıq prokurorluğa ilk dəfə gəlməsini hiss elətdirirdi. İçəri daxil olan gənc zəif bir səs tonu ilə danışmağa başladı:

– Bağışlayın, Rauf müəllim sizsiniz?

– Bəli, mənəm. Sən də yəqin ki, Samirsən?!

– Bəli. Samir Hüseynov.

– Əyləş, Samir. Sənə bəzi suallarım olacaq. Amma bəri başdan səndən xahiş edirəm suallarıma düzgün və bacardığın qədər dəqiq cavab ver.

– Buyurun, Rauf müəllim. Arxayın ola bilərsiniz.

– İlk növbədə Nurlanı son gördüyün gün olanları başdan danış, zəhmət olmasa.

– Mart ayının ikisi idi. Axşam şam yeməyini evdə yedikdən sonra evdən çıxdım və şəhərə yollandım. Yolda olarkən Nurlanın mobil telefonuna zəng vur-

dum. Ona şəhərdə olduğumu bildirdim və onun da gəlməsini təklif etdim. Mənimlə razılaşdı və on beş-iyirmi dəqiqəyə gələcəyini söylədi. Daha sonra telefon danışığımız sona çatdı və mən Nizami küçəsində onunla həmişə görüşdüyümüz yerə yollandım. Məndən beş-on dəqiqə sonra Nurlan da gəldi. Birlikdə yaxınlıqdakı çay evinə getdik. Burada həm çay içirdik, həm də nərd oynayırdıq. Sonra həmin çay evindən ayrıldıq və Nizami küçəsində bir az gəzişdik. Saat təxminən on ikinin yarısında onunla sağollaşdıq. Biz fərqli istiqamətlərə getdiyimiz üçün elə Nizami küçəsindəcə sağollaşdım onunla. Daha sonra mən evə gəldim və yatdım. Səhər tezdən Nurlanın böyük qardaşı Kərim mənə zəng çaldı və Nurlanın evə gəlmədiyini söylədi. Məndən onun harada olmasını maraqlanırdı. Mən də ona heç bir məlumatım olmadığını bildirdim. Bütün bildiklərim bu qədərdir.

– Getdiyiniz çay evinin adı nə idi?

– “Roma”. Biz demək olar hər gün gedirdik ora. Həm rəhmətlik, həm də mən çox sevirdik oranı. Amma Nurlandan sonra daha mən də gedə bilmərəm o çay evinə.

Samirin gözləri dolmuşdu. O, həm bu sorğu-sualdan həyəcanlanmış, həm də ən yaxın dostunun ölümünü xatırlayıb pis olmuşdu. Rauf müəllim başı ilə Şamilə işarə etdi. Şamil stəkana su süzüb gətirdi. Rauf müəllim təzədən üzünü Samirə tutub:

– Yaxşı, sakitləş. Sudan iç bir az. Sən gərək bizə kömək olasan ki, dostunun qatili tez bir zamanda tapılsın. İndi özünü ələ al.

– Yaxşı. Buyurun davam edə bilərik.

– Ay sağ ol, bax belə. Çay evindən saat neçədə çıxdınız?

– Saat təxminən on bir olardı. Hava sərin olduğundan çox da gəzmədik. Yarım saat gəzişib sonra sağollaşdıq.

– Bəs dəqiq olaraq harada sağollaşdınız Nurlanla?

– Nizami küçəsindəki "Mc Donald's" restoranının qarşısında. Mən "İçərişəhər" metrosuna doğru hərəkət etdim. O isə Rəşid Behbudov küçəsinə doğru getdi.

– Nurlanın kiminləsə bir problemi və yaxud da ədavəti yoxuydu ki?

– Mən bildiyim qədəri ilə heç kimlə ədavəti yoxuydu.

– Bəs son zamanlar əhvalı necə idi? Sənə qəribə görsənən hər hansı bir məqam yoxuydu?

– Onun əhvalı həmişə yaxşı olurdu. Elə son görüşümüzdə də xeyli zarafat edib gülmüşdük. Heç bir qəribəlik də diqqətimi çəkməmişdi.

– Yaxşı, Samir. Gedə bilərsən indi. Amma nə isə xatırlasan və yaxud nə isə səndə şübhə oyatsa dərhal mənimlə əlaqə yarat.

– Oldu, Rauf müəllim. Bütün bildiklərimi danışmışam. Amma nəsə xatırlasam mütləq sizə xəbər verəcəyəm.

– Çox sağ ol, Samir. Xudahafiz.

– Xudahafiz, Rauf müəllim.

Samir əyləşdiyi stuldan qalxdı və otaqdan çıxdı. Rauf müəllim Samirin danışığından nədənsə tam razı

qalmamışdı. Ona elə gəlirdi ki, Samir nəyisə gizlədir. Amma onunla daha sonra yenidən söhbət etməyi planlaşdırırdı. İndi o yenidən fikrə getmişdi. Yenə də beynində bu "V" işarəsini fikirləşirdi. Cinayət işini Şamildən alıb indi daha diqqətlə nəzərdən keçirməyə başlamışdı.

# IV

Qurban müəllim indi dostları ilə qonaq otağında əyləşmişdi. Stolun baş tərəfində Salman Muradov əyləşmişdi, onun sağında Qurban müəllim, solunda Faiq Qürbətov, Faiq müəllimin yanında isə Fuad Niyazov əyləşmişdilər. Faiq Qürbətov Qurban müəllimin uşaqlıq dostu idi. Onlar orta məktəbi də, daha sonra universiteti də bir yerdə oxumuşdular. Salman Muradov yaşca Qurban müəllimdən böyük idi. Qurban müəllimin onunla ünsiyyəti işlə əlaqədar olaraq yaranmışdı. Sonralar bu ünsiyyət möhkəm dostluğa çevrilmişdi. Fuad Niyazov isə Qurban müəllimin sahibi olduğu şirkətin müdiri idi. Qurban müəllimlə Fuad uzun illərdir ki, birlikdə çalışırdılar. Qurban müəllim böyük bir tikinti şirkətinin sahibi idi. Salman Muradov sözə başladı:

– Qurban, indi nə etməyi fikirləşirsən? Qatilin tapılmasını elə təkcə prokurorluğun ümidinə buraxacaqsan?

– Başqa nə edə bilərəm, ay Salman? Əlimdən nə gələr? Mümkün qədər müstəntiqin işinə köməklik edəcəyəm.

– Qurban, bu çox təhlükəli cinayətdir. Burada ilk növbədə qatilin şəxsiyyətindən çox cinayətin törədilmə səbəbini müəyyən etmək lazımdır. Siz özünüz də

təhlükəsizliyinizi gözləyin. Maksimum dərəcədə ehtiyatla hərəkət edin.

– Bunları yaxşı bilirəm, Salman. Amma mən düşüb küçə-küçə qatil axtara bilmərəm ki. Buna nə əlimdə imkanım var, nə də taqətim.

– Mən sənə demirəm ki, sən özün düş küçə-küçə qatili axtar. Hər halda qatilin tapılması üçün köməklik edən təcrübəli birini tapsan sənin üçün daha yaxşı olar.

Fuad Niyazov söhbətə qarışdı:

– Qurban müəllim, məncə də Salman müəllim haqlıdır. Təcrübəli bir detektiv və ya bu işləri yaxşı bacaran hər hansı bir şəxs tapıb onun köməyindən istifadə etmək bizə heç bir ziyan gətirməz, əksinə, xeyir edər.

– Bunları mən də yaxşı başa düşürəm, Fuad. Amma mənim tanıdığım elə biri yoxdur axı. Tanıdığınız biri varsa buyurun deyin, gedək söhbət edək.

Faiq Qürbətov da səssizliyini pozdu:

– Uşaqların dedikləri ilə mən də razıyam, Qurban. Biz bir axtaraq görək elə birisini tapırıq, ya yox?! Ola bilməz ki, bu boyda respublikada istədiyimiz kimi bir insan tapılmasın.

– Yaxşı nə deyirəm ki, axtarın görək kimi tapırıq. Gərək məni üzrlü sayasız. Mən bu işdə sizə köməklik edə bilməyəcəyəm. Həm gələn qonaqları qarşılayıram, həm də dediyim kimi bu işlərlə məşğul olmaq üçün özümdə taqət hiss etmirəm.

– Sən heç narahat olma, Qurban. Dostlar belə günlər üçün lazımdır. Biz şəhəri ələk-vələk edib taparıq. İndi bizə icazə ver gedək bu işi yoluna qoyaq.

– Buyurun.

Salman, Faiq və Fuad bir-bir Qurban müəllimlə görüşdülər:

– Allah bir daha rəhmət eləsin, Qurban, məkanı cənnət olsun. Sağ ol.

– Ölənləriniz rəhmətlik. Gedin, xeyir aparın. Sağ olun.

Qurban müəllim qonaqlarını qapıdan yola saldı. Elə qapının kandarından çadıra nəzər yetirib hər şeyin qaydasında olduğunu gördü. Yenidən evə daxil olub fikirli halda dəhlizlə addımlamağa başladı. Nurlanın otağının qapısına yaxınlaşdı. Bir anlıq tərəddüd etdikdən sonra əlini qapının dəstəyinə uzatdı. Qapını açıb içəri daxil olan kimi onu yenidən qəhər boğmağa başlamışdı. Nurlan öz şəkillərini kiçik çərçivələrdə otağın müxtəlif yerlərində yerləşdirmişdi. Qurban kişi stolun üzərindəki çərçivəni götürdü. Şəklə diqqətlə baxmağa başladı. İndi onun gözlərindən yaşlar qeyri-ixtiyari axmağa başlamışdı. Göz yaşları yanaqları ilə aşağıya süzülürdü. Qurban kişi sanki əlini qaldırıb göz yaşlarını silməyə özündə güc tapmırdı. O, Nurlanın şəklini qaldırıb öpdü və çərçivəni möhkəmcə bağrına basdı. Elə şəkillə birlikdə Nurlanın yatağına doğru getdi və sakitcə onun çarpayısına uzandı. Ata indi öz övladının iyini yatdığı bu yerdən alırdı. Gözlərini yummuş, Nurlanın hələ də yataqda qalmış iyini içinə çəkərək onunla keçən günləri xəyal edirdi. Nurlanın dünyaya gəldiyi gündən onu son gördüyü günə qədər olanlar bir film kimi gözünün qarşı-

sından keçirdi sanki Qurban kişinin. Artıq sabah onun meyitini təhvil alıb torpağa tapşırmalıydı. Böyüdüb boya-başa yetirdiyi oğlunu indi torpağa verməliydi. Bu fikirlər ürəyini ağrıdırdı. Qurban müəllim bunları fikirləşdikcə ciyərində sanki tonqal qalandığını hiss edirdi. Qurban kişi bu fikirlərlə Nurlanın çarpayısında yuxuya getmişdi.

Səhər saat səkkizin yarısı Kərim gəlib Nurlanın otağına daxil oldu. Atasına yaxınlaşıb onun Nurlanın şəklini qucaqlayıb yatdığını gördü. Bu mənzərə Kərimin ürəyini titrədirdi. Atasına yaxınlaşıb onun üzündən öpdü. Sonra Qurban kişini səsləməyə başladı. Bir neçə dəfə səslədikdən sonra Qurban kişi yuxudan ayıldı. Kərim atasına baxaraq:

– Ata, qalx. Saat səkkizin yarısıdır. Bir saatdan sonra Nurlanı təhvil götürməliyik. Qalx hazırlaş, gedək.

– Yuxumda onu gördüm, Kərim. Balamı gördüm yuxumda. Yenə gülürdü həmişəki kimi.

Kərim atasını qucaqladı. Sonra birlikdə otaqdan çıxdılar. Kərim otağın qapısını açarla bağladı və açarı da özü ilə götürdü ki, atası və yaxud başqa biri otağa daxil olub daha da pis olmasın. Qurban kişi əl-üzünü yuyaraq aynada özünə baxırdı. İndi o özünü ələ alıb oğlunu layiqincə son mənzilə yollamağı düşünürdü. Kərim artıq paltarını dəyişmişdi. Qurban kişi də beş dəqiqədən sonra artıq hazır idi. Qurban kişinin qardaşları, dünənki dostları, Kərim, Kamran, Elnur, Kamranın bir neçə yaxın dostu və digər yaxın qohumlar birlikdə Nurlanın meyitini təhvil almağa yollandılar.

Saat dörddə artıq Nurlanı torpağa tapşırıb qayıtmışdılar. Qurban kişi yenə dostları ilə birlikdə qonaq otağına keçmişdi. Masa arxasında dünənki qayda ilə əyləşən dostlar artıq söhbətə başlamışdılar. Söhbətə ilk öncə Faiq Qürbətov başladı:

– Qurban istədiyimiz kimi bir adam tapmışam. Uzun illər Türkiyədə yaşayıb. Orada detektiv kimi işləyirmiş. Türkiyədə kifayət qədər məşhur insandır. Bir çox qaranlıq qalan cinayətlərin üstünü açıb. Bu sahədə fitri istedada malik olduğunu deyirlər. Siz də məsləhət görsəniz, məncə, onunla görüşüb-danışmaqda fayda var.

– Necə öyrəndin onun barəsində? Həqiqətən bacarıqlı adamdır, ya bir xeyri dəyməyəcək heç?

– Onun barəsində bir dostumdan eşitdim. Ağızdolusu danışdı haqqında. Yeddi-səkkiz ay əvvəl qayıdıb Bakıya. Deyirlər indi bu işlərlə məşğul olmaq istəmir. Amma dostum dedi ki, əgər istəsəniz bu işlə məşğul olmasını şəxsən xahiş edərəm.

– Adı nədir bu detektivin? Əgər Türkiyədə bu qədər məşhurdursa oradakı tanışlarımdan da maraqlanaram. Onlar da detektivdən sən danışdığın kimi danışsalar gedib söhbət edərik, köməklik etməsini xahiş edərəm.

– Adı Kənan Orucovdur.

– Deməli, Kənan Orucov. Yaxşı maraqlanarıq bu Kənanla.

Bayaqdan söhbətə, sadəcə, qulaq asan Salman da söhbətə qarışdı:

– Qurban, Nurlan balamızın qatilinin tapılması üçün əlimizdən nə gəlirsə etməliyik. Ona görə bu detektiv məsələsinə çox da dırnaqarası yanaşma. Onunla əlaqə saxlamağın bizə heç bir ziyanı olmayacaq.

– Bilirəm, Salman müəllim. Mən detektivlə əlaqə yaratmağın əleyhinə deyiləm. Amma əgər belə bir adamla əlaqə yaradırıqsa ən azından bacarıqlı biri ilə əlaqə yaradaq deyirəm. Elə bunun üçün də həmin o detektiv haqqında maraqlanmaq istəyirəm.

– Orası da düzdür. Yaxşı onda maraqlanaq görək həqiqətən bacarıqlıdırmı?! Əgər həqiqətən bacarıqlıdırsa onu da cəlb edərik bu işə.

– Elə günü bu gün Türkiyədəki dostlarımla əlaqə saxlayacağam. Qoy onlar ətraflı maraqlansınlar.

– Sənə digər məsələlərlə bağlı nə isə köməklik lazım deyil? Bir şeyə ehtiyac yoxdur ki?

– Çox sağ olun, Salman müəllim. Hər şeyi yoluna qoyublar. Bircə qalır səbir etmək. Onu da əlimizdən gəldiyi qədər səbir etməyə çalışırıq.

– Allah köməyiniz olsun. Burada danışılacaq başqa bir şey qalmadısa keçək çadıra. Sən də gələn qonaqlarını qəbul et.

– Fikrimcə başqa bir məsələ yoxdur. Buyurun gedək.

Onlar birlikdə mərasim çadırına getdilər. İçəri daxil olub qapının yanındakı masada əyləşdilər. Gələn qonaqları qarşılamaq üçün bura daha rahat idi Qurban müəllimə. Qurban müəllim gələn qonaqlarla görüşür, başsağlığı qəbul edir, onlara əyləşmək üçün

yer göstərirdi. Səkinə xanım isə evdə qadınlarla bərabər oturmuşdu. Ağlamaqdan göz qapaqları şişmiş, gözləri qan çanağına dönmüşdü. İndi taqətsiz halda oturmuşdu qadınların əhatəsində. Hərdən Nurlanla bağlı hansısa xatirəni xatırlayıb ağlayır bir azdan yenə sakitləşirdi. Nailə də anasının yanında idi. Onun da vəziyyəti anasından geri qalmırdı. Bu bir neçə gündə sanki qocalmışdı qızcığaz. Kamran qonaqların qarşılanması üçün təşkilati işlərə nəzarət edirdi. Qardaşının ölümünə onun da hədsiz kədər keçirtdiyi hiss olunurdu. Lakin Kamran nadir hallarda göz yaşı tökürdü. Ailənin böyük övladı Kərim isə gələn qonaqların qarşılanmasında atasına köməklik edirdi. İndi o, iş yoldaşları ilə birgə əyləşmişdi. Hadisədən xəbər tutan iş yoldaşları yığışıb ona başsağlığı verməyə gəlmişdilər. Kərim iş yoldaşları arasında böyük hörmət sahibi idi. Hamı onun xətrini çox istəyirdi. Elə buna görə də hamı bu hadisədən kədərlənmişdi. İş yoldaşları qalxıb getmək üçün icazə istədilər. Kərim onları yola salmaq üçün qapının ağzına qədər gəldi. Bu zaman Kərim həyətləri ilə çıxışa doğru gedən Lamiyəni gördü. Sevdiyi qızı öz evlərinə başqa formada gətirməyi fikirləşən Kərim hadisələrin belə baş verməsinə bir daha qəhərləndi. Onların baxışları bir anlıq toqquşdu. Lamiyənin də ağladığı hiss olunurdu. O, saf hislərlə sevdiyi oğlanın qardaşının başına gələnləri öz dərdi hesab edirdi. Bu qısa baxışmada onlar sanki uzun bir söhbət etmişdilər. Kərimə elə gəlirdi ki, Lamiyə baxışları ilə ondan güclü olmasını

tələb edir. Lamiyə addımlarını sürətləndirib rəfiqələri ilə birlikdə həyətdən çıxdı. Kərim də iş yoldaşları ilə sağollaşıb yenidən çadıra qayıtdı.

Qurban kişi həyətin sakit bir hissəsinə çəkilib mobil telefonunu çıxardı. Telefonun yaddaş kitabçasından lazım olan nömrəni tapıb zəng etdi. Bir neçə çağırışdan sonra, nəhayət, telefona cavab verildi:

– Alo. Salam, Turqut.

– Salam, Qurban, necəsən? Əhvalın necədir?

– Turqut, kiçik oğlum Nurlanı öldürdülər.

– Nə danışırsan, ay Qurban? Necə yəni öldürdülər? Ay Allah, mənim necə xəbərim olmayıb. Allah rəhmət eləsin, Qurban. Nə deyəcəyimi bilmirəm.

– Çox sağ ol, Turqut. Səndən kömək istəmək üçün zəng etmişəm.

– Buyur. Nə lazımdırsa canla-başla etməyə hazıram. Özüm də sabah gəlirəm Bakıya. Üzrlü say ki, xəbərim olmayıb.

– Yox, yox. Sən mənə orda lazımsan. Səndən bir adam haqqında məlumat almağını istəyəcəyəm. Mənə köməklik edə bilərsən?

– Əlbəttə. Kimin barəsində məlumat istəyirsən? Qaldı ki, ora gəlməyimə, sən dediyin işi yoluna qoyan kimi yanında olacağam.

– Çox sağ ol, əziz dostum. Mənə Kənan Orucov adında şəxs haqqında məlumat lazımdır. Detektivdir. Onun haqqında mənə nə qədər vaxta bir məlumat deyə bilərsən?

– Kənan haqqında mən də eşitmişəm. Amma ətraflı məlumatım yoxdur. Elə deyirdilər ki, bir həmyerli-

miz yaman bacarıqlı detektivdir. Elə günü sabah onun haqqında ətraflı məlumat verərəm sənə. Nə edirsən ki, onun haqqında məlumatı?

– İstəyirəm oğlumun qatilini tapmaq üçün onun da köməyindən istifadə edim. Ona görə bilmək istəyirəm ki, həqiqətən bacarıqlı adamdır, ya yox.

– Başa düşürəm, Qurban. Dediyim kimi sabah onun haqqında bir məlumat verərəm sənə. Bir daha Allah rəhmət eləsin, yeri behişt olsun Nurlan balamızın.

– Çox sağ ol, Turqut. Səndən xəbər gözləyəcəyəm. Xudahafiz.

– Xudahafiz, mənim əziz qardaşım.

Qurban müəllim telefon danışığını yekunlaşdırıb yenidən qonaqların arasına qayıtdı. Qatilin kimliyi barədə özü də günlərdir düşünürdü. Şübhələndiyi şəxsləri beynində götür-qoy edirdi. İşi ilə əlaqədar rəqibləri hətta düşmən sayılacaq rəqibləri çox idi. Lakin belə bir vəhşiliklə övladını kim, niyə qətlə yetirərdi, heç cür cavab tapa bilmirdi. Eyni sualları dəfələrlə özünə verməkdən yorulmuşdu. Sanki beynini gəmirirdi bu suallar. Həm də intiqam alovu rahat buraxmırdı onu. Oğlunun qatilini prokurorluqdan əvvəl özü tapıb cəzasını özü vermək istəyirdi. Elə detektivə maraq göstərməsinin əsas səbəblərindən biri də bu idi.

Hava qaralmağa başlamışdı. Qonaqlar yavaş-yavaş dağılmışdılar. İndi, sadəcə, yaxın qohum-əqrəba və yaxın dostlar qalmışdılar. Onlar yığışıb evə keç-

dilər. Ailəni bu vəziyyətdə heç kim tək qoyub getmək istəmirdi. Yalnız heç kim ağzını açıb bir kəlmə danışmırdı. Evdə böyük bir sükut hökm sürürdü. Kamran öz otağına keçib burada yuxuya getmişdi. Nailə hələ də anası və digər qohum qadınlarla birlikdə oturmuşdu. Kərim Elnurla yanaşı əyləşmişdi. Lakin nə Kərim ağzını açıb bir kəlmə danışır, nə də Elnur onunla ünsiyyətə girməyə cürət edirdi. Qurban kişi isə sakitcə təsbehini çevirirdi. Qardaşı Namaz Qurban kişiyə müraciət edərək:

– Qurban, dur get bir az yat dincəl. Bu gün çox yoruldun. Gərək istirahət edəsən ki, sabah da gəlib-gedəni qarşılamağa taqətin olsun. Kərim, sən də get yat. Bu gün səhərdən axşama qədər ayaq üstə olmusan. Biz burdayıq, nəsə lazım olsa xəbər edərik.

Qurban kişi təmkinlə ayağa qalxdı. Əlindəki təsbehi sakit-sakit çevirərək yataq otağına doğru yollandı. Həmin suallar hələ də beynində fırlanırdı. Yata biləcəyini fikirləşmirdi. Lakin camaatdan uzaqlaşıb həmin sualların cavabını təkbaşına axtarmaq daha məqsədəuyğun olardı. Kərim isə yatmaq istəmirdi. Əmisinin ikinci dəfə təkidindən sonra o da ayağa qalxdı. Üzünü Elnura çevirib:

– Elnur, sən də dur get evə. Bu gün sən də bütün gün mənimlə birgə yorulmusan. Get dincəl, sabah görüşərik.

– Narahat olma Kərim. Mən burdayam. Sən rahat yat dincəl. Birdən bir şey lazım olar.

– Nəsə lazım olsa burda adam çoxdur. Sənin də qalmağına ehtiyac yoxdur. Dur get dincəl.

– Yaxşı, Kərim, gedirəm. Amma özün bilirsən ki, telefonum daima açıqdır. Nə lazım olsa saatdan asılı olmayaraq dərhal zəng et.

– Çox sağ ol, Elnur. Gecən xeyrə!

– Gecən xeyrə, Kərim!

Kərim üzünü çevirib öz otağına yollandı. Əslində özünü çox yorğun hiss edirdi. Lakin bədənindəki bu əzginliyin fiziki, yaxud mənəvi yorğunluq olduğunu ayıra bilmirdi. Elnur da Kərimdən sonra qalxıb oradakı şəxslərlə sağollaşdı və evdən çıxdı. İndi otaqda təkcə Namaz, onun oğlanları, Qurban kişinin əmisi oğlu Teymur, bir də bacısının yoldaşı qalmışdı. Qurban kişi eyni sualları təkrar edərək yuxuya getmişdi. Kərim də yuxu dərmanı qəbul edib yatmışdı.

Səhər yenə erkən saatlarda yuxudan oyandılar. Qurban kişi bu gün dostundan gələcək cavabı gözləyirdi. Əgər Turqutun cavabı müsbət olsaydı onda bu gün gedib o detektivlə görüşməyi planlaşdırırdı. Amma bir məsələ də varıydı ki, görəsən, detektiv işi üzərinə götürəcəkdimi? Faiq demişdi ki, indi bu işlərdən uzaq durur. Hər halda bunların hamısı ilk növbədə Turqutdan gələn cavabdan asılı idi. Qurban kişi əl-üzünü yuyub aşağı endi. Onun arxasınca Kərim də gəldi. Onlar birlikdə həyətə çıxdılar. Gələn qonaqları qarşılamaq üçün azuqələrin olub-olmaması ilə maraqlandılar. Çatışmayan ərzaqların siyahısını aldıqdan sonra Qurban kişi Kamranı çağırıb siyahını ona verdi. Kamran siyahıdakıları almaq üçün yollandı.

Günorta saat biri adladıqdan sonra Qurban kişinin telefonu zəng çaldı. Bu Qurban kişinin gözlədiyi zəng

idi. Zəng edən Turqut idi. O, telefona dərhal cavab verdi:

– Alo. Eşidirəm, Turqut.

– Qurban, salam. Dediyin adam haqqında maraqlandım. Sözün düzü, onun haqqında öyrənmək çox da çətin olmadı. Bir-iki həmyerlimizə zəng etdim, hamısı məlumatlı idilər onun haqqında.

– Nə dedilər? Bacarıqlı detektivdir, ya yox?

– Burda kimi dindirirsən ondan ağızdolusu danışır. Deyirlər onun açа bilməyəcəyi cinayət yoxdur. Burda o, haqq qarşılığında tapşırılan işləri yerinə yetirirmiş. Ancaq deyirlər indi daha çalışmaq istəmir bu işlərdə. İki övladı var. Gördüyü işə görə övladlarının başına bir şey gəlməsindən qorxur. Elə buna görə də yenidən Bakıya köçüb gedib.

– Aydındır, Turqut. Çox sağ ol verdiyin məlumata görə. Sənə də əziyyət verdim.

– Nə əziyyəti, Qurban? Bu mənim borcumdu. Özüm də artıq bilet almışam. Axşam Bakıda olacağam. Ən geci sabah səhər görüşərik səninlə.

– Oldu, köhnə dost. Sağ ol.

– Sağ ol.

Qurban kişi detektiv haqqındakı fikrini qətiləşdirmişdi artıq. Məsələni çox yubatmadan elə bu gün gedib görüşmək istəyirdi onunla. İndi qarşıdakı yeganə əngəl detektivin bu işi qəbul etməsi idi. Hər halda ən azından onunla görüşüb onu bu işə razı salmaq lazım gəlirdi. Qurban kişi Faiqə zəng vurdu. Çox keçmədən Faiqin özünəməxsus tutqun səsi eşidildi:

– Alo, eşidirəm, Qurban.

– Faiq, salam. İndicə Türkiyədən gözlədiyim məlumat gəldi. Bu sən dediyin detektiv haqqında orda da müsbət fikir var. Zəng etdim ki, dostundan xahiş edəsən bizi görüşdürsün.

– Hə, narahat olma, bu saat danışaram onunla. Bizimlə görüşməsini xahiş edər. Dostumun həm də uzaq qohumluğu çatır həmin detektivə. Ümid edirəm ki, bizə yox deməz.

– Danış, mənə xəbər et zəhmət olmasa. Bir də əgər imkan edə bilsən onunla görüşməyə də birgə gedək.

– Əlbəttə, birlikdə gedərik. Yarım saata sənə bir xəbər edərəm.

– Oldu. Gözləyirəm, Faiq.

# V FƏSİL

Kənan Orucov ailəsi ilə birlikdə şəhərdəki kafelərdən birində nahar edirdi. Çoxdandır uşaqlara onları şəhərə gəzməyə aparacağı barədə verdiyi sözü, nəhayət, bu gün yerinə yetirmişdi. Bir müddət şəhərdə gəzdikdən, uşaqları dənizkənarı parkda quraşdırılan atraksionlara mindirdikdən sonra birlikdə nahar etmək qərarına gəlmişdilər. Kənanın oğlu Həsənin yeddi, qızı Yağmurun isə beş yaşı var idi. Uşaqların hər ikisi atalarını çox istəyirdilər. Elə Kənanın da həyata baxışını dəyişdirmişdi uşaqları. Həyat yoldaşı Nuridə ilə tanış olub evləndikdən sonra bir neçə il uşaqlarının olmasını istəməmişdi Kənan. Evliliklərinin beşinci ilində Həsən dünyaya gəldi. Həsəni ilk dəfə qucağına alarkən, ilk dəfə atalıq duyğusunu hiss edərkən bu duyğunun bir kişi üçün əvəzsiz bir şey olduğunu anlamışdı. İndi də uşaqlarının üzündəki sevinci görmək ona dünyaları bağışlayırdı sanki. Kənan otuz səkkiz yaşında, ucaboylu, qarayanız bir insan idi. Saçları arasında tək-tək ağaran tüklər seçilirdi. Nisbətən qalın qaşları, uzun kirpikləri, mavi gözləri, azacıq saqqalı ilə yaraşıqlı sayıla bilərdi.

Uşaqlar yeməklərini bitirdikdən sonra Kənan ofisiantı səsləyib çay və uşaqların xoşladığı şirniyyatlardan sifariş etdi. Sifarişlərin gəlməsini gözləyərkən

mobil telefonu zəng çaldı. Telefonun ekranında yazılan ad Kənanı təəccübləndirdi. Bu uzun müddətdir ki, əlaqə saxlamadığı uzaq qohumu Yusif idi. Çox da ləngimədən zəngə cavab verdi:

– Alo.

– Alo, salam, Kənan. Necəsən? Uşaqlar necədir?

– Salam, Yusif. Çox sağ ol. Sən necəsən?

– Şükür Allaha, salamatıq. Kənan indi deyəcəksən ki, işi düşməsə məni axtarmır, amma səndən bir xahişim olacaq.

– Yox, yox. Buyur, Yusif, xoşdur.

– Mənim yaxın bir dostumun oğlunu öldürüblər. İşi prokurorluqda araşdırırlar. Lakin dostum qatili onlardan əvvəl tapmaq istəyir. Bunun üçün də bu işdən başı çıxan birini axtarırdı. Mən də səni məsləhət gördüm. İcazə versən bu gün səninlə görüşərdilər.

– Yusif, Allah dostunun oğluna rəhmət eləsin amma mən artıq bu işlərlə məşğul olmuram. Elə bunun üçün də Türkiyədən bura qayıtmışam ki, bu işlərdən uzaq olum. Məndən incimə, amma edə bilmərəm istədiyini.

– Səni başa düşürəm, amma inan ki, dostumun vəziyyəti acınacaqlıdır. Ən azından özü ilə görüşüb söhbət edərdin.

– Yusif, söhbət etməyin heç bir mənası yoxdur. Artıq mən o işlərlə heç cür məşğul olmaq istəmirəm.

– Aydındır, Kənan. Yenə də çox sağ ol. Bağışla narahatlıq verdiyim üçün.

– Sən Allah məndən incimə, Yusif.

– Yox, yox incimirəm. Xudahafiz.

– Xudahafiz.

Kənan Yusif incimirəm desə də səsindən incidiyini hiss etmişdi. Lakin həqiqətən artıq detektivlik eləmək istəmirdi. Ankarada sonuncu araşdırdığı cinayətdə cinayətkarlar oğlu Həsəni qaçırtmışdılar. O, oğlunu xilas edib, cinayətkarları tapmağı bacarsa da bundan sonra bərk qorxmuşdu. Onun işi səbəbilə ailəsinə zərər gəlməsini özünə bağışlaya bilməzdi. Elə buna görə də Türkiyədən ayrılıb vətəninə qayıtmışdı. Orada qazandığı pulla burada özünə fərdi biznes yaratmağı planlaşdırırdı.

Artıq uşaqların şirniyyatı da gəlib çıxmışdı. Uşaqlar iştahayla sevdikləri şirniyyatı yeyirdilər. Kənan yenidən onların üzündəki sevincə tamaşa etməyə başlamışdı. Uşaqlar şirniyyatı da bitirdikdən sonra Kənan hesabı ödədi və kafedən ayrıldılar. Uşaqlar yüyürüb atalarının maşınına oturdular. Kənan da adəti üzrə Nuridənin qapısını açıb onun əyləşməsini gözlədi. Daha sonra qapını bağlayıb sükan arxasına keçdi. Yaşıl "Audi" hərəkətə başlayıb şəhərin küçələri ilə irəlilədi. Kənan bayaqkı telefon zəngi barəsində düşünürdü. Aynadan arxada oturmuş oğluna baxırdı. Yusifin dostunun oğlunu öldürmüşdülər. Bir anlıq o da oğlunun öldürüldüyünü fikirləşdi və dərhal da bu dəhşətli fikri beynindən uzaqlaşdırdı. Bu barədə fikirləşmək belə ona bu qədər ağır gəlirdisə həmin hissi yaşamağın necə ağır olacağını düşündü. Görəsən, ən azından həmin adamla görüşüb söhbət etməliydimi?

Yusifin xahişini yerə salmaqdan da narahatlıq keçirirdi. Avtomobil yaşadıqları binanın həyətinə daxil oldu. Uşaqlar qapını açıb cəld aşağı düşdülər. Nuridə də qapını açıb enmək istəyəndə Kənanın hərəkətsiz qaldığını gördü. Üzünü Kənana tutub:

– Nə olub, Kənan? Sən gəlmirsən?

– Yox. Siz qalxın evə. Mənim bir balaca işim var. Onu yoluna qoyub sonra gələcəyəm.

– Yaxşı, çox gec qalma. Bilirsən də axşam bizi ad gününə dəvət ediblər. Mənim ən yaxın rəfiqəmin ad günüdür. Mütləq iştirak etməliyik.

– Bilirəm, xatirimdədir. Narahat olma, çox gec qalmayacam.

– Yaxşı onda. Yaxşı yol.

Nuridə xanım qapını açdı və avtomobildən düşüb uşaqları səslədi. Birlikdə evə doğru hərəkət etdilər. Kənan mobil telefonunu çıxarıb Yusifə zəng vurdu. Bir neçə siqnaldan sonra Yusifin incik səsi eşidildi:

– Eşidirəm, Kənan.

– Yusif, bağışla, bayaq deyəsən sənin xətrinə dəydim. Zəng etdim deyim ki, dostunla görüşüb söhbət etməyə razıyam. Lakin işi öhdəmə götürməyə söz vermirəm.

– Çox sağ ol, Kənan, çox sağ ol, qardaş. Məni hədsiz dərəcədə sevindirdin.

– Dəyməz, Yusif. Dostuna de ki, yarım saatdan sonra Hüseyn Cavid parkındakı kafedə olsun.

– Oldu, Kənan. Elə indi zəng vurub xəbər edərəm orda olar.

Kənan Yusifin səsindəki sevinci duyduqdan sonra doğru qərar verdiyinə bir daha əmin oldu. Avtomobili yenidən yaşadıqları evin həyətindən çıxarıb Hüseyn Cavid parkı istiqamətində hərəkətə başladı. Şərtləşdikləri vaxtdan on beş dəqiqə əvvəl Kənan artıq həmin kafedə idi. Gedəcəyi yerə gecikməyi sevməzdi. Bir neçə dəqiqə əvvəl getməyin gecikməkdən daha yaxşı olduğunu fikirləşirdi. Elə gözlədiyi adamlar da vaxtından əvvəl gəlmişdilər. İki nəfər ona doğru yaxınlaşıb:

– Bağışlayın, Kənan müəllim sizsiniz?

– Bəli, mənəm.

– Mən Yusifin dostu Faiqəm, bu da Qurban müəllimdir.

– Tanışlığımıza şad oldum. Buyurun əyləşin.

– Çox sağ olun. Yəqin ki, Yusif sizə məsələni azdan-çoxdan danışıb.

– Bəli, telefonda qısa məğzini dedi məsələnin. Öldürülən sizin oğlunuzdur?

– Xeyr, Qurban müəllimin.

– Başınız sağ olsun.

Qurban müəllim söhbətə qarışdı:

– Çox sağ olun. İstərdim ki, sizə məsələni danışım. Ümid edirəm ki, bizə kömək etməkdən imtina etməzsiniz.

– Buyurun, eşidirəm sizi.

– Mart ayının ikisində kiçik oğlum Nurlan dostları ilə görüşmək üçün evdən çıxdı. Ondan iki gün xəbər ala bilmədik. İki gündən sonra polisdən mənə zəng

vurub bildirdilər ki, şəxsiyyəti müəyyən olunmayan meyit aşkar ediblər. Nurlana uyğun gəldiyi üçün meyitə baxıb onun olub-olmadığını deməyimi istədilər. Böyük oğlum Kərimlə birgə getdik. Tapılan meyit oğluma məxsus idi. Nurlanın cəsədini altı hissəyə parçalayıb şəhərin müxtəlif yerlərinə atmışdılar.

Qurban kişi bu sözlərdən sonra yenə də özünü tuta bilməyib göz yaşlarına boğuldu. Dəsmalla gözünü silib bir az özünə gəldikdən sonra sözünə davam etdi:

– Bu caniliyi, vəhşiliyi oğluma kim edib, niyə edib indi bunu tapmaq mənim üçün ən vacib şeydir. Ona görə də bir ata kimi sizdən xahiş edirəm mənə oğlumun qatilini tapmaqda köməklik göstərin.

– Qurban müəllim, yaşadığınız bu hadisələrə kədərləndiyimi bilmənizi istərdim. Mən də bir atayam və bir ata kimi sizi çox gözəl başa düşürəm. Ancaq məndən inciməyin mən artıq detektifliklə məşğul olmaq istəmirəm.

– Kənan müəllim, sizin necə bacarıqlı detektiv olduğunuzu eşitmişəm. Ona görə də sizin köməyinizə çox ehtiyacım var. Özünüz də dediniz ki, siz də atasınız. Məndən köməyinizi əsirgəməyin. Zəhmət haqqınız nədirsə artıqlaması ilə ödəməyə hazıram.

Kənan bir qədər fikrə getdi. İndi o özünə verdiyi sözdən dönüb-dönməyəcəyi barədə düşünürdü. Bir tərəfdən bir ata kimi Qurban müəllimə yardım etmək istəyir, digər tərəfdən də uşaqlarının başına bir şey gəlməsindən qorxurdu. Yaranmış sükutu Faiq pozdu:

– Hə, nə deyirsiniz, Kənan müəllim? Bizə bu işdə köməklik göstərəcəksiniz?

– Bəli, edəcəyəm. Lakin bunu ödəyəcəyiniz zəhmət haqqı üçün yox, atalıq hissimə görə edəcəyəm. Çəkdiyim zəhmət üçün təbii ki, sizdən qonorar alacam. Amma işi qəbul etmək səbəbi kimi qonorarın çıxış etdiyini fikirləşməyin.

– Çox sağ olun, Kənan müəllim. İnanın ki, çox böyük xeyirxahlıq etdiniz. Siz oğlumun qatilini tapsanız ömrüm boyu sizə minnətdar qalaram.

– Təşəkkürə ehtiyac yoxdur. Mən hələ ki, heç nə etməmişəm. Amma işi qəbul etmək üçün bir şərtim var. Mənə lazım olan məlumatları tam dəqiqliyi ilə verəcəksiniz.

– Təbii ki, Kənan müəllim. Mənim dövlət orqanlarında yaxın dostlarım var. Elə prokurorla da dostluğum var. Sizə nə kömək lazım olsa əlimdən gələni edəcəm. Siz təki oğlumun qatilini tapın mənə.

– Onda razılaşdıq. İndi mənim həll etməli olduğum başqa bir neçə işim var. Sabah səhər tezdən indiyə qədər toplanmış cinayət işi materialı ilə tanış olmaq istəyirəm. Bunun üçün mənə köməklik göstərə bilərsiniz?

– Əlbəttə. Prokurorla danışaram sizə nə köməklik lazımdırsa göstərər. Heç bir problem yoxdur.

– Lap yaxşı. Onda sabah cinayət işinin materialları ilə tanış olduqdan sonra sizinlə və ailənizin digər üzvləri ilə də söhbət etmək istəyərəm.

– Buyurun. Nə zaman istəsəniz biz məlumat verməyə hazırıq.

– Onda sabahadək, xudahafiz.

– Xudahafiz.

Kənan ayağa qalxıb hər iki həmsöhbətinə əl uzatdı. Daha sonra avtomobilinə doğru addımlamağa başladı. İndi beynində işi öhdəsinə götürməklə düzgün addım atdığını və yaxud səhv qərar verdiyini aydınlaşdırmağa çalışırdı. Hər halda atalıq duyğusu və vicdan hissi onu bu qərarı verməyə məcbur etmişdi. O, çox gözəl bilirdi ki, onun bu qərarı Nuridənin də xoşuna gəlməyəcək. Amma Nuridə həmişə Kənanın verdiyi qərarların arxasında olmuşdu. Hər daim dəstəkləmişdi onu. Kənan belə bir həyat yoldaşına sahib olduğu üçün özünü xoşbəxt hiss edirdi. Elə bu fikirlərlə gəlib avtomobilinə əyləşdi. Mühərriki işə salıb hərəkətə başladı və evə doğru yol aldı. İndi Nuridəyə söz verdiyi kimi çağırıldıqları doğum gününə getməliydilər. Kənan heç sevməzdi belə məclisləri. Onun bu tip qonaqlıqlarda ürəyi sıxılırdı və bütün baş verənlər onun üçün gərəksiz bir şey kimi görünürdü. Amma Nuridənin xatirinə oraya mütləq gedəcəkdi. Kənan avtomobili ilə qaldıqları həyətə daxil olub hər zamankı yerində avtomobili saxladı və aşağı endi. Qaldıqları binaya doğru addımlayıb liftə daxil oldu və üzərində səkkiz yazılan düyməni sıxdı. Qapını döyər-döyməz içəridən uşaqların qışqırıqları eşidildi. Səs-küydən aydın olurdu ki, uşaqlar qapını kimin açacağına qərar vermək üçün bir tərəfdən dava edir, digər tərəfdən isə qapıya doğru qaçırdılar. Qapını Həsən açmışdı. Qardaşından geri qalıb qapını aça bilmədiyi üçün Yağmur ağlamağa başlamışdı. Qapıda atasını görən kimi Həsən sevincək qışqırdı:

– Ata, qapını mən açdım. Yağmur mənə çata bilmədi.

Kənan Yağmurun ağladığını görüb onu qucağına aldı və yanağından öpdü. Yağmur bundan sonra bir az sakitləşdi və ağlamağı dayandırdı. Kənan Yağmuru qucağından endirdikdən sonra Həsənin başını sığallayaraq:

– Həsən, o sənin bacındır. Özü də səndən də balacadır. Gərək sən həmişə onun arxasında olasan. Bir də bacınla dalaşıb onu ağlatma, yaxşı, ağıllı balam?

– Mən heç nə etmədim ki, ata. O özü mənimlə yarışmaq istədi, çata bilmədi, sonra da başladı ağlamağa.

– Sən ondan böyüksən, gərək ona güzəştə gedəsən. Həmişə bir-birinizlə mehriban olun. İndi gedin birlikdə oynayın.

– Yaxşı, ata.

Həsən bu söhbətdən sonra bacısı ilə birlikdə öz otaqlarındakı oyuncaqlarla oynamağa getdi. Kənan da mətbəxə doğru addımladı. Mətbəxə daxil olarkən Nuridənin anası Sünbül xanımın da burada olduğunu gördü. Kənan Sünbül xanımın xətrini çox istəyirdi. Elə Sünbül xanım da Kənanı çox istəyirdi. Onlar yenə mehribanlıqla görüşdülər:

– Salam, Sünbül xala. Necəsiniz? Xoş gəlmisiniz.

– Salam, Kənan. Çox sağ ol, sən necəsən?

– Şükür, ay Sünbül xala, yaxşıyıq. Qızın yenə sənə əziyyət verib hə? Uşaqlar yenə yoracaq sizi.

– Yox, ay Kənan, o nə sözdür. Onlar mənim ürəyimin parasıdırlar. Onlar niyə məni yorur?

Kənan bu sözdən sonra gülümsündü və qonaq otağına getdi. Kresloda əyləşib qəzetlərə göz gəzdirməyə başladı. Bir neçə dəqiqədən sonra Nuridə onun üçün çay gətirdi. Kənan yoldaşına təşəkkür edib qəzetlərə nəzər yetirməyə davam etdi. Nuridə yenidən axşam üçün yemək hazırlamağa yollandı. Sünbül xanım da bu işdə Nuridəyə kömək edirdi. Kənan qəzetləri səliqə ilə qatlayıb kənara qoydu və çayını içməyə başladı. O, indi sabah görəcəyi işləri planlaşdırırdı. Oğlanın öldürülmə tərzi Kənana çox pis təsir bağışlamışdı. O, neçə illərdir ki, cinayət işləri ilə məşğul olmasına baxmayaraq bu qədər qəddar cinayətlə qarşılaşmasını xatırlamırdı. Bunları fikirləşərkən zamanın necə keçdiyinin fərqinə varmamışdı. Saat artıq səkkizə on dəqiqə işləyirdi. Nuridə yan otaqdan gəldi və Kənanın hazırlaşmadığını görüb:

– Sən hələ paltarlarını dəyişməmisən? Neçə saat əvvəldən geyəcəyin paltarları ayırıb qırağa qoymuşam. Get geyin. Axı biz saat səkkizdə orada olmalıyıq.

– Narahat olma, beş dəqiqəyə hazır olaram. Sən deyəsən artıq tam hazırsan?!

– Hə, mən hazıram artıq. Amma sən gözümə nəsə qəribə dəyirsən. Heç bir problem yoxdur ki?

– Yox, yox, nə problem olacaq? Bu saat hazırlaşıb gəlirəm.

Kənan paltarını dəyişmək üçün yataq otağına keçdi. O, Nuridənin bu xasiyyətini çox bəyənirdi. Kənanın əhvalındakı kiçik dəyişiklik belə Nuridənin gözündən qaçmazdı. Amma nəyin baş verdiyini

deməsi üçün Kənanı çox da sıxışdırmazdı. Ona görə də Kənan Nuridənin bu anlayışlı cəhətini çox sevirdi. Kənan cəld əynini dəyişib geri qayıtdı. Nuridəni səsləyib hazır olduğunu bildirdi. Onlar ayaqqabılarını geyinib çıxarkən uşaqlar yüyürüb gəldilər. Kənan üzünü uşaqlara tutub:

– Biz olmadığımız vaxt evdə dəcəllik etməyin. Nənəni incitməyin. Həsən, bacınla dalaşma. Yağmur, sən də qardaşının sözünə qulaq as. Yaxşı, uşaqlar?

– Yaxşı, ata.

– Siz də salamat qalın, Sünbül xala. Çalışarıq tez qayıdaq.

– Arxayın gedin. Uşaqlardan narahat olmayın.

Onlar birlikdə evdən çıxıb aşağı endilər. Avtomobilə əyləşib gedəcəkləri restorana doğru irəliləməyə başladılar. Kənan yolda Nuridəyə bu gün öhdəsinə götürdüyü iş barədə danışmağı qərara aldı:

– Nuridə, bu gün Yusif mənə zəng edib bir iş barədə xahiş elədi. İlk əvvəl etiraz etsəm də sonda həmin şəxslərlə görüşməyə razılıq verdim. Bayaq sizi düşürdükdən sonra onlarla görüşməyə getmişdim.

– Nə işi, Kənan? Kiminlə görüşmüşdün?

– Yusifin bir yaxın dostunun oğlunu öldürüblər. O da məndən qatilin tapılmasına köməklik göstərməyimi xahiş etdi.

– Kənan axı sən bu işlərdən uzaqlaşdığını demişdin. Məhz buna görə biz Türkiyədən köçüb Bakıya gəldik ki, keçmişdə açdığın işlər gələcəkdə övladlarımıza təhlükə yaratmasın. İndi də burda bu işlərlə məşğul olmaq istəyirsən?

– Yox, Nuridə. Dediyim kimi mən də ilk əvvəl qəti etiraz etdim. Hətta onlarla görüşmək belə istəmədim. Lakin sonradan həm Yusifin xətrinə dəydiyimi hiss etdim, həm də bir çarəsiz atanı köməksiz qoyduğumu düşündüm. Ən azından görüşüb söhbət etmək istədim. Kişinin vəziyyəti ürəyimi ağrıtdı. Təsəvvür et ki, oğlunun cəsədini altı hissəyə parçalayıblar. Mən də bir atayam. Bir anlıq Həsən gəldi gözümün qabağına.

– İraq olsun. O nə sözdür danışırsan, ay Kənan? Heç elə bir şeyi ağlına da gətirmə.

– Bax elə buna görə də işi qəbul etməyə qərar verdim. Elə bir şeyi ağıla gətirmək belə insanı bu dərədə incidirsə indi gör o kişi nələr çəkir. Ona görə də onlara kömək edəcəyimə söz verdim. Ümid edirəm məni başa düşərsən.

– Yaxşı Kənan, nə deyirəm. Kömək et. Amma bax ehtiyatlı ol. Həm özün üçün, həm də uşaqlar üçün.

– Narahat olma. İndi de görək rəfiqənə nə hədiyyə almısan?

– Qızıl bir boyunbağı almışam. Çox gözəl qaşlarla bəzədilib.

– Siz qadınların bu zinət əşyalarına belə vurğunluğunuzu heç bir zaman anlaya bilmədim də.

– Nə olsun ki? Biz qadınlar da siz kişilərin futbola və avtomobilə olan marağınızı anlaya bilmirik.

Bu söhbətdən sonra onların hər ikisi gülüşdülər. Artıq restoranın qarşısına çatmışdılar. Kənan avtomobili restoranın qapısına mümkün qədər yaxın saxlayıb aşağı endi və Nuridənin qapısını açdı. Nuridə də avto-

mobildən endi və Kənanın qoluna girib birlikdə restorana daxil oldular. Rəfiqəsi və onun həyat yoldaşı Kənangili qarşıladı. Nuridə rəfiqəsini təbrik edib hədiyyəsini təqdim etdi. Kənan da bu təbrikə qoşuldu. Daha sonra onlar masa arxasına keçib əyləşdilər. Restoranda canlı musiqi də var idi. Hələ ki, yavaş-yavaş yığışan qonaqları rahatlatmaq üçün həzin musiqi parçaları çalınırdı. Gecə maraqlı keçdi bütünlükdə. Onlar axşam restorandan ayrılıb evə qayıtdılar. Uşaqlar artıq yatmışdı. Sünbül xanım da onları qarşıladıqdan sonra yatmağa yollandı. Kənan hamama gedib duş qəbul etdi və yatağına uzandı. Yenə də bir daha sabah görəcəyi işlər barədə düşünüb yuxuya getdi.

Kənan səhər saat doqquzda yuxudan oyandı. Əl-üzünü yuyub, üzünü qırxdı. Daha sonra mətbəxə keçdi. Nuridə artıq onun üçün səhər yeməyi hazırlamışdı. Kənan stulda əyləşən kimi Nuridə çayı süzüb gətirdi. Evləndikləri gündən bu günə kimi hər zaman Nuridə Kənandan daha əvvəl yuxudan oyanıb onun üçün özü səhər yeməyi hazırlamışdı. Artıq hər ikisi buna adət etmişdilər. Nuridə Kənanla üzbəüz oturub sözə başladı:

– Kənan, özün də yaxşı bilirsən ki, mən hər zaman qəbul etdiyin qərarlara dəstək olmuşam. Heç bir zaman sənin qəbul etdiyin qərarlara etiraz etməmişəm. Elə ona görə də bu qərarına da etiraz etmirəm. Lakin bu dəfə səndən xahişim çox ehtiyatlı olmağındır. Həm öz həyatını, həm də uşaqların həyatını təhlükəyə atacaq heç bir şey etmə. Övladımız oğurlananda nə

vəziyyətə düşdüyümüzü yəqin ki, xatırlayırsan. Həmin hissləri bir daha keçirmək istəmirəm.

– Narahat olma, Nuridə, nə özümə, nə də uşaqlara zərər gəlməsinə imkan verməm. Hər ehtimala qarşı siz də ehtiyatlı olun. Amma narahat olacaq bir məsələ yoxdur.

Kənan çayını içib evdən çıxdı. Avtomobilinə doğru addımlayarkən mobil telefonunu çıxarıb Qurban müəllimə zəng etdi. Çox keçmədən Qurban müəllimin səsi eşidildi:

– Sabahınız xeyir, Kənan müəllim.

– Hər vaxtınız xeyir, Qurban müəllim. Mən indi prokurorluğa gedib cinayət işi ilə tanış olmaq istəyirəm. Bilirsiniz ki, adi bir vətəndaş kimi gedib cinayət işi ilə tanış ola bilmərəm. Siz mənə demişdiniz ki, bu barədə mənə köməklik göstərə bilərsiniz. Ona görə sizə zəng vurdum ki, həm sizdən işin hansı müstəntiqdə olduğunu öyrənim, həm də köməklik göstərməyinizi xahiş edim.

– Kənan müəllim, cinayət işi Rauf Eyvazovdadır. Cinayət işi ilə tanış olmaqla da bağlı sizin üçün heç bir problem yaranmayacaq. Mən prokurordan bu barədə xahiş etmişəm. İndi yenidən zəng edib xahiş edəcəyəm. Siz arxayın gedə bilərsiniz.

– Yaxşı, Qurban müəllim. Onda mən prokurorluğa gedirəm. Oradan çıxdıqdan sonra ola bilsin sizinlə və ailə üzvlərinizlə söhbət etməli oldum.

– Buyurun, Kənan müəllim. Nə vaxt istəsəniz məlumat verməyə hazırıq. Başqa da nə köməklik lazım olsa əlaqə saxlaya bilərsiniz.

– Hələlik.

– Hələlik.

Kənan avtomobilinə əyləşib prokurorluğa yollandı. Prokurorluğa daxil olub Rauf Eyvazovun otağını öyrəndi və pilləkənlərlə yuxarı qalxıb otağa doğru addımladı. Qapını açıb içəri daxil oldu. Burada qırx-qırx beş yaşlarında bir kişi və cavan bir oğlan var idi. Kənan üzünü yaşlı olana tutub:

– Salam. Rauf Eyvazov sizsiniz?

– Bəli, mənəm. Siz də yəqin ki, Kənan müəllimsiniz.

– Bəli.

– Gələcəyinizi xəbər vermişdilər. Buyurun əyləşin.

– Çox sağ olun. Yəqin ki, gəliş səbəbimi də bilirsiniz. Kazımov Nurlan Qurban oğlunun cinayət işi ilə tanış olmaq istəyirdim.

– Bəli məlumat veriblər. Başa düşdüyüm qədəri ilə detektivsiniz. Fikrimcə, bu işdə sizin köməyinizə ehtiyac yoxdur. Özümüz nə lazımdırsa edəcəyik. Amma bir halda ki, Qurban müəllim sizin köməyinizdən istifadə etmək istəyir, buyurun cinayət işi ilə tanış ola bilərsiniz.

– Fikrimcə, Qurban müəllim mənim köməyimə ehtiyac duymasa mənə müraciət etməzdi. Hər bir halda fikrinizi bildirdiyinizə görə təşəkkür edirəm.

Kənan Rauf Eyvazovdan cinayət işini alıb nəzərdən keçirməyə başladı. Ən xırda detallara belə diqqətlə fikir verir, heç nəyi gözdən qaçırmaq istəmirdi. Kənan meyitin fotoşəkillərinə baxmağa başladı. Çox

dəhşətli görüntülər idi. Fotoşəkillərə baxdıqca Kənan sanki qanının donduğunu hiss edirdi. Fotoşəkilləri bir-bir diqqətlə nəzərdən keçirdirdi. Diqqətini ən çox çəkən məqam isə Nurlanın alnındakı "V" işarəsi oldu. O həmin fotoşəkilə uzun müddət diqqətlə baxdı. Bunu görən Rauf Eyvazov üzünü Kənana tutub:

– Deyəsən bu işarə sizin də diqqətinizdən qaçmadı?

– Bəli, meyitin alnında "V" işarəsi var. Çox maraqlıdır. Görəsən, qoyulma səbəbi nədir? Nə deməkdir bu işarə?

– Sizin fikrinizcə, nə məna ifadə edə bilər?

– Hələ ki, heç bir fikrim yoxdur. Bəzən qatillər qurbanlarının bədənləri üzərində öz imzalarını qoymaqdan zövq alırlar. Ola bilsin başqa bir mənası var. Hər bir halda üzərində ciddi olaraq düşünmək lazımdır.

– Bəli, bir az qaranlıq məqamdır. Lakin mənə elə gəlir ki, cinayətin açılmasına böyükköməklik göstərəcək bu detal.

– Ola bilsin. Amma ola da bilər ki, qatil, sadəcə olaraq, diqqəti yayındırmaqdan ötəri belə bir üsula əl atıb. Sizdən bu fotoşəkillərin bir nüsxəsini mənə verməyinizi xahiş edə bilərəm?

– Bəli, əlbəttə. Şamil fotoşəkillərdən bir nüsxə çıxart Kənan müəllimə ver.

– Çox sağ olun, minnətdaram sizə.

Şamil dərhal kompüterin yaddaşından şəkilləri çap edib Kənana uzatdı. Kənan şəkilləri götürüb bir daha Şamilə və Rauf Eyvazova təşəkkür etdi və otaqdan çıxdı. Kənan prokurorluqdan çıxıb yenidən Qurban

müəllimə zəng etdi. Onunla görüşmək üçün sövdələşib Qurban müəllimgilin evinə doğru hərəkətə başladı. Qurban müəllimgilin həyət qapısı açıq idi. Kənan addımlayaraq həyət qapısından içəri daxil oldu. Həyətdə bir neçə nəfər çadırı sökməklə, ətrafı təmizləməklə məşğul idi. Kənan bu şəxslərə nəzər yetirərək evin qapısına doğru getdi. Qapını gənc bir oğlan açdı:

– Buyurun. Kim lazımdır?

– Salam. Qurban müəllimin evidir?

– Bəli. Bəs siz kimsiniz?

– Adım Kənan Orucovdur. Qurban müəllim evdədirsə zəhmət olmasa xəbər verin.

Kamran üzünü qonaq otağına doğru çevirib hündürdən atasını səslədi. Qurban müəllim qonaq otağından çıxıb giriş qapısına doğru gəldi. Burada Kənanın dayandığını görüb addımlarını yeyinləşdirdi. Qapıya çatıb Kənana əl uzatdı:

– Xoş gəlmisiniz, Kənan müəllim. Buyurun keçin içəri. Üzrlü hesab edin, oğlum sizi tanımayıb.

– Xoş gördük, Qurban müəllim. Zərər yoxdur, narahat olmayın.

Kənan içəri daxil olub Qurban müəllimin arxasınca getdi. Onlar birlikdə qonaq otağına daxil olub bir masa arxasında əyləşdilər. Qurban müəllim Kamrana qonaq üçün çay gətirməyi tapşırdı. Kənan tezliklə söhbətə başladı:

– Qurban müəllim, bura gəlməyimə səbəb sizdən bir neçə şeyi soruşmaqdır. Sizdən xahiş edirəm suallarıma mümkün qədər dəqiq və düzgün cavab verin.

Məndən nəyi isə gizlətməyə çalışmayın ki, qatili ən qısa müddətdə tapa bilək.

– Buyurun, Kənan müəllim, bütün suallarınıza cavab verməyə hazıram.

– Sizdən daha bir xahişim mənə, sadəcə, Kənan deyin. Müəllim deyilməsini sevmirəm.

– Yaxşı, qoy olsun Kənan.

– Təşəkkürlər. İlk növbədə mənə Nurlanı son dəfə gördüyünüz günü danışın.

– Həmin gün çox da yaddaqalan hadisələr olmayıb. Axşam həmişəki kimi birlikdə yemək yedik. Sonra mən böyük oğlum Kərimlə birlikdə televizora baxmağa yollandım. Nurlan da bizimlə birgə idi. Elə bir müddətdən sonra Nurlanın telefonuna zəng gəldi. Bu zəngdən də bir qədər keçmiş Nurlan evdən çıxıb şəhərə yollandı. Sonra gecə Nurlanın hələ də qayıtmadığını görüb telefonuna zəng etdik. İlk dəfə telefonu götürmədi, daha sonra isə telefonuna, ümumiyyətlə, zəng çatmadı. Sonrası da bildiyiniz kimi meyitini tapdılar balamın.

– Nurlana zəng edənin kimliyini bilmirsiniz?

– Zəng edən Samir idi. Nurlanın sinif yoldaşı. Nurlan ən çox onunla oturub-dururdu. Demək olar ki, hər gün görüşürdülər.

– Zəng edənin həqiqətən Samir olmasını dəqiq bilirsiniz?

– Bəli. Biz səhərə kimi gözlədik. Nurlanın gəlib çıxmadığını gördükdə onun köhnə telefonundan Samirin nömrəsini tapıb ona zəng vurduq. Samir birlik-

də olduqlarını təsdiq etdi. Lakin dedi ki, axşam on ikinin yarısında ayrılıblar.

– Nurlanın kiminləsə münaqişəsi yox idi ki? Son zamanlar kiminləsə dava-dalaşı olmayıb?

– Xeyr, xeyr. Nurlan elə uşaq deyildi. Sevməzdi kiminləsə dalaşmağı.

– Qurban müəllim, bəs sizin necə? Sizin son zamanlar münaqişəniz olan biri varmı? Ümumiyyətlə, siz bu cinayətin törədilməsində kimdənsə şübhələnirsinizmi?

– Bilirsən, Kənan, mən fərdi biznes fəaliyyəti ilə məşğulam. Bizim şirkət tikinti işi ilə məşğuldur. Bunun üçün kifayət qədər rəqiblərim var. Bu rəqabət bəzən ifrat dərəcəyə çata bilir. Hətta bəlkə də düşmənçilik münasibətləri belə yarada bilir. Amma sırf bu rəqabətə görə oğlumu belə vəhşicə qətlə yetirmələri beynimə batmır.

– Son zamanlar münasibətlərinizin ən kəskin olduğu rəqibləriniz kimlərdir?

– "Altay" MMC-nin müdiri Altay Nuriyev. Nurlanın ölümündən iki-üç ay əvvəl bir tenderdə biz bu şirkətə qalib gəldik. Altayın bu tenderdə uduzması onu külli miqdarda ziyana saldı. Nurlanın ölümündən sonra mən işlərlə məşğul ola bilmədiyim üçün hazırda həmin işi yenidən "Altay" MMC-yə veriblər. Bəlkə də bunlar Altaydan şübhələnməyə kifayət qədər əsas verir, amma mən yenə də sırf rəqabət üçün belə bir vəhşiliyə yol veriləcəyinə inanmıram.

– İnsanlar çiy süd əmib, Qurban müəllim. Bəzən öz mənfəətləri üçün təbiətdəki ən vəhşi heyvandan daha vəhşi ola bilirlər.

– Orası da düzdür. Amma nə bilim, daxilimdə nə isə elə fikirləşməyə imkan vermir.

– Qurban müəllim mümkündürsə həyat yoldaşınız və digər övladlarınıza da bir neçə sual vermək istərdim. Mümkündürmü?

– Əlbəttə, mümkündür. Lakin həyat yoldaşım Nurlanın ölümündən sonra çox sarsıntı keçirdib. Hələ də sakitləşdirici dərmanlar qəbul edir. Mümkün qədər onu incidəcək suallardan uzaq durmağa çalış.

– Sizi başa düşürəm. Əlimdən gələni edəcəyəm. Həyat yoldaşınızı çağırın, zəhmət olmasa.

Qurban müəllim Səkinə xanımı səsləməyə başladı. Bir neçə dəqiqədən sonra Səkinə xanım otağa daxil oldu. O, əvvəlcə Qurban müəllimin üzünə baxdı, daha sonra otaqda əyləşmiş qonağa tərəf üzünü çevirdi. Başı ilə salam verib xoş gəlmisiniz dedi. Qurban müəllim Səkinə xanıma üzünü tutub:

– Səkinə bu Kənandır. Sənə danışdığım detektiv. Səndən bir neçə söz soruşmaq istəyir. Gəl otur suallarına cavab ver.

Səkinə xanım Qurban müəllimin yanında əyləşdi. Donuq baxışlarla Kənanın üzünə baxırdı. Baxışlarında həm də bir ümid vardı sanki. Gözlərinə baxdıqda belə qənaətə gəlmək olurdu ki, Səkinə xanım haqqında tariflər eşitdiyi bu adamın suallarına cavab verdikdən sonra dərhal oğlunun qatilini tapacağını düşünür. Kənan çox keçmədən sözə başladı:

– Səkinə xanım, əvvəla qeyd etmək istəyirəm ki, bu hadisə məni də dərindən kədərləndirib. Başınız sağ olsun. Allah rəhmət etsin.

– Çox sağ olun. Minnətdaram.

– İcazə versəniz sizə bir neçə sual vermək istəyirəm.

– Buyurun. Eşidirəm sizi.

– Səkinə xanım son dövrlər Nurlanın hər hansı problemi olduğunu, kiminləsə münaqişəsinin olduğunu hiss etməmişdiniz? Yaxud da özü bu barədə hər hansı bir söz deməmişdi?

– Yox. Heç kimlə nə problemi var idi nə də münaqişəsi. Belə bir şey olsa mən mütləq hiss edərdim.

– Bəs son zamanlar hərəkətlərində hər hansı qəribəlik diqqətinizi çəkməmişdi?

– Xeyr. Sadəcə, son zamanlar evə gec gəlirdi. Gecə gec saatlara qədər gəzməyi xoşlayırdı. Cavan oğlandır, qanının qaynayan vaxtıdır deyə heç bir söz demirdik. Lakin hərəkətlərində heç bir qəribəlik yox idi.

– Bəs sizin şübhələndiyiniz kimsə varmı? Sizcə, kim törədə bilər bu cinayəti?

– Balamı kimin öldürdüyünü bilsəm həmin adamı çoxdan tapıb parça-parça etmişdim. Hər gecə o qatilin tapılması üçün Allaha yalvarıram.

– Aydındır. Təşəkkürlər suallarımı cavablandırdığınız üçün.

Səkinə xanım sakitcə durub otaqdan çıxdı. Kənan Qurban müəllimdən övladlarını çağırmasını xahiş etdi. Qurban müəllim sıra ilə Kamran və Nailəni ça-

ğırdı. Kərim həmin vaxt evdə deyildi. Bu gün səhər tezdən işə yollanmışdı. Evdən uzaqlaşıb işdə başını qatmaqla fikirlərdən uzaqlaşmaq istəyirdi. Kənan Səkinə xanıma verdiyi sualları Kamrana və Nailəyə də ünvanladı. Lakin Səkinə xanımın cavablarına oxşar cavablar əldə etdi. Daha sonra Qurban müəllimdən Samirin telefon nömrəsini alıb sağollaşaraq oradan ayrıldı. Avtomobilinə əyləşdikdən sonra fikrə getdi. İndi o ilk növbədə Samirlə söhbət etməyi düşünürdü. Daha sonra isə bir bəhanə ilə Altay Nuriyevlə görüşüb onun ümumilikdə necə xarakterdə insan olduğunu öyrənməyə çalışacaqdı. Fikirləri beynində dəqiqləşdirdikdən sonra mobil telefonunu çıxarıb Samirin nömrəsini yığdı. Çox keçmədən qarşı tərəfdən gənc bir oğlan səsi eşidildi:

– Alo.

– Alo. Salam. Samirlə danışıram?

– Salam. Bəli mənəm. Kiminlə danışıram?

– Samir, adım Kənandır. Nurlanın qətlini araşdıran detektivəm. Səninlə Nurlanın qətli ilə bağlı söhbət etmək istəyirdim. Görüşə bilərik səninlə?

– Mən müstəntiqə bütün bildiklərimi danışmışam. Ondan savayı heç nə bilmirəm.

– Müstəntiqə danışdıqlarını bir də mənə danışmağını xahiş edirəm. Əgər istəyirsənsə dostunun qatili tapılsın mənə köməklik göstər.

– Yaxşı. Harada görüşək?

– Nurlanı sonuncu dəfə harada görmüşdün?

– Nizami küçəsində, “Mc Donald’s” restoranının qarşısında sağollaşmışdıq.

– Onda elə həmin yerdə də görüşək. Mən yarım saat sonra orda olacağam.

– Yaxşı. Mən də mümkün qədər tez gəlməyə çalışaram.

Kənan telefon danışığını bitirdikdən sonra görüşməli olduqları yerə doğru hərəkət aldı. İyirmi dəqiqə sonra artıq “Mc Donald’s” restoranının qarşısına çatmışdı. Nizami küçəsində yenə də həyat qaynayırdı. Bu küçə yenə də insanlarla dolu idi. Kənan sakit nəzərlərlə buradakı insan kütləsini müşahidə edirdi. Burada yüzlərlə fərqli insan, yüzlərlə fərqli həyat var idi. Bu insanlar illər sonranın xəyallarını, planlarını qurub həyatlarını yaşayırlar, lakin beş dəqiqə sonra belə həyatın onlar üçün nələr hazırladıqlarından xəbərsizdirlər. Amma bəlkə də həyatı maraqlı edən cəhətlərdən biri də budur. Bəlkə də insan gələcəyi bilərək yaşasa artıq onun üçün yaşamağın heç bir marağı qalmazdı. Kənanı bu düşüncələrdən mobil telefonunun zəngi ayırdı. Zəng edən Samir idi. Telefona cavab verərək həm də ətrafa boylandı. On səkkiz iyirmi yaşlarında gənc bir oğlanın əlində telefon tutaraq kiməsə zəng etdiyini görəndə bunun Samir olduğunu anladı. Birbaşa həmin cavan oğlana yaxınlaşaraq:

– Salam, Samir, sənsən?

– Salam. Bəli, mənəm. Siz də Kənan müəllimsiniz yəqin ki?!

– Bəli. Gəldiyin üçün çox sağ ol. Sənə bir neçə sual verəcəyəm. Yalnız səndən xahişim mənə yalnızca doğruları deməyindi. Məndən heç nə gizlətmədən hər şeyi danış. Həmin gün bütövlükdə nələr olmuşdu?

– Axşam Nurlana zəng edib şəhərə dəvət etdim. Onunla həmişə məhz elə burada görüşərdik. Həmin gün də elə burada görüşdük. Birlikdə yaxınlıqdakı “Roma” çay evinə yollandıq. Burda bir müddət çay içdik və nərd oynadıq. Sonra çıxıb şəhərdə bir az gəzişdik. Daha sonra yenə də burada sağollaşdıq. Saat təxminən on ikinin yarısı olardı. Ondan sonra mən evə getdim. Səhər tezdən Nurlanın qardaşı Kərim Nurlanın evə qayıtmadığını bildirdi mənə. Sonra da qara xəbərini aldıq. Bütün bildiklərim bu qədərdir.

– Haradadır bu “Roma” çay evi? Birlikdə ora gedə bilərik?

– Əlbəttə. Buyurun gedək.

Kənan Samirlə birgə “Roma” çay evinə doğru irəliləməyə başladı. Onlar beş dəqiqə piyada yeridikdən sonra həmin çay evinin qarşısına çatdılar. Birlikdə içəri daxil olduqda ofisiantlardan biri cəld qapının yanına gəlib Samirlə görüşdü. Kənan onların görüşməsindən bir-birlərini çoxdan tanıdıqlarını başa düşmüşdü. Samir Kənanı ofisiantla tanış etdi və onun kimliyi barədə məlumat verdi. Kənan ofisianta əl uzatdı:

– Salam. Samirin dediyi kimi mən Nurlanın qətlini araşdıran detektivəm. Sizə bir neçə sualım olacaq. Xahiş edirəm suallarımı cavablandırasınız.

– Buyurun, keçib əyləşək. Bir çayımızı için. İstədiyiniz sualı da verə bilərsiniz.

– Minnətdaram. Nurlanı nə vaxtdan tanıyırsınız?

– Səhv etmirəmsə iki ildir. Mən çoxdandır burada işləyirəm. Nurlanla Samir də bizim çoxdankı müştərilərimizdir. Elə tanışlığımız da oradandır.

– Aydındır. Nurlanı sonuncu dəfə nə zaman görmüsünüz?
– Səhv etmirəmsə mart ayının ikisi idi. Samirlə birgə gəlmişdilər.
– Həmin gün əhval-ruhiyəsində nəsə dəyişiklik hiss etməmişdiniz?
– Yox. Həmişəki kimi kefi yaxşı idi. Samirlə və yanlarındakı xanımlarla zarafat edib gülürdü.
– Yanlarında xanımlar da var idi?
– Bəli. İki xanım var idi yanlarında. Son bir ay idi ki, yalnız o xanımlarla birgə gəlirdilər.
– Aydındır. Verdiyiniz məlumatlara görə təşəkkür edirəm.

Samir bu söhbətdən sonra qıpqırmızı qızarmışdı. Sanki yerində donub qalmışdı. Nə edəcəyini bilmirdi. Kənan Samirə çıxıb getməyi təklif etdi. Onlar birlikdə çay evindən çıxdılar. Bir qədər yeriyib oradan uzaqlaşdıqdan sonra Kənan sözə başladı:

– Samir, mən sənə dedim axı məndən heç nə gizlətmə. Nurlanı ən son görən insan sənsən. Səndən sonra müəmmalı şəkildə yox olub və iki gün sonra meyiti tapılıb. Belə bir vəziyyətdə ilk şübhəli sən hesab edilirsən. Eyni zamanda müstəntiqə də yalan ifadə vermisən. Çox güman ki, o da bura gəlib həmin şəxslə söhbət edəcək və bundan sonra sənin vəziyyətin heç də yaxşı olmayacaq.
– Siz nə danışırsınız? Necə yəni şübhəli mənəm? Yəni Nurlanı elə vəhşicəsinə mən qətlə yetirmişəm?
– Mən sənin qətlə yetirdiyini söyləmədim. Bunun üçün sübutlar yoxdur. Lakin sən yalan danışmaqla öz

vəziyyətini də, bizim qatili tapmağımızı da çətinləşdirirsən. Ona görə indi həqiqətləri danış. Kim idi o qızlar?

Samir indi, ümumiyyətlə, həyəcanlanmışdı. Bu eşitdiklərindən möhkəm qorxmuşdu. Həm də xanımlar haqqında Kənanın bilməsindən narahat olmuşdu. Bir qədər fikrə getdikdən sonra danışmağa qərar verdi:

– Onlarla təxminən iki ay əvvəl tanış olmuşduq. Adları Sevinc və Gülşəndir. Nurlan Sevinclə, mən isə Gülşənlə görüşürdüm. Yaşları bizdən bir qədər çoxdur. Sevinc evlidir. Nurlanın qətlə yetirilməsindən bir neçə gün əvvəl Sevincin həyat yoldaşı Nurlana zəng edərək ona xəbərdarlıq etmişdi. Telefonda bir qədər mübahisə etmişdilər. Hətta bir-birlərinə söyüşlər də söymüşdülər. Amma sonra ondan heç bir xəbər çıxmamışdı. Eşitdiyimə görə onun əvvəllər məhkumluğu olub. Adam öldürməkdən tutulubmuş.

– Bütün bu faktları niyə gizlədirdin? Gör bir necə vacib məlumatlardı. Niyə gerçəklərin ortaya çıxmasına əngəl törədirsən, Samir?

– Bilirsiniz, mən qorxurdum. Həm Sevincin ərinin kriminal keçmişinin olmasından, həm də qızlarla görüşdüyümüz barədə valideynlərimin xəbər tutmasından qorxurdum. Atam bu haqda eşitsə məni öldürər.

– Ən yaxın dostunun arxasından belə qorxaqlıq göstərmək nə dərəcədə doğrudur? Hər nə isə. Mənə Sevincin nömrəsini ver. Onunla da danışmalıyam. Özün də ehtiyatlı ol. Mən sənə xəbər verənə qədər şəhərdən kənar heç hara getmə. Ola bilsin yenə də

sənin köməyinə ehtiyac duyuldu. Sənə məsləhətim müstəntiqin yanına gedib ona da həqiqətləri danışmağındı.

Samir mobil telefonundan Sevincin nömrəsini tapıb Kənana söylədi. Kənan nömrəni özündə qeyd edib Samirdən ayrıldı. Avtomobilini saxladığı dayanacağa doğru addımlayarkən Sevincin nömrəsini yığdı. Telefona cavab verən olmadı. Daha bir cəhd etsə də heç bir cavab gəlmədi. Avtomobilinə çatıb əyləşdi və mühərriki işə salıb dayanacaqdan çıxdı. Yola yenicə düzəlmişdi ki, Sevincin nömrəsindən zəng gəldi. Avtomobili kənara çəkib telefon zənginə cavab verdi:

– Alo.

– Alo. Kimdir danışan?

– Sevinc xanım, adım Kənandır. Nurlan Hüseynovun qətlini araşdıran detektivəm.

Sevincin təlaşlanması hiss olunurdu. Səsi titrəyərək cavab verdi:

– Buyurun. Eşidirəm sizi.

– Sevinc xanım, sizə Nurlanla bağlı bir neçə sual verməliyəm. Əgər mümkündürsə sizinlə görüşərdik.

– Mən heç nə bilmirəm. Heç nədən xəbərim yoxdur.

– Sevinc xanım, on səkkiz yaşında gənc bir oğlan vəhşicəsinə qətlə yetirilib. Üstəlik bu gənc oğlanla sizin də münasibətiniz varıymış. Gözünüzün qarşısına onun valideynlərinin çəkdikləri iztirabları gətirin. Ola bilər özünüz də bilmədən elə bir şey deyərsiniz ki, cinayətkarın aşkar olunmasına kömək edər. Ona görə sizdən artıq dərəcədə xahiş edirəm köməklik göstərəsiniz. Mənim sizə verməli olduğum bəzi suallar var.

– Yaxşı. Mən hazırda evdəyəm. Sizi gözləyirəm. Ünvanı indi sizə mesajla yollayaram.

Kənan telefon danışığını yekunlaşdırdı. Bir qədər mesajın gəlməsini gözlədi. Çox keçmədən Sevincin nömrəsindən mesaj daxil oldu. Kənan ünvanı oxuduqdan sonra telefonu cibinə qoydu və yenidən avtomobili idarə etməyə davam etdi. Gedəcəyi ünvan hazırda olduğu yerdən bir qədər uzaqda yerləşirdi. Bu onun üçün vaxt itkisi idi və bu Kənanın qanını qaraltmışdı. O bacardığı qədər tez hərəkət etməyə çalışırdı. Şəhərin tıxacları da hərəkətə çətinliklər törədirdi. Kənan təxminən əlli dəqiqə sonra artıq Sevincin yaşadığı mənzilin qapısının qarşısında idi. Qapını döydü. Qapını sarı saçlı, mavi gözlü, orta boylu, iyirmi beş iyirmi altı yaşlı bir xanım açmışdı. Düz sarı saçları kürəyinə qədər tökülürdü. Əyninə geydiyi idman formasında belə çox gözəl görünürdü. Üzündə cüzi kosmetika var idi. Bu cazibədar xanımla söhbətə ilk olaraq Kənan başladı:

– Sevinc xanım sizsiniz?

– Bəli, mənəm. Siz də yəqin ki, bayaq telefonda danışdığım detektivsiniz.

– Doğrudur.

– Buyurun, keçin içəri.

Kənan ayaqqabılarını çıxardıqdan sonra içəri daxil oldu. Sevincin göstərdiyi otağa keçib kresloda əyləşdi. Ev həm çox kiçik, həm də çox baxımsız vəziyyətdə idi. Uzun müddətdir təmir olunmadığı hiss olunurdu. Heç təmizlik baxımından da ürəkaçan vəziyyət

yox idi. Sevinc də Kənanla üzbəüz stul çəkib oturdu. Onun hərəkətlərindən gələn qonaqdan razı olmadığı hiss olunurdu. Heç etika xatirinə çay belə təklif etmədən sözə başladı:

– Sizə nə lazımdır? Xahiş etdiniz deyə sizinlə görüşməyə razı oldum. Amma mənim çox da vaxtım yoxdur. Həm də telefonda da dediyim kimi heç nədən xəbərim yoxdur.

– Sevinc xanım, çox da vaxtınızı almayacam. Sadəcə, bir neçə sual verəcəm sizə. Nurlanla nə zamandan görüşürdünüz?

– Nurlanı təxminən iki ay əvvəl tanımışam. Aradabir görüşüb otururduq. Amma onu kim öldürüb, niyə öldürüb xəbərim yoxdur.

– Bildiyim qədəri ilə siz evlisiniz. Nurlanla görüşməyiniz ailənizdə sizə problem yaratmırdı ki?

– Bu mənim şəxsi məsələmdi. Zənnimcə bu sualın Nurlanın ölümü ilə heç bir əlaqəsi yoxdur.

– Sevinc xanım, əsəbiləşməyinizə ehtiyac yoxdur. Bu, sadəcə, sizin şəxsi fikrinizdir ki, bu sualın Nurlanla heç bir əlaqəsi yoxdur. Xahiş edirəm sualıma cavab verin. Həyat yoldaşınızın Nurlanla görüşməyinizdən xəbəri varıydımı?

– Bilmirəm.

– Sevinc xanım, sizdən artıq dərəcədə xahiş edirəm qatilin tapılmasında köməklik göstərin. Əgər istəyirsinizsə ki, Nurlanın qatili cəzasız qalmasın, onda suallarıma dəqiqliklə cavab verin.

Sevinc bir qədər fikrə getdi. Sanki nə edəcəyini düşünürdü. Dərindən nəfəs alıb birdən sözə başladı:

– Yoldaşımla ailə münasibətlərimiz yox səviyyəsindədir. Evliliyimiz, sadəcə, sənəd üzərindədir. Hər ikimiz sərbəst olaraq həyatımızı yaşayırıq. Həyat yoldaşım Nurlan haqqında fevral ayının sonlarında öyrənmişdi. Lakin buna qarşı sərt bir reaksiya verməmişdi. Sonradan Nurlandan ona zəng etdiyini öyrəndim. Telefonda mübahisə ediblər. Doğrusu, Vaqifdən belə bir reaksiya gözləmirdim. Amma Nurlanın qətli ilə onun hansısa əlaqəsi olacağına inanmıram.

– Vaqifin əvvəllər məhkumluq həyatı olubmu?

– Biz evlənməmişdən əvvəl məhkumluğu olub. Adam öldürdüyünə görə həbs olunubmuş. Sonra amnistiya qərarına əsasən həbsdən azad olunmuşdu.

– Kimi öldürdüyünə görə həbs olunmuşdu?

– Düzü, bu barədə söhbət etməyi xoşlamadığı üçün çox da maraqlanmamışam. Amma bildiyim qədəri ilə keçmiş iş yerində iş yoldaşı ilə mübahisə etdikdən sonra onu bıçaqla vurmuşdu.

– Həyat yoldaşınız hazırda haradadır?

– Biz evləndikdən sonra Vaqif uzun müddət işsiz qalmışdı. Məhkumluğu olduğu üçün heç kim ona iş vermək istəmirdi. Elə bu səbəbdən də aramızda tez-tez mübahisə düşürdü. Bir-birimizdən soyumağa başlamışdıq. Sonradan gəmidə iş tapdı. İndi on beş gün işdə on beş gün evdə olur. Hazırda da işdədir.

– Başa düşdüm. Vaqif təxminən nə qədər vaxta şəhərə qayıdar?

– Səhv etmirəmsə bir-iki günə Bakıda olmalıdır. İndi biz birlikdə yaşamırıq. Boşanmaq istəyirəm.

– Sizdən son bir xahişim daha var. Zəhmət olmasa mənə Vaqifin nömrəsini verərdiz. Bir də əgər onun şəhərə nə vaxt qayıtdığını xəbər alsanız mənimlə əlaqə saxlayarsınız.

– Bilirsiniz, yenə deyirəm. Biz indi ayrı-ayrılıqda yaşayırıq. Ona görə də gəlişindən xəbərim olacağına inanmıram. Amma nömrəsini sizə verə bilərəm. Əgər mən də hər hansı xəbər alsam sizə məlumat verərəm.

Kənan Vaqifin nömrəsini telefonunun yaddaş kitabçasına qeyd etdi. Daha sonra Sevincə bir daha təşəkkürünü bildirib mənzildən çıxdı. Pilləkənlərlə düşüb avtomobilinə doğru getdi. Saat artıq səkkizi ötürdü. Kənan bu gün ərzində heç nahar da etməmişdi. O, evə gedib yemək yeməyə qərar verdi. Şəhərdəki tıxac nisbətən səngisə də hələ də avtomobillərin sıxlığı müşahidə olunurdu. Kənan artıq yaşadığı mənzilə çatmışdı. Qapını Nuridə açdı. Hər zamankı kimi gülərüzlə qarşılayıb mətbəxə qayıtdı. Kənan əllərini yuyub Nuridənin ardınca mətbəxə getdi. Nuridə keçən illər ərzində Kənanın xasiyyətinə yaxşı bələd olduğundan artıq yeməyi hazırlayıb süfrəyə gətirmişdi. Kənan fikirli halda yeməyini yeməyə başladı. Nuridə belə vaxtlarda əlavə suallarla Kənanın diqqətini dağıtmamaq lazım olduğunu yaxşı bilirdi. Kənan yeməyini bitirdikdən sonra kompüter arxasına keçdi. “Altay” MMC və müdiri Altay Nuriyev haqqında araşdırmağa başladı. Müxtəlif saytlardan məlumatlar tapır, maraqlı məlumatları ayrıca yaddaşda saxlayırdı. Gecə saat on birə qədər kompüter arxasında araşdırma

apardıqdan sonra kompüteri söndürdü. İndi Nurlanın cəsədinin fotoşəkillərini əlinə götürüb diqqətlə nəzərdən keçirməyə başlamışdı. Yenə də bu şəkillərdə ona ən maraqlı gələn Nurlanın alnındakı “V” işarəsi idi. Lakin bunun nə məna kəsb etdiyi hələ də müəmmalı olaraq qalırdı. Saat ikiyə qədər topladığı müxtəlif materialları nəzərdən keçirdikdən sonra yatdı.

Ertəsi gün Kənan “Altay” MMC-nin yerləşdiyi binaya yollandı. Bura müasir dizayn verilmiş dəbdəbəli bir bina idi. Kənan Altay Nuriyevlə öz kimliyi ilə söhbət etmək istəmirdi. Dünən gecə o, şirkətə Türkiyədən gəlmiş iş adamı simasında gedəcəyini planlaşdırmışdı. İllərlə Türkiyədə yaşaması türk dilində ləhcəsiz danışmasına yardımçı olurdu. Elə buna görə də bu gün o, özünü Türkiyə vətəndaşı Erdem Kılıç kimi təqdim edəcəkdi. Bu gün o, sadəcə, Altay Nuriyevin şəxsiyyəti ilə bağlı bəzi məqamları aydınlaşdırmaq istəyirdi. Ona törədilmiş cinayət barəsində heç nə deməyəcəkdi. Elə buna görə də öz kimliyini gizlətməyə qərar vermişdi. Binaya daxil olub Altay Nuriyevin otağını soruşdu. Bundan sonra onun otağına yaxınlaşdı və katibəsinə özünü Erdem Kılıç kimi təqdim etdi. Altay Nuriyevə məlumat verildikdən sonra o, Erdem Kılıçı qəbul etdi. Bundan sonra onlar iki saata yaxın söhbət etdilər. Kənan Altay Nuriyevin yanından heç də xoş təəssüratlarla ayrılmamışdı. Bu yekəxana, özündənrazı və pulgir insanla söhbət Kənanın heç də ürəyincə olmamışdı. Kənan söhbət ərzində bu şəxsin pul üçün hər şey edə biləcəyini anlamışdı.

İlk əvvəl aralarındakı söhbətə dırnaqarası yanaşan Altay müəllim Erdem Kılıçın ona təklif etdiyi layihələrdən sonra artıq söhbət tərzini dəyişmişdi. Lakin bu hələ onun cinayətlə əlaqəsinin olması demək deyildi. Binadan ayrıldıqdan sonra o, mobil telefonunu çıxarıb Vaqifin mobil telefonuna zəng etdi. Dünəndən sönülü olan telefona indi zəng çatırdı. Vaqifin boğuq səsi eşidildi:

– Alo.

– Alo. Salam Vaqif müəllim.

– Salam. Kimsən?

– Vaqif müəllim, adım Kənandır. Nurlan Kazımovun qətlini araşdıran detektivəm.

– Nurlan kimdir? Tanımıram mən elə birini.

– Vaqif müəllim xahiş edirəm inkar etməyəsiniz. Sizin Nurlanla söhbətiniz də olub. Yəqin ki, mətbuatda verilən xəbərləri də eşitmisiniz və ölümü barədə də bilirsiniz. Ona görə sizinlə görüşüb sizə bir neçə sual verməliyəm. Xahiş edirəm etiraz etməyəsiniz.

– Nə sənin mənə verə biləcəyin sual var, nə də mənim sənə verə biləcəyim cavab. Bir də narahat etmə məni.

Vaqif sözünü dedikdən sonra dəstəyi asdı. Onun bu kobud danışığı Kənanı hövsələdən çıxarmışdı. Kənan çox əsəbiləşən insan deyildi, lakin bəzən bu cür hallar onu əməllicə əsəbiləşdirirdi. O, yenidən Vaqifin mobil nömrəsinə zəng etdi. Bu dəfə Vaqif telefona, ümumiyyətlə, cavab vermədi. Kənan bir daha zəng etdikdə Vaqifin boğuq səslə qışqırığı eşidildi:

– Sənə demədim mənə zəng etmə bir də? Dedim ki, mən heç nə bilmirəm.

– Mənə bax, Vaqif, səninlə açıq danışacağam. Nurlanla söhbətinin olmasını, onu təhdid etməyini yaxşı bilirəm. Onun arvadınla olan münasibətindən xəbərin var idi və xəbərin olduğunu Nurlana da bildirmişdin. Əgər prokurorluqdan Nurlanın son bir aydakı telefon danışığını araşdırsalar sənin nömrəni də əldə edəcəklər və hadisədə şübhəli bilinən əsas şəxslərdən biri olacaqsan. Əleyhinə olan hallar çoxdur və bunlardan biri də bizim hazırkı telefon danışığımızdır. Sən bu tərzdə prokurorluq əməkdaşları ilə də danışsan onlarda olan şübhələri də dərinləşdirmiş olarsan. Odur ki, əgər Nurlanın ölümündən həqiqətən xəbərin yoxdursa, təqsirli deyilsənsə onda mənimlə görüşüb bütün olanları, bildiklərini danış.

– Mən, mən. Mən heç nə etməmişəm. Heç kimi öldürməmişəm mən. Nurlanla danışığımız, sadəcə, telefonda olub, vəssalam. Daha sonra nə onu görmüşəm, nə də telefonla danışmışam.

– Bütün bunları birlikdə üzbəüz söhbət edək. Bir saatdan sonra səni “Atatürk” parkında gözləyəcəyəm.

– Yaxşı. Çalışaram orda olum.

Kənan telefon danışığını yekunlaşdırdıqdan sonra Nuridəni yığdı. Özünün və uşaqların hal-əhvalını soruşdu. Cinayət işini araşdırmağa başlayandan uşaqları ilə maraqlana bilmirdi. Telefon danışığından sonra Vaqiflə görüşənə qədər evə gedib uşaqları görməyi qərara aldı. Mağazadan uşaqlar üçün şokolad da

alıb evə yollandı. Uşaqlarla bir az danışıb Vaqiflə görüşmək üçün evdən çıxdı. Tam olaraq dediyi vaxtda "Atatürk" parkında oldu. Aradan yarım saat keçməsinə baxmayaraq Vaqifdən hələ də xəbər yox idi. Telefonu çıxarıb Vaqifə zəng etdi, lakin Vaqif telefona cavab vermədən dəstəyi asdı. Kənan artıq Vaqifin gəlməyəcəyini düşünməyə başlamışdı ki, bir nəfərin ona doğru yaxınlaşdığını gördü. Bu adam hündürboy, iri bədən quruluşlu, qarayanız, səliqəsiz geyimli, iyirmi səkkiz otuz yaşlı bir oğlan idi. Həmin adam Kənana yaxınlaşıb:

– Mənimlə telefonda danışan sən idin?

– Hə mən idim. Adım Kənandır. Yəqin ki, sən də Vaqifsən.

– Hə, mənəm. Nə sualın varsa tez ver. Çox vaxtım yoxdur. Getməliyəm.

– Gəl keçib əyləşək. Çox vaxtını almayacağam. Bir neçə sualım var, sadəcə.

– Əyləşməyə ehtiyac yoxdur. Elə burdaca suallarını ver, çıxım gedim.

– Yaxşı. Elə olsun. İlk əvvəl mənə de görüm Nurlanla həyat yoldaşının münasibəti barədə nə vaxt öyrənmisən?

Bu sualdan elə bil Vaqif həm incidi, həm də əsəbiləşdi. Qarayanız sifəti qızarmağa başlamışdı. Elə əsəbi formada da cavab verdi:

– Bunun məsələyə nə aidiyyəti var ki? Hər nə vaxt öyrənmişəmsə öyrənmişəm.

– Əsəbiləşmək lazım deyil. Hər halda aidiyyəti olmasa sual verməzdim. Sən suala cavab ver.

– Təxminən fevral ayının ortalarında. İlk əvvəl çox da fikir vermədim həmin məsələyə. Daha sonra münasibətlərinin davam etdiyini öyrəndikdə əsəbiləşdim. Bizim evliliyimiz hazırda, sadəcə, kağız üzərindədir. Ona görə çox fikir vermək istəmirdim, amma nikahımız formal xarakter daşısa belə, mənimlə boşanmadan kiminləsə görüşməsindən xoşum gəlmədi. Elə buna görə də Nurlanı yığıb xəbərdarlıq elədim.

– Bu barədə Sevinc xanıma nə isə demişdin?

– Yox. Bilirəm ki, desəm də mənə qulaq asan deyil. Elə buna görə də Nurlanla danışıb onu xəbərdar etmək istədim.

– Təkcə xəbərdarlıqla kifayətləndin, yoxsa başqa hərəkətlər də etdin?

– Başqa heç bir hərəkət etməmişəm. Cəmi iki dəfə telefonla danışmışam. Bir az mübahisə olub aramızda. Bundan savayı heç bir şey baş verməyib.

– Mart ayının ikisində axşam saatlarında hardaydın?

– Mən neft şirkətində işləyirəm. Ayın on beş gününü dənizdə, on beş gününü şəhərdə keçirirəm. Həmin vaxt da dənizdə olduğum vaxta düşür.

– Aydındır. Son bir sual. Bildiyim qədəri ilə sənin əvvəllər məhkumluğun olub. Bu nə ilə bağlı olub?

Vaqif yenidən sifətini turşutdu. Görünür, bu sual da onun ürəyincə deyildi. Yenə də bir qədər əsəbi, bir qədər incik tərzdə:

– Məni boş-boş suallarla məşğul edirsiniz. İş yoldaşımla mübahisəm düşmüşdü, ona görə də bıçaqla vurmuşdum.

– Yaxşı-yaxşı. Başa düşdüyüm qədəri ilə sən hələ dənizdən yenicə gəlmisən və on dörd-on beş gün burada olacaqsan. Həmin müddətdə çalış telefonun açıq qalsın. Lazım gəldikdə başqa suallara görə müraciət etməli ola bilərəm.

Vaqif daha heç nə demədən və sağollaşmadan üzünü çevirib gəldiyi istiqamətdə qayıtmağa başladı. Kənan onun arxasınca narazı halda başını yellədi. Sonra o da üzünü çevirib avtomobilinə doğru getdi. Avtomobilə doğru addımlayarkən mobil telefonunu çıxarıb neft şirkətində işləyən köhnə dostlarından birinə zəng etdi. Ona Vaqifin adını və soyadını bildirdi və ondan Vaqifin mart ayının ikisi işdə olub-olmamasını öyrənməsini xahiş etdi. Daha sonra avtomobilinə əyləşib evə doğru yollandı. Şam yeməyini yeyib bir qədər uşaqlarla vaxt keçirdikdən sonra topladığı materialları nəzərdən keçirməyə başladı. Gecə gec saatlara kimi həmin işlərlə məşğul olub daha sonra yatdı.

# VI FƏSİL

Kazımovlar ailəsi uzun müddətdən sonra indi evdə, sadəcə, ailə üzvləri ilə əyləşmişdilər. Bütün qonaqlar dağılışıb getmişdi. Səkinə xanım axşam yeməyi hazırlamışdı. Əslində heç kimin yemək yeməyə iştahası yox idi. Lakin hamı özünü nəsə yeməyə məcbur edirdi. Səkinə xanım yeməyi süfrəyə gətirdi və özü də masa arxasında əyləşdi. Bir-bir bütün ailə üzvlərinin qabına yemək çəkdikdən sonra gözü Nurlanın boş qalmış yerinə sataşdı. Qəhər Səkinə xanımı boğdu, gözləri doldu, lakin ağlamadı. Birtəhər özünü ələ alıb öz qabına da yeməkdən bir az çəkib əyləşdi. Aradabir Kərim atası ilə nəsə danışır, sonra yenə masa arxasında sükut yaranırdı. Kərim yeməkdən sonra Qubaya gedəcəkdi. İş yerindən ezamiyyətə göndərilmişdi. Evdə ürəyi sıxıldığından iş yerindən icazə verilməsinə baxmayaraq işə gedirdi. Ezamiyyəti də müdirdən özü xahiş etmişdi. Qısa müddətlik də olsa Bakıdan uzaqlaşmaq istəyirdi. Yemək yeyilib qurtardıqdan sonra Kərim qalxıb evdəkilərlə sağollaşdı. Səkinə xanım qabda su götürüb Kərimin arxasınca atmaq üçün qapıya doğru getdi. Qurban müəllim də qapıya qədər gəlib Kərimi yola saldı. Səkinə xanım Kərimin arxasınca suyu atıb:

– Sağ-salamat get, bala. Allah üstündə olsun. Ehtiyatlı sür. Çatanda da bizə bir xəbər elə, nigaran qoyma.

– Allaha əmanət olun, ana. Narahat olma, çatan kimi zəng edəcəyəm sənə.

Kərim həyətlərində saxladığı avtomobilinə əyləşdi. Artıq bir neçə dəqiqə sonra avtomobil şəhərin çıxışına doğru irəliləyirdi. Qurban kişi ilə Səkinə xanım da qayıdıb evdə qonaq otağında əyləşdilər. Nailə hər ikisinə çay gətirdi. Çayı süfrəyə qoyduqdan sonra otağına getdi. Telefonunda Nurlanın şəkillərinə baxmağa başlamışdı. Nailə Nurlanı digər qardaşlarından daha çox istəyirdi. Nurlan evin sonbeşiyi olduğu üçün ona qarşı həmişə daha mehriban davranmışdılar. İndi Nurlanın ölümü Nailə üçün də ağır təsir bağışlayırdı. Xasiyyətcə ailənin ən soyuqqanlı fərdi Kamran idi. Bəlkə də o da dərin kədər hissi keçirdirdi. Lakin bunu çox zaman büruzə verməzdi.

Qurban müəllim indi başını aşağı dikmiş Səkinə xanıma tamaşa edirdi. Baxışları Səkinə xanımın üzündə olsa da fikri uzaqlara, çox uzaqlara getmişdi. Səkinə xanımla tanış olduğu, daha doğrusu tanış edildiyi ilk vaxtlara. O, vaxt Qurban universiteti yenicə bitirmişdi. Qurbanın atası Fərman kişinin dostu Tahir bəyin qızından, yəni Səkinə xanımdan xoşu gəlmişdi. Tahir bəygildə olan zaman bu qızın oturuşu, duruşu, ədəb-ərkanı Fərman kişinin ürəyinə yatmışdı. Qurban universiteti bitirdikdən sonra atası onu yanına çağırıb fikrini açıqlamışdı. Qurban ilk əvvəl etiraz etmişdi, başqa sevdiyi qızın olduğunu söyləmişdi. Lakin atası-

nın təkidlərindən sonra fikrini dəyişib Səkinə xanımla nişanlanmağa razılıq vermişdi. Əslində Fərman kişinin Səkinə xanımla bağlı müsbət fikirdə olması onun tərbiyəsindən əlavə Tahir bəyin imkanı ilə də bağlı idi. Doğrudur, Fərman kişinin də imkanı pis deyildi, lakin Tahir bəyin var-dövlətinin yanında ümmanda bir damla kimi qalırdı onun var-dövləti. Elə buna görə də oğlunun Səkinə ilə evlənməsini çox istəyirdi. Qurbanın da fikrini dəyişdirən bu var-dövlət hərisliyi oldu. Atası Qurbana Tahir bəyin var-dövlətindən, ona yaradacağı imkanlardan elə danışdı ki, sonda Səkinə xanımla nişanlanmağa razılıq verdi. Qurban hazırkı şirkətini də Tahir bəyin sayəsində yaratmışdı. Buna baxmayaraq Səkinə xanım nişanlandıqları gündən bəri bir dəfə olsun Qurban müəllimin sözündən çıxmamışdı. Əvvəllər Səkinə xanıma qarşı heç bir şey hiss etməsə belə, sonradan ona qarşı hörmətlə qarışıq sevgi hissi yaranmağa başlamışdı. Universitetin ikinci kursundan bəri könlünü verdiyi Dilarəni isə artıq çoxdan unutmuşdu. Doğrudan, görəsən, indi haradadır Dilarə? Hələ də xatirindədir bu qıza ilk dəfə sevgisini etiraf etdiyi gün. Necə də həyəcanlanmışdı. Az qalırdı ürəyi sinəsindən çıxsın. Lakin Dilarənin verdiyi cavabdan sonra özünə gəlmişdi. İkinci kursdan universiteti bitirənə qədər sevgili olmuşdular. Qurban sonuncu kursda oxuyarkən artıq Dilarə ilə evlənmək barədə düşünürdü. Bunu onun özünə də demişdi. Universiteti bitirdikdən sonra isə atasının ona Səkinədən və onun atasının imkanından danışması Qurbanın

Dilarə haqqındakı fikirlərini tamamilə dəyişmişdi. Qurban onu görüşə çağırıb onunla söhbət etmək istəmişdi. Aralarındakı dialoq olduğu kimi xatirində idi:

– Qurban, mən sənə bir şey demək istəyirəm.

– Elə mən də sənə bir şey deməliyəm, Dilarə. Bizim artıq birlikdə olmağımız mümkün deyil. Atam məni başqa biriylə evləndirmək istəyir. Mən onun sözündən çıxa bilməyəcəm.

– Nə danışırsan, Qurban? Axı biz bir-birimizə söz vermişdik. Universiteti bitirib evlənəcəkdik. Hətta valideynlərim məni sənə verməsələr də mən səninlə qaçmağa razı idim. İndi sən necə belə danışa bilirsən?

– Bilirsən, Dilarə, bizim qurduğumuz, sadəcə, bir xəyal idi. Tutalım ki, biz səninlə qoşulub qaçdıq. Necə dolanacağıq? Harada yaşayacağıq? Atam ondan sonra mənim üzümə baxmaz. Ona görə bəri başdan ayrılsaq yaxşıdı. Sənin də qarşına gələcəkdə məndən də yaxşı qismət çıxar.

– Nə deyirəm, get. İnşallah xoşbəxt olarsan.

Qurban həmin vaxt Dilarənin gözlərinin dolduğunu hiss etmişdi. İşi daha da çətinləşdirməmək üçün Dilarənin yanından qalxıb üzünü çevirib getməyə başladı. On-on beş addım atdıqdan sonra üzünü geri çevirdikdə Dilarənin hönkürtü ilə ağladığını gördü. Bir istədi geri qayıtsın, lakin sonradan fikrindən daşınıb yoluna davam etdi. Səkinəylə evləndiyi ilk vaxtlar fikri hələ də Dilarədə idi. Ancaq aradan keçən zaman Dilarəni tamamilə yaddaşından silmişdi. Onu bu uzaq xəyallardan Səkinə xanımın səsi ayırdı:

– Qurban, çayın soyudu. Bax gör içməli deyilsə təzələyim.

– Yox, yox, narahat olma. Yaxşıdır. İçəcəyəm.

– Qurban, Nurlanın doğulduğu vaxt yadındadır? Artıq dördüncü övladımız olmasına baxmayaraq yenə də necə həyəcanlanmışdıq. Onu ilk dəfə görəndə, ilk dəfə qucağıma alanda keçirdiyim hislər sanki dünəniymiş kimi xatirimdədir.

– Əlbəttə, yadımdadır. Hadisələrdən sonra onunla yaşanılan hər şey elə bil insanın yaddaşında təzələnir. Əvvəllər heç xatırlamadığım şeylər onu itirdikdən sonra anbaan yadıma düşür.

– Allah o biri balalarımıza dəyməsin. Onlara bir şey olsa daha həyatdan əlim üzülər mənim.

– Amin. Sən Allah, bir Kərimi yığ gör haradadır?

Səkinə xanım Kərimin mobil telefonuna zəng etdi. Kərim çox keçmədən telefona cavab verdi:

– Kərim, bala hardasan?

– Siyəzənə yaxınlaşıram, ana. Siz məndən nigaran qalmayın. Mən Siyəzəndə bir az yubanacağam. Ola bilər gec çıxdım oradan. Siz arxayın yatın. Sabah səhər danışarıq.

– Yaxşı, bala. Ehtiyatlı get yenə də.

– Baş üstə, Səkinə xanım.

Səkinə xanım telefon danışığını yekunlaşdırdıqdan sonra Qurban müəllimə Kərimin dedikləri haqda məlumat verdi. Qurban kişi Səkinə xanımın dediklərini dinlədikdən sonra ondan bir stəkan çay verməsini istədi. Səkinə xanım dərhal Qurban müəllimin stəka-

nını götürüb mətbəxə yollandı və isti çayla geri qayıtdı. Qurban müəllim çayını içdikdən sonra yatmağa yollandı. Səkinə xanım boş stəkanı masanın üzərindən götürdü. Qabları yuyub evə əl gəzdirdikdən sonra o, da yatmağa yollandı. Nailə yerinə uzanmışdı, lakin hələ yuxuya getməmişdi. Kamran isə həmişəki kimi kompüter arxasındaydı.

Səhər saat altıya yaxınlaşırdı. Hava yavaş-yavaş işıqlanmağa başlamışdı. Qurban müəllimin mobil telefonunun zəngi səksəkəli şəkildə yuxudan oyanmasına səbəb oldu. Həyəcan içində telefonu götürüb ekranda yazılan nömrəyə baxdı. Nömrə tanış nömrə deyildi. Bu onun daha da həyəcanlanmasına səbəb oldu. Cəld zəngi cavablandırmaq üçün düyməni sıxıb telefonu qulağına tutdu. Telefondan kobud kişi səsi eşidildi:

– Alo, Qurban müəllimdir danışan?

– Bəli mənəm. Kimdir danışan?

– Qurban müəllim, yol patrul xidmətinin əməkdaşıdır sizinlə danışan. Sizin adınıza olan qara rəngli “Nissan” avtomobili Bakı-Quba yolunda qəzaya uğrayıb.

Qurban müəllimin nitqi qurumuşdu. Özündə güc tapıb danışa bilmirdi. Cavabın gəlmədiyini görən polis əməkdaşı davam etdi:

– Alo. Qurban müəllim, eşidirsiniz? Alo.

– Kərim. Kərim necədir? Bir şey olmayıb ona?

– Nə avtomobilin içərisində, nə də ətrafda heç kim yoxdur. Sürücü tərəfdə kiçik qan ləkələri var, lakin ətrafda heç kim yoxdur.

– Necə heç kim yoxdur? Bu necə ola bilər?

– Biz avtomobili qəzaya uğramış vəziyyətdə tapdıq. Avtomobil sizin adınıza olduğu üçün dərhal sizinlə əlaqə saxlamaq qərarına gəldik. Avtomobili kim idarə edirdi?

– Oğlum Kərim. Mən bu saat evdən çıxıb ora gəlirəm.

– Yaxşı, Qurban müəllim.

Səkinə xanımın da ürəyi quş kimi çırpınırdı. Sanki kimsə boğazından yapışıb onu boğurdu. Elə bil nəfəs ala bilmirdi. Həyəcanla Qurban müəllimin telefon danışığının yekunlaşmasını gözləyirdi. Qurban müəllim danışığını yekunlaşdıran kimi Səkinə xanım dərhal qışqırdı:

– Nə olub, ay kişi? Kim idi zəng edən bu vaxt? Kərimin adını niyə çəkdin?

– Səkinə, Kərimin avtomobili Bakı-Quba yolunda qəzaya uğrayıb.

– Nə danışırsan, Qurban? Nə olub Kərimə? Nə olub balama Qurban?

– Sakit ol, yaxşı. Kərimin özü yoxdur orda. Təkcə maşını tapıblar. Özü haradadır hələ bilinmir. İndi çıxıb gedirəm ora.

– Dayan bir Kərimə zəng edək. Görək haradadır.

– Onu yaxşı fikirləşdin. Təlaşdan heç o ağlıma gəlmir.

Qurban müəllim Kərimin nömrəsinə zəng etdi. Telefona cavab verən olmadı. Növbəti dəfə zəng etdi. Bu dəfə zəngə cavab verildi. Qurban müəllim qarşı tərəfin danışmasını gözləmədən:

– Alo. Kərim hardasan? Nə baş verib orda?

– Qurban müəllim, bayaq sizinlə danışan yol patrul xidmətinin əməkdaşıdır. Oğlunuzun telefonu avtomobilin arxa oturacağının qarşısında aşkar edildi.

– Yaxşı, yaxşı aydındır.

Qurban müəllim hirslə telefonu çarpayıya çırpdı. Səkinə xanımın sual dolu baxışlarını görüb ona da məlumat verdi. Hər ikisinin narahatlığı birə-beş artmışdı. Qurban müəllim tələsik əynini geyinib evdən çıxdı. Səkinə xanım arxasınca qışqırıb ona da bir xəbər etməsini tapşırdı. Qurban müəllim avtomobilinə əyləşib mühərriki işə saldı və elə dərhal da burulub həyətdən çıxdı. Yolda Kənanın mobil telefonuna zəng vurdu. Zəngə cavab verilməsi bir qədər yubandı. Sonra Kənanın yuxulu səsi eşidildi:

– Bəli Qurban müəllim. Eşidirəm sizi.

– Kənan Kərimin avtomobili Bakı-Quba yolunda qəzaya uğrayıb. Mən indi yoldayam. Hadisə yerinə getmək istəyirəm. İstərdim sən də mənimlə gələsən.

– Əlbəttə, Qurban müəllim, əlbəttə. Evdəyəm. Siz bizim evə doğru gəlin mən də tez hazırlaşıb çıxıram.

– Beş, ya on dəqiqəyə orada olaram.

Qurban müəllim Kənandan cavab gəlməsini gözləmədən telefonu qapadı. Bundan sonra o, dostu Faiqə də zəng vurub hadisə barədə məlumat verdi. Faiq də hadisə yerinə gələcəyini bildirdi. Qısa bir müddətdən sonra Qurban müəllim artıq Kənangilin məhəllələrinə çatmışdı. Kənan onu həyətdə gözləyirdi. Qurban müəllimi görən kimi dərhal avtomobilə əyləşdi və yola

düşdülər. Yolda Kənan Qurban müəllimin vəziyyətinin özündə olmadığını görüb sükan arxasına o keçdi. Avtomobili mümkün qədər sürətlə idarə edib hadisə yerinə çatdılar. Bura xeyli adam toplaşmışdı. Ətrafda polis əməkdaşları da var idi. Qurban kişi hövlnak Kərimin avtomobilinin yanına qaçdı. Maşın yol kənarındakı iri ağaca çırpılmışdı. Avtomobildəki xəsarət o qədər də güclü deyildi. O, avtomobilin içinə baxmaq istəyərkən Faiq müəllim də hadisə yerinə çatdı. O, da tələsik Qurban müəllimin yanına yüyürüb avtomobilə baxdı. Birlikdə avtomobilin içərisinə baxarkən kiçik qan izlərinə rast gəldilər. Amma bu qan izləri çox cüzi idi. Avtomobilin ümumi vəziyyətinin qənaətbəxş olması və qan izlərinin azlığı Qurban müəllimi nisbətən sakitləşdirirdi. Kənan artıq hadisə yerini diqqətlə nəzərdən keçirməyə başlamışdı. Yolda olan təkərin tormoz izlərini incələyirdi. Burada nəsə qəribəlik hiss etmişdi sanki. Yolda olan izlərə təkrar-təkrar nəzər yetirirdi. Daha sonra avtomobilin yanına yaxınlaşdı. Lakin digərlərindən fərqli olaraq ilk növbədə sükana tərəf deyil, avtomobilin arxasına yaxınlaşdı. Əyilib avtomobilin sol arxa tərəfinə diqqətlə baxdı. Sonra sükanın üzərindəki izlərə diqqət yetirdi. Daha sonra kənara çəkilib sakitcə dayandı. Artıq hadisə barədə nəsə təsəvvürləri formalaşmağa başlamışdı. İndi o, çox narahat görsənirdi. Fikirləşdikləri barədə Qurban müəllimə məlumat vermək istəmirdi. Qurban müəllim yaxınlaşıb Kənanla söhbətə başladı:

– Nə fikirləşirsən hadisə barədə?

– Hadisə zamanı əgər Kərim avtomobildəymişsə də ağır xəsarət almayıb.

– Necə yəni avtomobildəymişsə? Fikirləşirsən ki, avtomobildə olmaya bilər?

– Yox, mən elə bir şey demədim. Sadəcə, hələ ki, onun harada olmasını dəqiq bilmirik. Siz Kərimlə əlaqə saxlaya bilmədiniz?

– Mobil telefonu avtomobilin içərisində aşkar olunub. Xəbər alandan sonra dərhal onun nömrəsinə zəng etdim, buradakı polis əməkdaşlarından biri cavab verdi telefona.

Elə bu vaxt bir polis mayoru onlara yaxınlaşdı:

– Qurban müəllim sizsiniz?

– Bəli, mənəm.

– Qurban müəllim, avtomobili idarə edənin kimliyi barədə məlumatınız yoxdur?

– Bu mənim oğlumun avtomobilidir. Kazımov Kərim Qurban oğlu.

– Dünən də avtomobili idarə edən o idi?

– Dünən axşam işlə əlaqədar Qubaya getmək üçün evdən çıxmışdı. Daha sonrası haqqında bir məlumatım yoxdur. Sizin onun harada olması haqqında bir məlumatınız yoxdur?

– Bizim əməkdaşlar avtomobili gördüklərində onun içərisində heç kim olmayıb. İndi xəstəxanalardan məlumat almağa çalışacağıq görək elə bir şəxs daxil olubmu. Sizin də hər hansı məlumatınız olsa bizə mütləq xəbər verin.

Daha sonra polis mayoru yanlarından uzaqlaşdı. Qurban müəllim də Faiqlə söhbət etməyə başlamış-

dı. Kənan onların yanından uzaqlaşıb polis mayoruna yaxınlaşdı. Özünün kim olduğunu ona bildirdi. Daha sonra onunla söhbətə başladı:

– Avtomobilin qəza törətməsində zənnimcə başqa hallar da mövcuddur. Siz yoldakı tormoz izlərinə diqqət yetirin. Orda ikinci bir nəqliyyat vasitəsi də olub. Həm də eyni istiqamətdə hərəkət edirmiş. Fikrimcə, qəzaya səbəb həmin avtomobil olub. Ola bilsin bunu qəsdən törətmiş olsun. Kərimin avtomobilinin sol arxa tərəfində mavi boya izləri var. Siz yolda olan kameralardan həm Kərimin avtomobilinə, həm də mavi rəngli şübhəli bir avtomobilin olub-olmamasına baxın. Əgər nə isə aşkar etsəniz mənə də bir məlumat verin zəhmət olmasa. Bir də ki, bu məsələdən hələ ki, Qurban müəllimin xəbəri olmasın. Əgər xəbəri olsa çox narahat olacaq. Ona görə dəqiq bir şey öyrənənə kimi heç bir şey deməsək yaxşıdır. Buyurun bu da mənim əlaqə telefonum.

Kənan nömrəsinin yazılı olduğu vərəqi polis mayoruna uzatdı. Polis mayoru hər hansı bir xəbər alarsa Kənana məlumat verəcəyinə söz verdi. Kənan polis mayoru ilə sağollaşıb yenidən Qurban müəllimgilin yanına qayıtdı:

– Qurban müəllim, daha burda durmağın heç bir mənası yoxdur. Gəlin qayıdaq şəhərə. Polis əməkdaşları burda nə lazımdırsa edəcəklər. Bir dəyişiklik olarsa bizə bildirəcəklər. Lazım olarsa yenə qayıdarıq bura.

– Kənan, birdən Kərim yaxınlıqda bir xəstəxanada olar. Ya da nə bilim özü harasa getmiş olar. Mən hələ-

lik Faiqlə birlikdə burada qalacam. Sən mənim avtomobilimi götürüb şəhərə qayıda bilərsən. Mən daha sonra səndən götürərəm avtomobili.

– Siz necə istəyirsiniz. Onda mən şəhərə qayıdım. Mənə bir ehtiyac hiss etsəniz mütləq xəbər edin.

– Yaxşı yol sənə. Amma heç demədin bu işdən ağlın nə kəsir?

– Hələlik elə bir şey demək mümkün deyil, Qurban müəllim.

– Yaxşı onda salamat get.

– Xudahafiz.

Kənan Qurban müəllimin avtomobilinə əyləşib şəhərə doğru yola düşdü. O, çox narahat idi. Bu tormoz izləri, avtomobilin arxasındakı boya izləri, sükandakı kiçik qan izləri çox narahat edirdi onu. Bu qan izlərindən göründüyü qədəri ilə Kərimin huşu itə bilməzdi. O, çox rahatlıqla avtomobildən uzaqlaşa, yardım çağıra bilərdi. Yaxud da ailəsinə xəbər verə bilərdi. Lakin onun mobil telefonu da maşının arxa oturacağından tapılmışdı. Bəs telefonu niyə məhz arxa oturacaqdaydı? Əgər Nurlanın başına gələnlər olmasaydı Kənan bu qədər narahatlıq keçirməzdi. Elə olan təqdirdə elə fikirləşərdi ki, başqa bir avtomobil idarə etməni itirdiyindən Kərimlə toqquşub, Kərimin avtomobili yoldan çıxaraq ağaca çırpılıb və kiçik zədə alıb. Həmin o mavi rəngli avtomobil də Kərimə yardım göstərib və onu xəstəxanaya aparıb. Kərim də gecə gec saatlar olduğu üçün ailəsinə xəbər etmək istəməyib. Amma Kənanın həm daxili inamı,

həm də məntiqi hadisənin heç də belə baş vermədiyini söyləyirdi. Hal-hazıradək Kərimdən heç bir xəbər olmaması da bir daha təsdiq edirdi onun bu fikirlərini. Hər bir halda polisin kamera görüntüləri çox şeyi dəqiqləşdirməyə yardım edəcəkdi. Amma Kənan artıq Kərimin avtomobil qəzası haqqında deyil Nurlanın qətli haqqında düşünmək istəyirdi. Bu fikirlərlə artıq Bakıya daxil olmuşdu. Qurban müəllimin avtomobilini evlərinə aparıb açarı Səkinə xanıma təhvil verdi. Onun suallarından yayınıb evdən çıxdı. Bir taksiyə əyləşib öz mənzilinə qayıtdı. Evə daxil olub Nuridədən bir stəkan çay istədi. Özü isə keçib divanda uzandı. Elə bu dəm neft şirkətində işləyən dostundan zəng gəldi. Kənan dərhal telefona cavab verdi:

– Alo.

– Alo. Kənan, salam. Sənin dediyini öyrəndim. Vaqif mart ayının nə ikisində nə də üçündə işdə olmayıb. Əslində dənizdə olmalı olduğu halda işdən icazə alıb. Ayın ikisi bütünlüklə işdə olmayıb üçü isə axşam saatlarında qayıdıb.

– Çox sağ ol, qardaş. Allahköməyin olsun. Minnətdaram sənə.

– Dəyməz. Elə bir çətin iş deyildi.

– Bir daha çox sağ ol. Xudahafiz.

Telefon daşığını yekunlaşdırdıqdan sonra Nuridə çayı gətirib masanın üzərinə qoyub Kənanı çayı içməyə çağırdı. Kənan sanki Nuridənin səsini eşitmirdi. Nuridə bir daha səslədikdən sonra Kənan sanki yuxudan ayıldı. Dalğın-dalğın durub masaya yaxınlaşdı və

stul çəkib əyləşdi. İndi vəziyyət getdikcə qarışırdı. Nurlanın məşuqəsi varıymış və bu məşuqə evliymiş. Həmin məşuqənin əri adam öldürmə cinayətindən keçmiş məhkumdur və həmin insan Nurlanın itdiyi gün işdən icazə alıb şəhərə qayıdıbmış. Bundan əlavə, Kərim müəmmalı şəkildə avtomobil qəzasına düşür və harada olması bilinmir. Qurban müəllimin rəqibi var və bu şəxs pul üçün hər şeyi etməyə hazır olan insan təəssüratı oyadır. Bütün bunlar vəziyyəti getdikcə qəlizləşdirir. Kənan indi nə edəcəyini düşünürdü. İlk növbədə yenidən Vaqiflə danışmaq qərarına gəlir. Ondan işdən nə səbəbə icazə aldığını və bu müddətdə harada olmasını öyrənəcəkdi. Vaqifin telefonuna zəng vurdu. Vaqif bu dəfə telefona daha sakit tərzdə cavab verir:

– Alo. Hə, Kənan. Eşidirəm.

– Vaqif sən hardasan?

– Evdəyəm. Yenə nə olub? Qurtarmadı sualların?

– Bu dəfə səninlə başqa bir şeyi dəqiqləşdirməliyik. Keçən dəfə görüşdüyümüz yerə gəl.

– Sən məni bezdirmisən daha. Öldürüblər cəhənnəmə öldürüblər, gora öldürüblər. Daha məndən nə istəyirsən? Mən işimi-gücümü atıb düşməliyəm ortalığa ki, görən Nurlanı kim öldürüb?

– Gəlməməyin sənin xeyrinə yox, sadəcə, ziyanına ola bilər. Gözləyirəm. Yarım saat sonra orda ol.

– Bu dəfə də gələcəyəm. Amma bax bu sonuncu dəfədir. Bir də heç hara gələn deyiləm.

– Yarım saat sonra orda ol. Çalış gecikməyəsən.

Kənan dəstəyi asdıqdan sonra çayını içməyə başladı. Uşaqlar qaçaraq atalarına tərəf gəldilər. Yağmur atasının qucağına tullanıb boynunu qucaqladı. Kənan nə qədər fikirli olursa olsun, uşaqları gördükdə özündən asılı olmayaraq üzündə təbəssüm yaranırdı. Uşaqlarla bir az zarafatlaşıb çayını içdi. Sonra hazırlaşıb evdən çıxdı. Yolda Qurban müəllimə zəng etdi:

– Qurban müəllim, necədir vəziyyət? Nəsə bir yenilik var?

– Yox Kənan, heç bir yenilik yoxdur. Ətrafdakı xəstəxanalara da Kərim adında heç kim müraciət etməyib. İndi avtomobil evakuasiya olunur. Biz də bəlkə bir azdan şəhərə qayıtdıq.

– Mənə bir ehtiyacınız yoxdur ki?

– Yox-yox. Sən işlərini gör. Burda heç bir ehtiyac yoxdur.

– Oldu onda. Hələlik.

On beş dəqiqə sonra artıq parkda Vaqiflə görüşmüşdülər. Vaqif yenə də bura gəlməkdən narazı görsənirdi. İstəksiz də olsa Kənanla əl verib görüşdü. Kənan çox keçmədən sözə başladı:

– Vaqif, mart ayının ikisində harada idin?

– Mən sənə keçən dəfə dedim ki, həmin tarix mənim dənizdə olduğum vaxta düşür.

– Orasını başa düşdüm. Amma sən çalış dəqiq yadına salasan mart ayının ikisində harada olduğunu.

– Eyni sualı niyə təkrar-təkrar verirsən? Bir dəfə dedin, dedim dənizdəydim. Qurtardı getdi. Başqa da heç nə bilmirəm.

– Vaqif, sən mart ayının nə ikisində, nə də üçündə işdə olmamısan. Dənizə yalnız ayın üçü axşam qayıtmısan. Ona görə indi mənə niyə yalan danışdığını, həmin gün harada olmağını açıqla.

Vaqif bu sözdən sonra tutuldu. Sözlər boğazında düyünləndi sanki. Bir qədər özünü toplayıb yenidən inkar etmək qərarına gəldi:

– Bu, sadəcə, uydurmadır. Mən həmin gün işdə olmuşam.

– Vaqif, bəsdir mənimlə oyun oynadın. Sənə işdə olmadığını çox asanlıqla sübut edə bilərəm. Ona görə məni əziyyətə salmadan həqiqətləri danış.

– Mən sənə deyirəm ki, həmin vaxt işdə olmuşam. Tutalım da ki, heç işdə olmamışam. Nə olacaq? Nə dəyişəcək?

– Əslində çox şey kökündən dəyişə bilər. Mən dəqiq bilirəm ki, sən işdə olmamısan və icazə alıb şəhərə qayıtmısan. İndi sən mənə niyə qayıtdığını, nə səbəbə işdən icazə aldığını deməlisən. Yoxsa mən fikirləşəcəm ki, sən planlı surətdə işdən icazə alıb şəhərə gəlmisən və gecə imkan tapıb Nurlanı qətlə yetirmisən. Daha sonra bir gün daha şəhərdə qalıb cinayətin izini itirmisən. Daha sonra isə dənizə qayıdıb özünə alibi qazanmaq istəmisən.

– Yenə də cəfəngiyat uydurursan özündən. Mən heç kimi öldürməmişəm. Mən, ümumiyyətlə, Nurlanı görməmişəm. Onunla cəmi iki dəfə telefonla danışmışam.

– Onda şəhərə niyə qayıdırdın?

– Keçən dəfə özün də dedin ki, mən əvvəllər məhkum olunmuşam. Cəzaçəkmə müəssisəsində mənim ciyərlərimə möhkəm soyuq dəymişdi. İndi də onun fəsadları qalır. Dənizdə olarkən vəziyyətim pisləşmişdi. Möhkəm öskürürdüm. Buna görə də şəhərə qayıdıb həkimə getdim. Müayinə olundum. Sonra da bir gün evdə istirahət edib səhəri gün işə qayıtdım.

– Hansı xəstəxanada müayinə olundun?

– "Berlin" klinikasında. İstəsəniz araşdıra bilərsiniz. Qeydiyyat şöbəsində məni qeydiyyatdan keçirmişdilər.

– Yəqin ki, gündüz saatlarında keçmisən müayinədən. Bəs gecə haradaydın?

– Dedim axı evdəydim, istirahət edirdim.

– Səndən savayı kim var idi evdə?

– Heç kim. Biz Sevinclə son zamanlar ayrı-ayrılıqda yaşayırıq. Mən də tək qalıram. Kirayədə.

– Sən hələ də hadisədəki əsas şübhəlisən.

– Bəsdir daha. Mənim canımı boğazıma yığma. Hər kefin istəyəndə zəng vurub çağırırsan. Gic-gic mənasız suallar verirsən. Səsimi çıxarmıram deyə həddini aşırsan. Mən sənə niyə cavab verməliyəm, ümumiyyətlə? Bir də məni narahat eləmə.

Vaqif hirslə əllərini bir-birinə vurdu. Üzünü çevirib çıxıb getdi. Kənanın bu insandan heç xoşu gəlmirdi. Heç xoş təəssürat bağışlamırdı ona. Danışdıqlarını tam olaraq alibi adlandırmaq olmaz. Lakin həqiqətən həmin klinikada qeydiyyatdan keçibsə bu onun şəhərə qayıtmasına haqq qazandıra bilər. Doğ-

rudur, bu sırf alibi qazanmaq üçün qəsdən atılmış addım da ola bilər. Lakin hər halda Vaqifi hərtərəfli araşdırmaq lazımdı. Onun keçmiş cinayət işini tapıb onunla da tanış olmaq yaxşı olardı. Kənan bu barədə kömək üçün Qurban müəllimə müraciət etdi. Lakin ondan həm də xahiş etdi ki, hazırkı cinayət işinə baxan prokurorluq əməkdaşlarından kömək istəməsin. Onların bu məsələdən xəbərdar olmasını istəmirdi. Qurban müəllim tezliklə köməklik göstərəcəyinə söz verdi. Kənan Nurlanın alnındakı "V" işarəsini xatırladı. Yəni bu doğurdan da Vaqifin adının baş hərfi ola bilərdimi? Bəs Vaqif niyə belə bir şeyə əl atmış olsun? Bu heç inandırıcı görsənmirdi. Amma Kənan həyatı boyu belə qeyri-adilikləri çox görmüşdü. Bəzən qatillər özlərindən sonra imza qoymağı sevirdilər. Hətta onların bəziləri bundan zövq belə alırdılar. Vaqif də ümumi olaraq xoş təəssürat oyadan insan olmadığından Kənan bu ehtimalı da mümkün hesab edirdi. Kənan bu "V" işarəsi üçün başqa alternativ variantlar da fikirləşirdi. Bunlardan biri də "Victory" 1 yəni qələbə işarəsi olması ehtimalı idi. Qatil bununla zəfər çaldığını göstərmiş ola bilərdi. Kənan təcrübəsində belə bir halla rastlaşmışdı. Qatil intiqam almaq üçün öldürdüyü şəxsin kürəyində böyük formada çəkmişdi bu işarəni. Bununla qələbə qazandığını göstərmək istəmişdi. Hələlik ən ağıla batan ehtimal da elə bu idi. Qatilin adının baş hərfi olması ehtimalı bir az absurd görsənirdi. Amma qatillərin əksəriyyəti sağlam düşüncəyə sahib olmayan insanlar olur. Elə

buna görə də absurd görünən şeylər onlar tərəfindən törədilə bilər.

Çox keçmədən Qurban müəllim Kənana zəng etdi. Ona bir mobil nömrə verib həmin şəxslə əlaqə saxlamasını istədi. Bu şəxs ona Vaqifin köhnə cinayət işi ilə tanış olmaq imkanı yaradacaqdı. Kənan nömrəni özündə qeyd etdi və Qurban müəllimlə danışığı yekunlaşdıran kimi həmin nömrəyə zəng etdi. Görünür, həmin şəxs belə bir zəngi gözləyirdi. Kənanla köhnə dostlar kimi danışdı. Danışığından səmimi insana bənzəyirdi. Həmin şəxs Kənanı öz idarələrinə dəvət etdi. Artıq həmin cinayət işini tapmışdılar. Kənan cinayət işi ilə tanış olmaq üçün sövdələşdikləri yerə yollandı. Telefonda danışdığı şəxs onu burada da çox səmimi qarşıladı. Kənana göstərdiyi hörmətdən hiss olunurdu ki, Qurban müəllimlə araları yaxşıdır. Kənan cinayət işini vərəqləməyə başladı. Ona əsas maraqlı olan cinayətin törədilmə səbəbi idi. Bilmək istəyirdi ki, həqiqətən hadisə Vaqifin danışdığı kimi olub, yoxsa yox. Bu onun şəxsiyyəti barədə fikrin formalaşmasına kömək edəcəkdi. Lakin burada əlavə heç bir şey tapa bilməmişdi. Hadisə elə Vaqifin danışdığı kimi olmuşdu. İş yoldaşı ilə aralarında mübahisə düşmüş, Vaqif isə bundan sonra əsəbiləşərək yemək stolunda olan bıçaqla onun qarnından vurmuşdu. İş yoldaşı xəstəxanada vəfat etmişdi.

Kənan bundan sonra cinayət işini ona tapan şəxsdən daha bir şey xahiş etdi. Ondan "Berlin" klinikasına zəng edib oradan mart ayının ikisində Vaqif

adlı şəxsin orada qeydiyyatdan keçib-keçməməsini öyrənməsini istədi. İnternetdən həmin klinikanın əlaqə telefonunu tapıb zəng etdilər. Klinika əvvəlcə öz xəstələri haqqında məlumat verməkdən imtina etsə də həmin şəxs özünü təqdim etdikdən sonra məlumatı verməyə razılıq verdilər. Sistemdə qısa bir axtarış sonrası həqiqətən də belə bir şəxsin həmin gün gəldiyini söylədilər. Kənan ona bu qədər köməklik göstərən şəxsə minnətdarlığını bildirib oradan çıxdı. Artıq hava qaralmışdı. Özünü çox yorğun hiss edirdi. Səhər yuxudan ayılandan rahat otura bilməmişdi. Yenə də nahar edə bilməmişdi. Odur ki, evə getməyi qərara aldı. Evə çatdıqdan sonra yenidən Qurban müəllimə zəng etdi:

– Qurban müəllim, nə xəbər var?

– Hələ heç bir xəbər yoxdur, Kənan. Kərim haradadır, hələ də bilinmir. Çox narahatam. Yoldaşımın vəziyyəti, ümumiyyətlə, pisdir.

– Darıxmayın. O qəzadan Kərim ağır bir xəsarət almış ola bilməz.

– Bəs haradadır bu vaxta kimi, Kənan? Niyə bir xəbər vermir bizə?

– Kərim ortaya çıxanda özündən soruşarıq bunu.

Telefon danışıqlarını yekunlaşdırdılar. Kənan bəzi məqamları Qurban müəllimdən gizlətməklə düzgün addım atdığını bir daha başa düşdü. Yoldakı tormoz izlərindən, avtomobilin üzərindəki izlərdən xəbəri olsaydı onda, ümumiyyətlə, özünə yer tapa bilməzdi. Kənan birdən polis mayorundan kameradan çıxan

görüntülər haqqında soruşmağı xatırladı. İndiyə qədər çoxdan baxmış olmalı idilər. Yaxşı ki, öz telefon nömrəsini verərkən onun da nömrəsini götürmüşdü. O, polis mayoruna zəng vurdu:

– Alo. Bəli?

– Yoldaş mayor, Kənandır. Qəzaya uğrayan qara "Nissan"ın yanında görüşmüşdük.

– Hə, tanıdım, tanıdım.

– Siz kamera görüntülərinə baxdınız? Bir şey çıxmadı?

– Sizə xəbər vermək tamamilə yadımdan çıxıb. Üzrlü hesab edin. Bəli baxmışıq. Həqiqətən də həmin saatlarda mavi rəngli bir "Toyota" o istiqamətdə hərəkət edib. Hadisənin olduğu ərazidə kamera yoxdur. Lakin daha əvvəl bir neçə dəqiqə fərqlə eyni yerlərdən keçmişlər.

– Həmin avtomobil hansı nömrədə idi? Sahibini öyrənə bilməmisiniz?

– Maraqlı məqamlardan biri də budur ki, avtomobilin üzərində nömrə olmayıb. Gecə qaranlığında sürücünün də üzü seçilmir. Hadisənin qəsdən törədilməsi ehtimalı güclənir.

– Bəs daha sonra həmin avtomobil hara yox olub? Görən olmayıb?

– Hadisə yerindən sonra daha iki kamerada görüntüləri var, amma daha sonra heç harda görsənmir.

– Yaxşı. Çox xahiş edirəm nə yenilik öyrənsəniz mənə xəbər verin.

– Narahat olmayın, Kənan müəllim. Sizdən sonra Qurban müəllim də olan yeniliklər barədə sizə xəbər

verməyimi xahiş etdi. Sadəcə, başımız o qədər qarışmışdı ki, sizə xəbər verməyi tamamilə unutmuşam.

– Başa düşürəm sizi. Allah köməyiniz olsun. Gecəniz xeyrə.

– Gecəniz xeyrə!

Kənanın narahat olduğu şeylər deyəsən gerçəkləşirdi. Kim idi bəs bu mavi "Toyota"nın sahibi? Niyə görə Kərimi qəzaya uğratmaq istəmişdi? Onun Nurlanın qətli ilə əlaqəsi varıydımı? Daha doğrusu, Nurlanın qatili ilə həmin avtomobilin sahibi eyni adamdırmı? Bu suallar Kənanı hədsiz dərəcədə narahat edirdi. Hadisələrin axarı getdikcə mürəkkəbləşirdi. Kənan işi araşdırmağa sabah davam etməyi qərara aldı və yatmağa yollandı. Amma fikirləri beynindən qova bilmirdi. Yerinə uzanmasına baxmayaraq gecə gec saatlara kimi yuxuya gedə bilmədi. Səhərə yaxın ancaq yuxuya gedə bildi. Səhər tezdən səkkizdə zəngli saatın səsi onu yuxudan oyatdı. Yerindən qalxıb polis idarəsinə getməyi və həmin o avtomobilin videogörüntülərinə baxmağı planlaşdırmışdı. Nuridə də zəngli saatın səsinə oyandı. Kənanın harasa gedəcəyini başa düşüb cəld səhər yeməyi hazırlamağa yollandı. Kənan əl-üzünü yuyub mətbəxə keçdi. Süfrə artıq hazır idi. Çay da dəmlənmək üzrəydi. Kənan oturub çayın gəlməsini gözləyirdi. Nuridə Kənanı fikirli görüb bir az söhbətləşmək istədi:

– Necə gedir işlərin? Bir şey tapa bilmisən?

– Yox hələ.

– Ürəyini sıxma. Sən indiyə qədər hansı cinayət

işini aça bilməmisən ki, bunu aça bilməyəsən. Bunun da öhdəsindən gələcəksən.

– Narahatlığıma başqa səbəblər var, Nuridə. İnşallah, fikirləşdiyim şeylər başımıza gəlməz.

– Sən Allah, özünlə bağlı bir problem yoxdur ki? Özünü təhlükəyə atacaq heç nə etmirsən?

– Yox, ay Nuridə. Narahat olma. Mənlik bir şey yoxdur. Başqa məsələlərdi.

Nuridə çayı süzüb gətirdi. Kənan tələsik çayı içib evdən çıxdı. Avtomobilinə əyləşib polis mayoruna zəng vurmaq üçün telefonu götürdü. Elə bu dəm tanımadığı bir nömrədən zəng gəldi. Bir an nömrəni xatırlamağa çalışıb tanımadığına əmin olandan sonra telefona cavab vermək qərarına gəldi:

– Alo.

– Alo, Kənan müəllim, salam. Sizinlə danışan Rauf Eyvazovun köməkçisi Şamildir.

– Buyur, Şamil, eşidirəm səni.

– Kənan müəllim Rauf müəllim mənə tapşırdı ki, sizə zəng edib Kərim Kazımovun öldürülməsi ilə bağlı məlumat verim.

– Necə? Kərim Kazımov öldürülüb?

– Bəli. Nurlan Kazımovun qətlində olduğu kimi onun da cəsədi hissələrə parçalanıb və şəhərin müxtəlif yerlərindən aşkar edilib.

– Meyiti hazırda haradadır?

– Morqa aparılıb. Hazırda Rauf müəllim də Qurban müəllim də ordadırlar.

– Yaxşı. Çox sağ ol xəbər verdiyin üçün.

– Dəyməz, Kənan müəllim.

Kənanın qorxduğu hadisə gerçəkləşmişdi. Kənan sanki dünəndən bunun baş verəcəyini gözləyirdi. İndi təcili olaraq morqa getməliydi. Ləngimədən yola düşdü. Çox keçmədən morqun qapısına çatmışdı. Qapıdakı polis işçisi onu içəri buraxmaq istəmirdi. Rauf müəllim səs-küyə qapıya gəldi və Kənanı qapıda gördü. Onunla görüşüb içəri keçməsinə imkan yaratdı. Morqa doğru gedərkən yolda söhbət etməyə başladılar:

– Necə olub, Rauf müəllim? Haradan tapıblar cəsədi?

– Yenə də Nurlan Kazımovda olduğu kimi səhər-səhər şəhərin müxtəlif yerlərindən aşkar ediblər cəsədin hissələrini. Bu cəsəd də altı hissəyə parçalanıb. Qurban müəllim içəridədir. Vəziyyəti heç də yaxşı deyil. Artıq ikinci övladı belə amansız formada qətlə yetirilir.

– Əlbəttə, çox çətindir onun üçün. Bir şeyi dəqiqləşdirim, meyit Bakı şəhərində aşkar olunub?

– Bəli. Bakıda aşkar olunub.

– Kərimin Bakıya necə gəlməsi ilə bağlı bir məlumat yoxdur?

– Yox, o barədə heç bir məlumat yoxdur. Sadəcə, meyit hissələrinin tapılması ilə bağlı müxtəlif zənglər daxil olub. Gedib hissələri aşkar edib gətiriblər. Əlavə heç bir məlumat yoxdur.

– Necə fikirləşirsiniz, sizcə, meyit hissələrinin şəhərin müxtəlif hissələrinə paylanmasında məqsəd

nədir? Həm də bu hissələri heç də gizli yerlərdə deyil, əhalinin sıx olduğu, asanlıqla aşkar oluna bilən yerlərə qoyurlar.

– Dediyiniz məqam mənim diqqətimi Nurlanın cinayət hadisəsində də çəkmişdi. İndi Kərimdə də eyni qaydanın tətbiq edilməsi daha da maraqlıdır. Ümumiyyətlə, qatil qeyri-adi tərzdə fəaliyyət göstərir. Onun cinayəti törətməsi də, cinayətin izlərini yox etməsi də qəribə formadadır. Sanki heç kimdən çəkinmədən meydan oxuyur.

Qapını açıb morqa daxil oldular. Qurban kişi Kərimin cəsədini qucaqlamışdı. Ağlamaqdan halı qalmamışdı. Faiq müəllim də Qurban müəllimin yanında idi. Onu sakitləşdirməyə çalışırdı. Amma Qurban müəllim heç cür özünə gələ bilmirdi. Onun vəziyyəti pisləşdi. Köynəyinin düymələrini açıb üzünə su vurmağa başladılar. Kənan da yüyürüb Qurban müəllimə kömək etməyə çalışdı. Qurban müəllim əli ilə ürəyini tutub uzanmışdı. Təcili yardıma zəng vurdular. Morqdakı işçilərdən biri cəld ağrıkəsici dərman gətirdi. Dərmanı Qurban müəllimə içirtdilər. Çox keçmədən təcili yardım avtomobili gəlib Qurban müəllimi xəstəxanaya apardı. Kənan da onların dalınca xəstəxanaya sürdü. Xəstəxanaya çatdıqda Qurban müəllimin infarkt keçirtdiyini öyrəndi. Kənan xəstəxanaya çatana qədər artıq onu əməliyyat otağına keçirtmişdilər. Kənan vəziyyət barədə Qurban müəllimin ailəsinə xəbər vermək istəyirdi. Lakin Qurban müəllimdən savayı ailədən heç kimin nömrəsini bil-

mirdi. Qeydiyyat şöbəsinə yaxınlaşıb onlardan Kazımov Qurbanın üzərində olan mobil telefonu istədi. Qeydiyyat şöbəsində əyləşən yaşlı tibb bacısı telefonu tanımadığı bu şəxsə verməkdən imtina etdi. Belə olanda Kənan onlardan xahiş etdi ki, həmin mobil telefonun yaddaş kitabçasından Kamranın və yaxud Səkinə xanımın nömrəsini tapıb zəng etsinlər və Qurban müəllim haqqında məlumat versinlər. Yaşlı tibb bacısı belə işləri heç də xoşlmadığından əsəbi halda telefonu gətirib Kənana uzatdı. Kənan telefonu tibb bacısından alıb yaddaş kitabçasına daxil oldu. Buradan Kamranın nömrəsini tapıb zəng etdi. Zəngə cavab verilənə qədər Kənan olanları necə izah edəcəyi barədə düşünürdü. Görəsən, Kərimin ölümündən xəbərləri varıydımı? Əgər bilmirdilərsə həm Kərimin ölümünü, həm də Qurban müəllimin infarkt keçirməsi xəbərini çatdırmalıydı. Bu da kifayət qədər çətin bir vəzifəydi. Kənan bu fikirlərə qərq olmuşkən telefondan Kamranın səsini eşitdi:

– Ata. Ata qurban olum sənə de ki, o oğlan qardaşım deyilmiş. De ki, Kərim sağdır.

– Alo. Kamran, sakit ol. Mənəm, Kənan.

– Kənan müəllim, telefon niyə sizdədir? Nə olub? Atam haradadır?

– Kamran, çalış möhkəm olasan. Atan bir az nasazlayıb. İndi xəstəxanadadır.

– Nə danışırsınız, Kənan müəllim? Mənə düzünü deyin nə olub atama? Hansı xəstəxanadadır?

– Yenə deyirəm möhkəm olmağa çalış. İndi sən evdəkilərə dəstək olmalısan. Atan indi əməliyyatda-

dır. Deyilənə görə infarkt keçirib. 1 saylı Şəhər Kliniki Xəstəxanasındayıq.

– Yaxşı, Kənan müəllim. Bu saat gəlirəm.

– Mənim nömrəmi yaz. Bu telefonu indi qeydiyyat şöbəsinə qaytarmalıyam. Çatanda mənimlə əlaqə saxlayarsan.

Kənan nömrəsini səsləndirib Kamranla sağollaşaraq dəstəyi asdı. Söhbətdən göründüyü qədəri ilə Kərim haqqında eşitsələr də qətlə yetirilənin dəqiqliyi ilə o, olması barədə bir şey bilmirlər. Görünür, bu çətin vəzifə də Kənanın üzərinə düşəcəkdi. Kənan səssizcə dəhlizlə yeriyib əməliyyat otağının qarşısında düzülmüş stullardan birində əyləşdi. On beş dəqiqə sonra Kamranın nömrəsindən Kənana zəng gəldi. Kənan olduğu yeri ona bildirdi. Elə bundan da bir neçə dəqiqə sonra Kamran, Səkinə xanım, Nailə və onların qohumlarından bir neçə nəfər dəhlizlə qaçaraq Kənana sarı gəldilər. Səkinə xanımın saçları bir-birinə qarışmış, ağlamaqdan gözləri şişmiş, üz-gözünü dırnaqları ilə cızmışdı. O, Kənanın üstünə atılıb:

– Kənan müəllim, sizə qurban olum, nə olub bizim kişiyə? Haradadır indi?

– Səkinə xanım, xahiş edirəm sakit olun. Özünüzü ələ almağa çalışın. Qurban müəllim içəridə əməliyyatdadır. Allahın köməkliyi ilə sağ-salamat çıxacaq əməliyyatdan.

– Nə oldu? Niyə infarkt keçirtdi? Kərimdən xəbər var deyə evdən çıxmışdı. Yenə də meyit tapmışdılar. Sizə yalvarıram, Kənan müəllim, bircə mənə deməyin ki, o meyit Kərimin idi.

Kənan başını aşağı dikib sakit dayandı. Səkinə xanımın üzünə baxmağa özündə cəsarət tapmırdı. Olanları danışmaq istəyirdi, lakin sanki nitqi qurumuşdu. Heç bir söz deyə bilmirdi. Səkinə xanım Kənanın başını aşağı dikdiyini görüb özü hər şeyi başa düşdü. Birdən-birə var gücü ilə qışqırmağa başladı:

– Allah, sənə qurban olum, nədir bizim günahımız? Niyə bu günlər bizə rəva oldu? İki balamı kim öldürdü? Kərim, anan qurban sənə, hara gedirsən, Kərim?

Səkinə xanım indi Qurban müəllimi tamam yaddan çıxarmışdı. O, indi ikinci övlad itkisinin acısını yaşayırdı. Durmadan nalə çəkib ağlayırdı. Kamran anasını qucaqlayıb sakitləşdirməyə çalışırdısa da bir nəticə əldə edə bilmirdi. Onu palatalardan birinə apardılar. Bir tibb bacısı gəlib sakitləşdirici iynə vurdu. Bir müddətdən sonra Səkinə xanım nisbətən sakitləşdi və yuxuya getdi. Nailə anasının başının üstündə gözləyirdi. Kamran isə əməliyyat otağının qarşısına qayıtmışdı. Nəhayət, Qurban müəllim əməliyyatdan çıxdı. İndi onu reanimasiyaya göndərirdilər. Hazırda səhhəti ilə bağlı qorxulu bir şey yox idi. Lakin yenə də reanimasiyada qalacaqdı. Kamran atasının vəziyyətinin yaxşı olduğunu öyrəndikdən sonra Səkinə xanımın yatdığı palataya yollandı. Kənan da artıq xəstəxanadan ayrılıb işlərinin dalınca getmək qərarına gəldi. O, ilk növbədə morqa qayıtmaq istəyirdi. Qurban müəllimin vəziyyəti pisləşdiyindən bayaq Kərimin meyitinə baxa bilməmişdi. O, indi yenidən morqa qayıdıb meyiti nəzərdən keçirmək istəyirdi. Avtomobilinə

əyləşib birbaşa morqa yollandı. Qapıdakı polis işçisi bu dəfə Kənanı tanıyıb etiraz etmədən içəri buraxdı. Kənan Kərimin cəsədinin olduğu otağa daxil oldu. Otaqdakı ortayaşlı, alçaqboylu, yumrusifət kişi bayaq Rauf Eyvazovla gələn Kənanı dərhal tanıdı. Kənan ona əl uzatdı və özünü təqdim etdi:

– Salam. Adım Kənandır. Detektivəm. Kazımovların qətlini araşdırıram. İcazə versəydiniz Kərimin meyitinə baxmaq istəyirdim.

– Bayaqkı kişinin vəziyyəti necə oldu?

– Nisbətən yaxşıdır. İnfarkt keçirmişdi. Əməliyyat olundu. İndi vəziyyəti normaldır.

– Hə, şükür Allaha. Onun da dərdi ağır dərddir. Eşitdiyimə görə artıq ikinci oğludur bu formada qətlə yetirilir.

– Elədir. Meyiti görə bilərəm?

– Əlbəttə, buyurun.

Kənan meyitin üzərindəki örtüyü bütünlüklə sıyırıb kənara atdı. Dəhşətli bir mənzərə ilə qarşı-qarşıya qalmışdı. Kərimin qolları, ayaqları və başı gövdəsindən ayrılmışdı. Gözünün üstündə və burnunda qançır izləri də var idi. Kənan bu izlərin avtomobil qəzası zamanı yarandığını fikirləşirdi. Lakin Kənana ən maraqlı gələn məqam Kərimin də alnında eynilə Nurlanda olduğu kimi "V" işarəsi qoyulmuşdu. İndi Kənan bütün diqqətini bu işarənin üstündə cəmləşdirmişdi. Axı nə demək idi bu "V"? O fikirli halda bu işarəni nəzərdən keçirərkən diqqətinə Kərimin sağ qolundakı daha bir cızıq izi sataşdı. Bu adi bir düz xətt idi. Lakin

elə bil bunu da bilərəkdən cızmışdılar. Meyitin digər tərəfinə hərlənib sol qoluna diqqət yetirdi. Bu qolunun da eyni nahiyəsində qoşa düz xətt var idi. Kənan bunların Roma rəqəmləri olduğunu başa düşdü. Kərimin ayaqlarında da müvafiq ardıcıllıqla “III” və “IV” işarələri mövcud idi. Kənan indi Kərimin gövdəsini nəzərdən keçirirdi. Lakin burada heç bir iz nəzərə çarpmırdı. O, morqdakı digər şəxsi köməyə çağırıb gövdəni çevirmək istədi. Bu alçaqboy kişi Kənanın niyə belə etdiyini başa düşməsə də ona yardım etmək qərarına gəldi. Kərimin gövdəsini çevirdilər. Kənan düşüncələrində yanılmamışdı. Kərimin kürəyinin sağ tərəfində “VI” işarəsi var idi. Qatil parçaladığı hissələri nömrələmişdi. Bədən üzvləri sağ qolu, sol qolu, sağ ayağı, sol ayağı, başı və gövdəsi ardıcıllığı ilə sıralanmışdı. Lakin bu sıralamada məqsəd nə idi? Nə üçün belə bir yola əl atmışdı bu qeyri-adi düşüncəli qatil? Kənan indi var gücü ilə bu suala cavab axtaracaqdı. Morqda artıq işini bitirmişdi. Oradan ayrılıb evə getmək və Nurlanın meyitinin şəkillərinə bir də nəzər yetirmək istəyirdi. Artıq axşam düşmüşdü. O, evə daxil olanda hava çoxdan qaralmışdı. Kənan Nuridənin dediklərini sanki eşitmirmiş kimi içəri daxil oldu və öz siyirməsində saxladığı cinayət işi ilə bağlı sənədləri götürdü. Şəkilləri bu sənədlərin arasından çıxarıb diqqətlə baxmağa başladı. Şəkildə tam aydın seçilməsə də diqqətlə baxdıqda eynilə Kərimin meyitindəki işarələr kimi işarələr olduğu görünürdü. Deməli, onun da meyitinin hissələrinə müəyyən ardı-

cıllıq verilmişdi. Lakin Kənan bunun səbəbini heç cür başa düşə bilmirdi. Axı bu qatilin nəyinə lazım idi? Bəlkə o bununla nəsə demək istəyirdi? Kənan bütün topladığı materialları bir daha diqqətlə nəzərdən keçirməyə qərar verdi. Diqqətindən heç nəyin qaçmaması üçün eyni şeyləri təkrar-təkrar oxuyurdu. Birdən qəribə bir məqam Kənanın diqqətini çəkdi. Hər iki cinayətdə meyitin hissələri şəhərin müxtəlif tərəflərinə paylanmışdı. Həm də bu meyit hissələrini gizlətmək xarakteri daşımırdı. Belə ki, bu hissələr əhalinin çox keçdiyi yerlərdə idi. Nurlanın meyitinin tapıldığı yerlər cinayət işinin materiallarında əks olunmuşdu. Lakin Kənan Kərimin meyitinin tapıldığı yerlər barədə öyrənə bilməmişdi. Kənan mobil telefonunu çıxarıb Rauf Eyvazova zəng etdi. Rauf müəllim bir qədər sonra telefona cavab verdi:

– Eşidirəm, Kənan müəllim.

– Rauf müəllim, sizi bu saatda narahat etdiyim üçün üzr istəyirəm, amma öyrənməli olduğum bir məsələ var.

– Buyurun, Kənan müəllim. Nə məsələdir?

– Mənə Kərimin meyitinin hissələrinin tapıldığı yerlər lazımdı. Lakin bütün hissələrin ayrı-ayrılıqda harada tapılmasını dəqiqliklə bilmək istəyirəm.

– Fikrimcə bu elə də bir rol oynamır. Amma belə maraqlıdırsa mən sizə bir neçə dəqiqədən sonra zəng edib məlumat verərəm.

– Bəli, mənim üçün vacibdir bu məlumatlar. Zəhmət olmasa bildirərsiniz. Zənginizi gözləyirəm.

Kənan indi bu sıralamadakı yerlər arasında hansısa bir bağlantı olub-olmamasını aydınlaşdırmaq istəyirdi. Amma hazırda Nurlanın meyitinin hissələrinin tapıldığı yerlər arasında heç bir bağlantı gözə çarpmırdı. Kənan sabah ilk növbədə bu meyit hissələrinin tapıldığı yerlərə gedib ora baxış keçirtmək istəyirdi. İndi isə səbirsizliklə Rauf Eyvazovdan gələcək cavabı gözləyirdi. Cinayətin açılması üçün Kərimin meyitinin hissələrinin tapıldığı yerlər çox böyük əhəmiyyət kəsb edə bilərdi. Aradan çox keçmədən Rauf Eyvazov zəng edib Kərimin meyitinin tapıldığı yerləri dəqiqliklə sadaladı. Kənan bu yerləri özündə qeyd edib daha sonra yanlarına sıra nömrələrini qeyd etdi. İndi Nurlanın meyitinin tapıldığı yerlərlə Kərimin meyitinin tapıldığı yerləri tutuşdururdu. Bu yerlərdən, sadəcə, biri üst-üstə düşürdü. Deməli, sabah ilk növbədə bu yeri ziyarət etmək lazım idi. Qatil niyə məhz, sadəcə, bu yerdə ikinci dəfə bir meyit hissəsini tullamışdı? Bura kiçik bir parkın yanı idi. Hər gün xeyli adamın keçdiyi bu yerə meyitin hissəsini atmaqda məqsədi nə idi? Kənan indi məsələyə başqa aspektdən yanaşdı. Həmin yerdə tapılan meyit hissələrinin üzərində olan Roma rəqəmlərinin nömrələrinə diqqət yetirdi. Nurlanın cinayətində tapılan meyit hissəsinin üzərində “IV” Kərimin meyit hissəsinin üzərində isə “I” yazılmışdı. Həmin yerdən Nurlanın sol ayağı Kərimin isə sağ qolu tapılmışdı. Bu rəqəmləri birlikdə yazdıqda 41 rəqəmi ortaya çıxırdı. Görəsən, həqiqətən də qatil törətdiyi bu əməllə bu

rəqəməmi işarə etməyə çalışmışdı? Axı bu 41 rəqəmi nə məna ifadə edə bilərdi? Yenə də bütün gün yemək yeməməsinə baxmayaraq heç iştahası yox idi. Lakin Nuridədən bir stəkan çay istədi və kompüterin qarşısında əyləşdi. Kənan 41 rəqəmi haqqında internetdə araşdırma aparmağa başladı. Saatlarla kompüterin qarşısında əyləşib araşdırma aparsa da bu rəqəm haqqında elə bir şey tapa bilmədi. Saat artıq xeyli gec idi, üçə yaxınlaşırdı. Kənan yatmaq qərarına gəldi. Səhər tezdən ilk növbədə həmin o kiçik parkın yanına gedəcəkdi. Bu ərazidə diqqəti çəkən nə isə ola bilərdi.

Kənan səhər yenə zəngli saatın səsinə yuxudan oyandı. Tez əynini geyinib səhər yeməyi belə yemədən evdən çıxdı. Birbaşa həmin o parka yollandı. Bura əslində binaların arasında qalan kiçik bir park idi. Həm də səhərin erkən saatları idi deyə hələ parkda demək olar ki, heç kim yox idi. Kənan bütün parkı başdan-ayağa gəzdi. Parkla üzbəüz bəzi mağazalar var idi. Bundan savayı ətrafda diqqət çəkən heç nə gözə dəymirdi. Kənan burda çox da ləngimək istəmirdi. Yenidən "Altay" MMC-yə gedib Altay Nuriyevlə söhbət etmək istəyirdi. Bu gün ondan fikrində tutduğu bəzi suallara cavab almaq istəyirdi. Ona görə də bu gün yenə də Erdem Kılıç rolunu ifa etməliydi. Kənan parkdan ayrılıb "Altay" MMC-yə yollandı. Altay müəllimin katibəsi bu dəfə onu gülərüzlə qarşıladı. Dərhal onun gəlməsi barədə Altay Nuriyevə məlumat verdi. Altay müəllim də onu gözlətmədən qəbul etdi. Bu gün o, Qurban Kazımovun övladlarının qətlindən

söhbət salmışdı. Kənanın istədiyi Altay müəllimin bu məsələyə verəcəyi reaksiyanı bilmək idi. Bu reaksiya elə Kənanın gözlədiyi kimi oldu. Altay müəllim bu ölümlərə çox soyuqqanlı və biganə münasibət göstərmiş, söhbəti tezliklə dəyişib yenidən fərdi biznes barədə söhbətə keçmişdi. Kənan bu söhbətdən sonra dəqiqliklə başa düşmüşdü ki, bu insanın həyatında pul ən önəmli yeri tutur. Ona görə də hələ ki, cinayətlərin törədilməsində əsas şübhəli kimi Altay müəllimi görürdü. Kərimin cinayəti Vaqifin üzərindəki şübhəni bir qədər azaltmışdı. Belə ki, Vaqif Nurlanın öldürülməsində maraqlı ola bilərdi, lakin Kərimin öldürülməsi onun üçün heç bir əhəmiyyət kəsb etmirdi. Təbii ki, Vaqif Nurlanın ona qarşı etdiyi hərəkətdən möhkəm qəzəb keçirib onun ailə üzvlərindən də intiqam almaq fikrinə düşə bilərdi. Lakin bu ehtimal çox kiçik bir ehtimal idi. Əsas etibarilə artıq diqqəti Vaqifə yönləndirmək vaxt itkisi demək olardı. Cinayətlərin hər ikisinin eyni formada törədilməsi cinayətkarın eyni adam olmasından xəbər verirdi.

Kənan xəstəxanaya gedib Qurban müəllimi ziyarət etmək istəyirdi. Avtomobilinə əyləşib birbaşa xəstəxanaya yollandı. Xəstəxananın həyətində Kamranla qarşılaşdı. Kamranla görüşüb atasının vəziyyətini xəbər aldı:

– Kamran, salam. Necədir atanın vəziyyəti?

– Salam, Kənan müəllim. Reanimasiyadan çıxarılıb. Hazırda palatadadır. Həkimlərin dediklərinə görə vəziyyəti nisbətən yaxşıdır. İki oğlunu itirib infarkt

keçirən bir ata nə qədər yaxşı ola bilərsə o qədər yaxşıdır yəni.

– Başa düşürəm, Kamran. Bilirəm sizə də çox ağırdır. Yaşadıqlarınız dözülməz şeylərdir. Lakin sən indi ailənin ən böyük dəstəkçisi olmalısan.

– Siz qardaşlarımın qatili barədə bir şey öyrənə bilmədiniz? Nə vaxt tapılacaq o cani? Hər kimdirsə otursun Allahına dua etsin ki, polisdən əvvəl mənim əlimə düşməsin. Əgər mənim əlimə düşsə, and olsun Allaha, onu tikə-tikə doğrayacağam.

– Yaxşı, Kamran, sakit ol. Belə danışma. Sənə dedim axı ki, sən gərək ailənin ən böyük dəstəkçisi olasan. Atan hansı palatadadır?

– İkinci mərtəbədə dəhlizin sonunda soldakı palatada.

– Yaxşı, Kamran, mən qalxım Qurban müəllimə baş çəkim.

Kənan ailənin düşdüyü bu vəziyyətə həddən ziyadə pis olurdu. Böyük bir ailə tamamilə parça-parça olmuşdu. Görünür, bu arxasında iz qoymayan qatilin də əsas məqsədi elə ailəni bu vəziyyətə salmağıymış. Kənan xəstəxanaya daxil olub pilləkənlərlə yuxarı qalxdı və Qurban müəllimin palatasına doğru irəlilədi. Qapını sakitcə döyərək açdı və içəri daxil oldu. Qurban müəllimin yanında Kərimin dostu Elnur da var idi. Onların hər ikisinin söhbət edib ağladıqları hiss olunurdu. Kənanın gəlişini görən Elnur üzünü başqa tərəfə çevirib göz yaşlarını sildi. Qurban müəllim də əli ilə gözlərini sildi. Kənan hər ikisi ilə salamlaşdı. Daha sonra üzünü Qurban müəllimə tutub:

– Necəsiniz, Qurban müəllim? Necə hiss edirsiniz özünüzü?

– Necə olacağam, Kənan?! İki övladımı itirmişəm. Axı niyə mən də ölüb getmədim? Necə qaldırdım bu yükü?

– Belə danışmayın, Qurban müəllim. Allah Nurlanla Kərimə rəhmət eləsin. Siz qalan övladlarınızı, həyat yoldaşınızı düşünməlisiniz. Axı onların sizə ehtiyacı var.

– Mənim indi heç özümə xeyrim yoxdur, ay Kənan. Hələ camaatın da əl-ayağına dolaşıram. İki gündür buradadırlar hamısı. Kərimin yasını da tuta bilmirlər. Ölüb getsəydim indi oğlumla birlikdə mənim də yasımı tutardılar.

– Belə danışmaq sizə heç yaraşmır, Qurban müəllim. Çalışın möhkəm olasınız.

Elə bu dəm qapı yenidən açıldı. Qurban müəllimin dostları Salman, Faiq, Fuad və Turqut içəri daxil oldular. Onlar da içəridəki şəxslərlə salamlaşdılar. Kənan və Elnur içəridə adamın çoxaldığını görüb otaqdan çıxdılar. Dəhlizdə Kənan Elnurla söhbətə başladı:

– Elnur, əgər vaxtın varsa səninlə də bir qədər söhbət etmək istəyirəm. Əgər heç yerə tələsmirsənsə yaxınlıqda bir kafedə oturub həm nahar edək, həm də səninlə bir qədər söhbət edək.

– Buyurun, Kənan müəllim. Gedək. Sizə əlimdən gələn köməyi etməyə hazıram.

Onlar birlikdə xəstəxanadan çıxdılar. Xəstəxananın həyətində Kamranı siqaret çəkərkən gördülər.

Kamran onları görüb utanaraq cəld siqareti tulladı. Elnur Kamranı bir qədər kənara çəkib onunla söhbətə başladı:

– Kamran, mən indi gedirəm. Yenə gələcəyəm axşamüstü. Mənim nömrəm səndə var. Əgər nəyəsə ehtiyacınız olsa, nəsə lazım olsa dərhal mənə zəng elə. Mən də sənin bir qardaşınam. Ona görə məndən qətiyyən çəkinmə. Siqaret çəkməyi də səndən gözləməzdim. Başa düşürəm dərdlisən, ürəyin sıxılır. Amma siqaret heç nəyə çarə deyil.

– Çox sağ ol, Elnur. Sənə minnətdaram. İndiyə qədər də elə daima yardımını əsirgəməmisən. Əlindən gələni etmisən. Narahat olma, nəsə lazım olsa ilk növbədə sənə xəbər edəcəyəm.

– Yaxşı, mən getdim. Hələlik.

– Hələlik.

Elnur Kamranı qucaqladı və kənarda dayanıb onu gözləyən Kənanın yanına getdi. Kənanla birgə yaxınlıqdakı kafeyə getdilər. Hər ikisi bəyəndikləri yeməyi sifariş etdilər. Yeməyin gəlməsini gözləyərkən Kənan söhbətə başladı:

– Elnur, bilirəm sənin üçün də çətindir. Bildiyim qədəri ilə Kərimlə yaxın dost olmusunuz.

– Kərim mənim həyatdakı ən yaxın dostum idi. Onu özümə qardaş hesab edirdim.

– Başa düşürəm. Elə buna görə də sənin üçün kifayət qədər çətindir. Amma aydınlaşdırmalı olduğumuz məqamlar var. Mənə Kərimin Nurlanın ölümündən sonrakı həyatından danış. Sənə qəribə görsənən nəsə var idimi? Kimlərləsə mübahisəsi yox idi?

– Kərim Nurlanın ölümündən sonra özünə gələ bilmirdi. Heç cür özünə yer tapa bilmirdi elə bil. Qardaşının qatilini hamıdan əvvəl tapıb özü cəzalandırmaq istəyirdi. Mən onu dəfələrlə xəbərdar etdim. Dedim ki, bu məsələni prokurorluğun öhdəsinə buraxsa yaxşıdır. Amma o məni dinləmək də istəmirdi heç.

– Bəs nə isə tapmışdı? Şübhələndiyi kimsə var idi?

– O barədə mənə heç bir məlumat verməmişdi. Amma cidd-cəhdlə axtarırdı.

– Bəs sənin şübhələndiyin kimsə varmı?

– Bilirsiniz, Qurban əmi şəhərdə kifayət qədər məşhur biznesmendir. Onun dostları olduğu kimi düşmənləri də var. Bilmirəm kim ola bilər, amma fikrimcə, Qurban əminin düşmənlərindəndir bu əməlləri törədən.

– Qubaya nə məqsədlə gedirdi?

– Qubaya getmə məqsədinin Nurlanla heç bir əlaqəsi yox idi. İşdən ezamiyyətə göndərmişdilər. Bizim regionlarla əlaqələrimiz var. Bəzən işçiləri müxtəlif bölgələrə ezamiyyətə göndərirlər.

– Aydındır. Sən də ezamiyyətə göndərilmişdin həmin vaxt?

– Xeyr. Mən Bakıdaydım. Bir həftə əvvəl ezamiyyətə getdiyimdən məni yenidən göndərmədilər. Əslində müdirdən Qubaya getmək barədə xahiş də etdim. Kərimlə Qubaya birlikdə gedib işləri həll etmək, sonra da bir az gəzib fikirlərdən uzaqlaşmaq istəyirdik. Amma qismət olmadı.

Kənan ofisianta əli ilə işarə edib hesabı istədi. Artıq yeməklərini yeyib bitirmişdilər. Kənan Elnurla

olan söhbətini yekunlaşdırdı. Ofisiant çox keçmədən hesabı gətirdi. Kənan hesabı ödəyib Elnurla birgə oradan çıxdı. Elnurla sağollaşıb avtomobilinə doğru addımladı. Kənan heç bir əsaslı iz tapa bilməməsinə əsəbiləşirdi. Qatil çox professional hərəkət edirdi. Üstəlik sanki cinayəti araşdıranları ələ salırdı. Meyitin hissələri üzərində izlər qoyur, bu hissələri camaatın gözü qarşısına atır. Sanki cinayəti törətməsi ilə fəxr edirdi. Elə Kənanı da əsəbiləşdirən qatilin bu rahatlığı idi. O, meyit hissələrinin tapıldığı yerlərin siyahısını cibindən çıxarıb baxdı. Bütün bu yerlərə gedib baxmaq qərarına gəldi. Hər iki meyit altı hissəyə parçalandığından ümumilikdə on iki hissə edirdi. Bu yerlərdən cəmi ikisi üst-üstə düşürdü və Kənan artıq həmin yerdə olmuşdu. Deməli, geriyə on bölgə qalırdı baxılmalı. Kənan siyahını bir də nəzərdən keçirdib hərəkət edəcəyi marşrutu müəyyən etdi və bu bölgələri ardıcıllıqla sıraladı. Daha sonra bir-bir həmin bölgələri gəzməyə başladı. Getdiyi bütün yerləri diqqətlə incələyirdi. Bu yerlərdə maraqlı məqamlardan biri də o idi ki, heç birində kamera nəzarəti yox idi. Şəhərin əksər hissələri kamera nəzarəti altında saxlanılsa da meyit hissələrinin tapıldığı yerlərin heç birində kamera nəzarəti yox idi. Bütün bunların hamısı qatilin bu cinayətləri törətməyə mükəmməl şəkildə hazırlaşmasından xəbər verirdi. Kənan bu yerlərin hamısını gəzsə də əhəmiyyətli bir şey tapmamışdı. O, avtomobilə əyləşib evə yollandı. Evdə yenə də bu yerlər haqqında ətraflı götür-qoy edirdi. Bir neçə variant fikirləşir, lakin heç biri ona məntiqli görünmürdü.

Kənan kompüteri açıb internetdən Bakı şəhərinin xəritəsini tapdı. Bu xəritəni çap edib qarşısına qoydu. İndi həmin o meyit hissəsi tapılan yerləri xəritədə işarələyib bir daha bu haqda fikirləşməyə başladı. Birdən Kənanın ağlına başqa bir fikir gəldi. Əvvəlcə Nurlanın meyit hissələrinin ardıcıllığı ilə daha sonra isə Kərimin meyit hissələrinin ardıcıllığı ilə həmin nöqtələri birləşdirdi. Ortaya maraqlı bir rəsm çıxdı. Bu nöqtələri birləşdirdikdə "m" hərfinə bənzər bir şəkil ortaya çıxırdı. Deməli, qatilin meyit hissələrini nömrələməkdə, onları şəhərin müxtəlif yerlərinə paylamaqda məqsədi buymuş. Kənan qatilin bu qəribə təxəyyülünə yenə də maraqla yanaşırdı. Bunu etməkdə məqsəd nə idi? Qurban müəllimin iki övladını öldürərək onların meyitini hissələrə parçalayıb şəhərə paylayaraq bu yazını yazmaqla nə deməyə çalışırdı? Bununla özündən sonra imza qoyurdu? Bəs axı nə demək idi bu "m"? Kənan indi bu yeni suallar üzərində işləyirdi. Amma indi azacıq da olsa əsəbləri sakitləşmişdi. Nəhayət, cinayətlə bağlı nəsə əldə edə bilmişdi. Bu işarəni bir ağ kağız götürüb bir az iri formada ora yazdı. İndi diqqətlə bu işarəyə baxırdı. Nuridəni səsləyib ondan çay gətirməsini istədi. O, dəfələrlə qələmlə bu şəklin üstündən gedir, bu yazını getdikcə qaralayırdı. Bir müddət sonra Nuridə əlində çayla otağa daxil oldu. Gətirib stəkanı Kənanın qarşısına qoyarkən nəyisə qaraladığını gördü. Onun kefini bir az açmaq üçün zarafat etmək qərarına gəldi:

Deyəsən gördün cinayət işlərindən bir şey çıxmır, şəkil çəkmək qərarına gəldin?



Бильгя
Bilgəh
Zagulba yolu
Дюбенди
Dübəndi
Тюркан
Türkan
Говсаны
Hövsan
Zığ şosesi
Аэропорт имени
Гейдара Алиева...
Heydər Əliyev adına
Beynəlxalq Hava...
Забрат
Zabrat
Кердексани
Kürdəxanı
Дигях
Digah
Фатмаи
Fatmayı
Новханы
Novxanı
Новкхани
Novkhany
Ozero Beyuk-Shor
Böyük Şor Gölü
Баку
Bakı
НИЗАМИНСКИЙ
РАЙОН
NIZAMI
KHATAI
БИНАГАДИНСКИЙ
РАЙОН
BINƏQƏDI
ЯСАМАЛ
YASAMAL
Масазыр
Masazır
Хырдалан
Xırdalan
Сарай
Saray
Гюздак
Güzdək
Кобу
Qobu
Локбатан
Lökbatan
E119
M1
M2
M3

Kənan Nuridənin zarafat etdiyini başa düşüb könlünə toxunmamaq üçün güclə gülümsədi. Bütün diqqəti bu kağız parçasının üzərində idi. Nuridə Kənanın bütün diqqətinin vərəqdə olduğunu başa düşüb vərəqə boylandı. Sonra heyrətlə:

– Mən də elə bilirəm nəsə vacib bir işlə məşğul olursan. Mənim bürcümün emblemini niyə çəkmisən kağıza? Narahat olma, hələ çox var ad günümə.

Nə dedin? Nəyin şəklini çəkmişəm?

Kənan az qala qışqıraraq soruşurdu. Nuridə Kənanın bu reaksiyasına məəttəl qalmışdı. Susub dayanmışdı. Kənan bir daha qışqıraraq soruşdu:

– Sən nə dedin? Nəyin şəklini çəkmişəm mən?

– Burda əsəbiləşməli nə var ki? Dedim mənim bürcümün emblemini niyə çəkmisən də.

– Bu hansısa bürcün emblemidi?

– Hə mənim bürcümdü. Əqrəb bürcü.

– Əqrəb.

Kənan bu sözü uzadaraq təkrarladı. Nuridə heç bir şey anlaya bilmirdi. Kənanın diqqətinin tamamilə ayrı yerdə olmasını görüb otaqdan çıxdı. Kənan, nəhayət, istədiyinə çatmışdı. Deməli, qatil bütün bunları sırf bu əqrəb sözünə görə edirmiş. Böyük ehtimalla "Əqrəb" qatilin təxəllüsü idi. İndi bu Əqrəbi tapmaq lazım idi. Kim idi bu Əqrəb görəsən? Polisə, prokurorluq orqanlarına və ən nəhayətdə Kənana meydan oxuyan bu Əqrəb kim idi? Kənan əqrəb sözünün təxəllüsdən başqa mənaları ola bilməsi ehtimalını da nəzərə alırdı. Bunun üçün də bu sözü dərindən araş-

dırmaq lazım gəlirdi. Kənan bu mövzu ətrafında ətraflı düşünməyə başladı. Bu sözün anlamını tapmaq üçün uzun müddət bir çox variantları götür-qoy etdi. Artıq gecə saat ikini adlamışdı. Kənan bir neçə variantın üzərində dayanmışdı. Birinci variant bunun qatilin təxəllüsü olması, ikinci variant qatilin, sadəcə, bu heyvana qarşı olan pərəstişi, üçüncü variant isə adam öldürməkdən, sadəcə, zövq alan bir insanın bürcünü göstərməsi ola bilərdi. Bunların arasında ən absurd variant kimi üçüncü variant görünürdü. Əgər belə olsaydı onda qatil təsadüfi qətllər törədərdi. Bir ailədən iki nəfərin öldürülməsi bu variantı təkzib edirdi. Variantlar arasında Kənana ən yaxın gələn elə ilk variant idi. Böyük ehtimalla bu qatilin təxəllüsü idi. O, belə bir hərəkət etməklə öz professionallığını sübut etmək istəmişdi. Çox güman ki, qatil onu tapa bilməməklərindən zövq alır və onu axtaranlarla oyun oynamaq istəyirdi. Kənan kompüter qarşısında əyləşib internetdən həm əqrəb haqqında, həm də əqrəb bürcü haqqında ətraflı araşdırma apardı. Bu heyvan haqqında ən xırda detallara qədər öyrənmək istəyirdi. Artıq dan yeri sökülməyə başlamışdı. Kənan internetdən əsl axtardığı məlumatı, nəhayət, tapdı. Əslində bu məlumat təsadüfən onun qarşısına çıxdı. Əqrəb haqqında araşdırma apararkən maraqlı bir xəbər diqqətini çəkdi. Bu xəbər XX əsrin əvvəllərində Amerikada yaşamış “Scorpion” * ləqəbli qatil haqqında idi. O dövrdə bu qatil Amerikada böyük əks-səda yaradıbmış. İstintaq orqanları uzun müddət onun axtarışı ilə məşğul ol-

muşlar. Bu amerikalı qatilin Nurlan və Kərimin qatili ilə tək oxşar cəhəti ləqəbləri deyildi. Onların daha bir oxşar cəhəti hər ikisinin qurbanlarının cəsədlərini hissələrə parçalamaları idi. “Scorpion” otuz dörd nəfərin qətlində ittiham edilirmiş. Sonradan bu cinayətlərin onun tərəfindən törədilməsi sübuta yetirilib. Bu manyak düşüncəli qatil, sadəcə, insanları öldürüb onu hissələrə parçalamaqdan zövq alırmış. O da istintaq orqanlarından məharətlə gizlənməyi bacarmışdı. Sonda yalnız təsadüf nəticəsində qatilin kimliyini müəyyən edib ələ keçirmək mümkün olmuşdu. “Scorpion” bu cinayətləri ilə böyük sensasiya yaratmış və camaat arasında vahiməyə səbəb olmuşdu. Ona ölüm cəzası təyin edilmişdi. Kənan “Scorpion” haqqında bu məlumatları oxuduqdan sonra Əqrəbin törətdiyi cinayətləri bu şəxsin təsiri ilə törətdiyini başa düşdü. Əqrəb törətdiyi cinayətlərlə adından bəhs etdirmək istəyirdi. Bəs niyə cinayətin qurbanları olaraq bir ailənin iki övladını hədəfə almışdı? Niyə “Scorpion” kimi təsadüfi insanları deyil, iki qardaşı qətlə yetirmişdi? Hər bir halda artıq cinayətkarın şəxsiyyəti haqqında xeyli təsəvvür formalaşmışdı. Cəmiyyətdə fərqli istiqamətdə məşhurlaşmaq istəyən manyak idraklı bir qatil idi bu cinayətləri törədən. Saat artıq səkkizi göstərirdi. Kənan özünü həddindən artıq yorğun hiss edirdi. Bir neçə saat yatmağa qərar verdi və yerinə keçmədən elə divandaca uzandı. Çox keçmədən dərin bir yuxuya getdi. Artıq bir neçə gündür saat onda işə düşən zəngli saat yenə həmin saatda zəng çaldı.

Kənan yuxudan oyanıb zəngli saatı söndürsə də yerindən bir müddət qalxa bilmədi. Daha sonra özünü toplayıb yerindən qalxdı. Səhər yeməyini yeyib evdən çıxdı. İlk növbədə Qurban müəllimin yanına getmək istəyirdi. Elə buna görə də xəstəxanaya yollandı. Bura çatdıqda Qurban müəllimin artıq xəstəxanadan ayrılıb evə getdiyini öyrəndi. Əslində belə tezliklə onun xəstəxanadan buraxılması düzgün deyildi. Lakin Qurban müəllim israrla təkid edib həkimləri razı salmışdı. İndi ona evdə müalicə tətbiq olunacaqdı. Bu məlumatları xəstəxanadan öyrəndikdən sonra oradan çıxıb Qurban müəllimin evinə yollandı. Həyət qapısını Kənana Kamran açdı:

– Salam, Kənan müəllim. Buyurun.

– Salam, Kamran. Necəsən?

– Şükür Allaha, yaxşıyam.

– Atan niyə belə tez çıxdı xəstəxanadan? Niyə imkan verdiniz çıxmasına?

– Dedi ki, orada qala bilmir. Ürəyi sıxılırdı xəstəxanada. Ona görə də həkimlə danışdıq ki, müalicəsini evdə davam etdirək.

– Hər halda xəstəxana mühitində müalicə alması daha yaxşı olardı. Evdədir indi?

– Bəli. Uzanıb istirahət edir.

– Qonağınız var, yoxsa özünüzsünüz?

– Bircə Faiq əmidir.

Kənan evə daxil olub qonaq otağına doğru addımladı. Mətbəxin qarşısından keçərkən Səkinə xanımla Nailənin içəridə əyləşdiklərini gördü. Onlarla

salamlaşıb vəziyyətləri ilə maraqlandı. Daha sonra qonaq otağına keçdi. Faiq müəllim Qurban müəllimin yanında stul çəkib oturmuşdu. Kənanın gəlişini görməyən Faiq müəllim Qurban müəllimlə söhbətini davam etdirirdi:

– Biz də bu detektivin tutulmasına təkid elədik, amma bir əmələ yaramayıb hələ ki. Elə bütün günü boş-boş gəzir. Nə isə heç gözüm su içmir onun bir nəticə əldə edəcəyindən.

Bu sözlərdən bir qədər tutulan Kənan söhbətə qoşuldu:

– Əlimdən gələni etdiyimdən əmin ola bilərsiniz, Faiq müəllim.

Faiq müəllim artıq sözündən geri çəkilməyin qeyri-mümkün olduğunu görüb danışığına davam etmək qərarına gəldi:

– Kənan müəllim, inciməyin, amma dediklərim həqiqətdir. Artıq xeyli vaxtdır ki, bu işlə məşğulsunuz, amma nə bir iz tapa bilmisiniz, nə bir iş görə bilmisiniz. Aradabir ortalıqda görünüb yox olursunuz. Bununla bir nəticə əldə etmək mümkün deyil. Biz sizi Nurlanın qatilini tapmaq üçün tutmuşduq, amma siz o qatili tapana qədər Kərimi də itirdik.

– Belə danışmaq lazım deyil, Faiq müəllim. Sizi başa düşürəm. Cərəyan edən hadisələr əsəblərinizi korlayıb. Lakin siz də təsdiq edərsiniz ki, bu heç də asan məsələ deyil. Qaldı ki, izlərin tapılmasına, bu barədə sizə məlumat verməməyim heç bir iz tapmamağım anlamına gəlmir. Mən, sadəcə, əldə etdiyim

məlumatları dəqiqləşdirməmiş paylaşmağı sevmirəm. Bir qədər səbirli olun. Mən əlimdən gələni edirəm.

Qurban müəllim mübahisəyə son qoymaq üçün söhbətə qarışdı:

– Allah xatirinə, mübahisə etməyin. Onsuz da indi belə söhbətləri götürən halım yoxdur. Bir tərəfdən də siz bayaqdan mübahisə edirsiniz.

Kənan söhbətin axarını dəyişmək qərarına gəldi:

– Necəsiniz, Qurban müəllim? Necə hiss edirsiniz özünüzü?

– İndi bir qədər yaxşıyam, Kənan.

– Amma nahaq xəstəxanadan ayrılmısınız. Fikrimcə, müalicəniz orada daha uğurlu olardı.

– Əşi, daha mənim üçün nə uğur qalıb ki? Sıxılıram xəstəxanada. Dedim gəlim evə, ölsəm də elə öz evimdə ölüm.

– Belə danışmayın, Qurban müəllim. Ailənizin sizə ehtiyacı var.

– Nə isə. Qurtaraq bu söhbəti. Sən bir şey öyrənə bilmisən, Kənan?

– Bəzi məlumatlar əldə etmişəm. İndi onları dəqiqləşdirmək üzərində işləyirəm. Yekun nəticəyə gəldikdə sizə də məlumat verəcəyəm.

– Sən Allah, nə edirsən et, tap o, əclafı. Tap ki, əllərimlə parça-parça edim onu. Nə kömək lazım olsa, hara əlin çatmasa xəbər et. Nə lazım olsa dərhal təşkil edərik.

– Hələ ki, elə bir ehtiyaclığım yoxdur. Gəlmişdim ki, sizin vəziyyətinizlə maraqlanım. Əgər icazə versəydiniz gedərdim.

– Buyur, buyur. Yaxşı yol.

– Xudahafiz.

Kənan durub otaqdan çıxarkən yenə də həm Qurban müəllimə, həm də Faiq müəllimə əl uzatdı. Faiq müəllim bir qədər narazı halda görüşdü. Üzündə olan ifadədən hələ də bayaqkı mövzuyla əlaqədar əsəbi olduğu hiss olunurdu. Kənan bu məsələyə çox əhəmiyyət vermədən Qurban müəllimgildən çıxdı. Kənan indi Kərimin qəza törətməsinə səbəb olan avtomobilin videogörüntülərinə baxmaq istəyirdi. Bu görüntüləri artıq çox güman ki, Rauf Eyvazov da əldə etmişdi. Elə buna görə də Kənan birbaşa Rauf Eyvazova zəng etmək qərarına gəldi:

– Alo. Rauf müəllim, salam.

– Salam, Kənan müəllim. Buyurun, eşidirəm sizi.

– Rauf müəllim, yəqin ki, Kərimin qəza törətməsində başqa bir avtomobilin rolunun olmasını bilirsiniz.

– Bəli, məlumatım var.

– Həmin o avtomobilin görüntülərini polis ələ keçirmişdi. Bu görüntülər sizin əlinizə keçməyib?

– Həmin görüntülər məndədir, Kənan müəllim. Yəqin ki, tanış olmaq istərdiniz. Buyurun gəlin. Sizə həmin görüntülərin bir nüsxəsini verərəm.

– Sizə minnətdaram, Rauf müəllim. Yarım saat içərisində orada olaram.

Kənan telefon danışığından sonra Rauf Eyvazovun iş yerinə yollandı. İçəri daxil olub adəti üzrə həm Rauf müəllimlə, həm də Şamillə görüşdükdən sonra əyləşdi. Şamil artıq həmin videogörüntüləri diskə

yazmışdı. Rauf müəllim Kənana görüntülərə birgə baxmağı təklif etdi. Kənan razılıq verdikdən sonra Rauf müəllim Şamilə videonu göstərməsini tapşırdı. Şamil kompüterdə videonu açıb monitoru Kənana doğru çevirdi. Rauf müəllim ayağa qalxıb Kənanın başının üstündə dayandı və birlikdə videoya baxmağa başladılar. Kənan bütün diqqəti ilə videodakı görüntülərə baxırdı. Videoda Kərimin idarə etdiyi avtomobil sol zolaqda hərəkət edirdi. Bir müddət sonra arxadan yaxınlaşan mavi rəngli "Toyota" işıq xəbərdarlığı edərək yol istəyir. Kərim yavaşca yolun sağına keçməyə başlayır. Bu dəm həmin avtomobil, ön hissəsi ilə Kərimin avtomobilinin sol arxa hissəsini vurur. Avtomobilin hərəkətindən bunun qəsdən edildiyi aydın görsənir. Kərim bundan sonra idarəetməni itirir. Lakin avtomobilin qəzaya uğraması görüntüləri artıq görsənmir. Hər iki avtomobil kameranın görüş zolağından çıxırlar. Videoya baxdıqdan sonra Rauf müəllim sözə başlayır:

– Gördüyünüz kimi bu mavi "Toyota" Kərimi qəsdən yoldan çıxarır. Bundan sonra Kərim idarəetməni itirir və qəzaya uğrayır.

– Bu kamera Kərimin avtomobili tapılan yerdən nə qədər uzaqlıqdadır?

– Çox da aralıda deyil. Təxminən yüz metr məsafədədir. Görünür, idarəetməni itirən Kərim avtomobili yenidən yola qaytara bilmir və ağaca çırpılır.

– Və böyük ehtimalla qəzadan sonra Kərim huşunu itirir. Həmin bu avtomobil də ona yaxınlaşır və

Kərimi asanlıqla götürür. Sonrası isə məlumdur. Bəs bu avtomobil qəza baş verən yerdən sonra daha harada görsənir?

– Bundan sonra o, daha iki kamerada görsənib. Qəza baş verən ərazidən təxminən on kilometr uzaqlıqda görünüb ən sonuncu dəfə. Həmin görüntülər də bizdə mövcuddur. Lakin bunların heç birində avtomobili idarə edən şəxsin üzü görsənmir. Avtomobil yüksək sürətlə hərəkət edir. İkinci kamerada da göründükdən sonra sanki yox olur. İndi polis əməkdaşları həmin ərazini ələk-vələk edib həmin avtomobili axtarırlar.

– Əgər belədirsə onda Kərimi başqa bir avtomobillə Bakıya gətirmişdi. Kərimin meyitinin elə səhəri gün tapılması qatilin vaxt itirmədən dərhal şəhərə qayıtmasına işarədir. Qayıdarkən diqqət çəkməmək üçün nömrəsiz avtomobildən istifadə etməz. Belə olan halda bizim üçün indi ən vacib olan həmin mavi avtomobilin harada olmasını tapmaq və qatilin şəhərə hansı avtomobillə qayıtmasını müəyyən etməkdir.

– Bizim də axtarışlarımız bu istiqamətdədir. İndi rayon polis idarəsinin əməkdaşları həmin ərazidə bu avtomobili axtarırlar.

– Yaxşı, Rauf müəllim, çox sağ olun yardımınıza görə.

– Buyurun, Kənan müəllim. Dəyməz.

Kənan diskin onun üçün hazırlanmış nüsxəsini Şamildən götürüb otaqdan çıxdı. Avtomobilinə əyləşib arxa oturacaqdan kompüteri götürüb açdı. Diski kom-

pütərə yerləşdirib video faylını açdı. Əvvəlcə təkrarən qəzanın törədildiyi videoya baxdı, daha sonra isə mavi “Toyota” nın göründüyü digər iki videoya. Doğrudan da heç bir videoda avtomobilin sürücüsü görsənmirdi. Kənan yenidən qəzanın törədildiyi yerə getmək qərarına gəldi. Nuridəyə zəng edib Qubaya getdiyini, gecə böyük ehtimalla evə qayıtmayacağını bildirdi. Daha sonra Quba istiqamətində yola düşdü. Qəzanın törədildiyi yerə çatıb avtomobilini yolun kənarında saxladı. Qəzanın görüntülərinə yenidən baxdı və avtomobildən enib həmin görüntülərin olduğu ərazini nəzərdən keçirməyə başladı. Yoldan keçən avtomobillər artıq yerdə qalan izləri yox etmişdilər. Lakin Kənan videoda gördüyü görüntülərlə kameraya düşməyən hissələrin necə baş verdiyini beynində canlandıra bildi. Daha sonra digər iki görüntüyə baxmaq üçün avtomobilinə keçdi. İkinci videoda yolun qırağındakı ərzaq mağazasını gördü. Mühərriki işə salıb həmin yerə yollandı. Həmin ərzaq mağazasını gördükdə avtomobili saxladı. Bu ərzaq mağazası magistral yolun düz qırağında yerləşirdi. Kənan bu əraziyə bir qədər nəzər yetirdikdən sonra yenidən avtomobilə əyləşib yola davam etdi. Növbəti kameranın harada olduğunu aydınlaşdırmaq istəyirdi. Növbəti kamerayadək cəmisi iki yolayrıcı var idi. Bu yollardan biri kiçik bir kəndə, digəri isə köhnə bir zavoda gedirdi. Zavod artıq işlək vəziyyətdə deyildi. Həm kənd, həm də zavod magistral yoldan çox da uzaqda deyildi. Kənan əvvəlcə kəndə gedib burada bir neçə şəxslə söh-

bət etdi. Lakin son vaxtlar heç bir yad maşının kəndə gəlmədiyini öyrəndi. Hər bir halda gecə hər kəs yatdıqdan sonra qatil bura gəlib qayıda bilərdi. Lakin başqa bir avtomobillə geri qayıtdığını nəzərə alsaq, qatil qayıtdığı avtomobili əvvəlcədən gətirib kənddə gizlətməli idi. Ona görə də böyük ehtimalla qatil avtomobili zavodda gizlətmişdi. Kənddə bir neçə dəfə dövrə vurduqdan sonra buradan ayrıldı. Yenidən magistral yola çıxıb zavoda gedən yola doğru sürətlə hərəkət etməyə başladı. Zavodun döngəsinə çatdıqdan sonra isə əksinə, avtomobilin sürətini kəskin azaldıb yavaş-yavaş zavoda doğru irəliləməyə başladı. Yolun bu hissəsini maksimum diqqətlə nəzərdən keçirirdi. Bir qədər bu nahamar yolda hərəkət etdikdən sonra avtomobili yolun kənarında saxlayıb aşağı endi. Yola diqqətlə baxıb burada hər hansı təkər izlərinin olub-olmamasını öyrənmək istəyirdi. Lakin görünür, dünən axşam yağan yağış bütün izləri yox etmişdi. Bu torpaq yol hələ də yaş idi. Kənan bir neçə addım avtomobildən uzaqlaşıb gözü aldığı qədər uzaqlığa baxmağa başladı. Böyük bir quraqlıqdan sonra seyrək ağacları olan kiçik bir meşəlik var idi. Yolun digər tərəfində isə bir qədər aralıda balaca bir göl var idi. Göldə görsənən çirkabdan bir vaxtlar onun zavodun kimyəvi tullantılarını atdığı ərazi olduğunu başa düşmək olurdu. Gölün ətrafında qamışlıq var idi. Bu qamışlıq bütün gölü əhatəyə almışdı. Kənan yenidən avtomobilinə qayıdıb yola davam etdi. Avtomobili idarə edərkən də yolun kənarlarına diqqətlə baxırdı. Artıq

beş dəqiqədən sonra köhnə, demək olar ki, bütün şüşələri tökülmüş, paslanmış iri bir darvazası olan, ətrafı zir-zibillə örtülmüş bir binanın qarşısına çatdı. Bu binanın formasından zavod olduğu anlaşılırdı. Amma görünür, çox uzun müddətdir ki, bura nəinki fəaliyyət göstərmir, hətta uzun zamandır heç bir insan tərəfindən ziyarət olunmurdu. Kənan avtomobildən enib zavodun darvazasına yaxınlaşdı. Darvazanın üstündə paslanmış zəncir və bu zəncirə taxılmış paslı bir qıfıl var idi. Kənan əli ilə darvazanı zəncirin imkan verdiyi dərəcədə aralayıb içəri baxmağa çalışdı. Lakin zəncir qısa olduğundan bir şey görə bilmədi. Binanın yan tərəfinə keçib bura nəzər yetirdi. Binanın xeyli uzunluğu var idi. Kənan bir qədər addımlayıb içəri girmək üçün yol axtarırdı. Bu dəm diqqətini divarla yuxarı qalxan su boruları çəkdi. Kənan əli ilə borunun möhkəmliyini yoxladıqdan sonra borudan yapışıb yuxarı dırmaşmağa başladı. Binanın damına qalxıb buradakı pəncərəyə yaxınlaşdı. Pəncərənin şüşələri sınıb tökülmüşdü. Kənan pəncərədən içəri boylanıb baxdı. İçəri kifayət qədər qaranlıq olduğundan aşağı enmək qərarına gəldi. Pəncərənin aşağısındakı dəzgahın üzərinə tullanıb buradan da yerə endi. Cibindən kiçik fənəri çıxarıb ətrafa baxmağa başladı. İçəridə hələ də yaxşı vəziyyətdə olan dəzgahlar var idi. Kənan bir neçə addım atdıqdan sonra səs eşidib diksinərək arxaya tullandı. Daha sonra səs gələn istiqamətə işıq tutduqda burada bir ilanın qıvrılaraq dayandığını gördü. İşığı onun üzərinə saldıqdan sonra ilan sürünərək dəzgah-

lardan birinin altına girdi. Kənan zavodun içərisində indi daha ehtiyatla gəzirdi. Yarım saata yaxın burada axtarış aparsa da heç bir şeyə rast gəlmədi. O, əsas etibarilə zavoda başqa bir giriş olub-olmamasını axtarırdı. Çünki ilk olaraq yaxınlaşdığı darvazadan hər hansı avtomobilin içəri girmiş olması inandırıcı deyildi. Bu darvaza böyük ehtimalla on ildir açılmırdı. Lakin zavoda həmin darvazadan başqa, sadəcə, bir piyada girişi var idi ki, bu da içəridən bağlanmışdı. Yəni həmin qapıdan da çölə giriş-çıxış mümkün deyildi. Kənan zavodun arxa tərəfində yerləşən bu qapını açmağa çalışdı. Lakin pas tutmuş tutacağı tərpətmək olduqca çətin idi. Kənan yerdən dəmir parçası götürüb onunla tutacağa vuraraq açmağı bacardı. Qapının qarşısında bitmiş yabanı otlar da aralanmasına mane olurdu. Bir neçə cəhddə qapını aralayıb çölə çıxmağı bacardı. Zavodun arxa tərəfində də bir az aralıda meşəlik başlayırdı. Kənan bir qədər qabağa gedib meşəyə çatdı. Meşənin içərisinə daxil olub bir qədər də yeridikdən sonra davam etməyin mənasız olduğunu başa düşüb geri qayıtmaq qərarına gəldi. Zavodun yanı ilə gəlib avtomobilinə çatdı. Yenə də heç nə əldə edə bilməməsinə əsəbiləşirdi. Hirsindən maşının təkərinə təpik atdı. Daha sonra avtomobilə söykənib fikirləşməyə başladı.

Deməli qatil, bu mavi "Toyota" ilə yalnız iki kamerada görsənir. Daha sonra heç bir müşahidə kamerasında görsənməyən avtomobil demək olar ki, yox olur. Həmin ərazidə yalnız iki döngə var və bunlar-

dan biri kəndə, digəri bu zavoda gəlib çıxır. Lakin nə həmin kənddə, nə də ki, bu zavodda həmin bu avtomobilə aid heç bir iz yoxdur. Bəs necə olur ki, qatil elə səhərisi gün tezdən Kərimin meyitinin hissələrini Bakı şəhərində rahatlıqla səpələyə bilir? Kənanı da ən çox əsəbiləşdirən qatilin bu özündən əminliyi və rahatlığı idi. Kənan avtomobilinə əyləşib cəld geri döndü və magistral yola doğru sürətlə hərəkət etməyə başladı. Yolda hirsindən əli ilə bir neçə dəfə sükana zərbə endirdi. Zavoda gedərkən gördüyü gölün yanından keçərkən diqqəti yenə də bu qamışlığa yönəldi. Avtomobili saxlayıb aşağı enmədən qamışlığa baxdı. Beynində bir qədər götür-qoy etdikdən sonra yenidən hərəkətə davam etdi. Yenə də sürətlə magistral yola doğru gedirdi. Nahamar torpaq yolda maşın atlanıb düşsə də buna əhəmiyyət vermədən yoluna davam edirdi. Bir neçə dəqiqədən sonra Kənanın avtomobili artıq magistral yola çıxmışdı. O, magistral yolda geri dönmə edib bayaqkı kəndə qayıtdı. Burada kənd cavanlarından biri ilə danışıb bir "Niva" tapmasını istədi. Cavan oğlana kiçik bir məsafə qarşılığında əlli manat təklif etdiyindən o, buna asanlıqla razılıq verdi. Cavan oğlan kiməsə zəng edib avtomobilinin ona lazım olduğunu, qısa müddətdən sonra qaytaracağını bildirdi. Üzünün gülməsindən telefonda danışdığı şəxsi razı sala bildiyi bilinirdi. Bu qarayanız, üzündə seyrək tüklər olan, çatmaqaş oğlan idi. Üzündən sanki həyasızlıq yağırdı. Elə telefon danışığı zamanı da həyasızlığı sayəsində avtomobili ala bilmişdi. Əslinə

qalsa Kənana da elə bu tip bir adam lazım idi. Kənan bu cavan oğlanla birlikdə kəndin içi ilə gedib “Niva” markalı avtomobilin yanına çatdı. Cavan oğlan cəld yaxınlıqdakı evə daxil olub çox keçmədən maşının açarları ilə geri qayıtdı. Avtomobili açıb oturduqdan sonra qabaqdakı sərnişin qapısını da içəridən əli ilə açdı. Kənan da avtomobilə əyləşdikdən sonra cavan oğlan ondan soruşdu:

– Müəllim, hara gedirik? Hansı tərəfə sürüm?

– Sizin kənddən bir az qabaqda köhnə bir zavod var. Oranı tanıyırsan?

– Köhnə taxta zavodunu deyirsiniz? Əlbəttə, tanıyıram. Bu dəqiqə gedərik.

– Hə, lap yaxşı. Onda sür ora, daha sonra deyəcəm nə edəcəyimizi.

– Baş üstə, müəllim.

Cavan oğlan dərhal yola düşüb magistrala çıxdı. Magistral yolda bir qədər hərəkət etdikdən sonra zavoda doğru dönüb torpaq yola çıxdı. Gölün tuşuna çatdıqda Kənan ona avtomobili saxlamağı tapşırdı. Kənan avtomobildən enib yolun qırağına bir qədər nəzər saldıqdan sonra cavan oğlanı yanına çağırıb:

– Buranı görürsən? Biz avtomobillə burdan aşağı enib gölün yanına gedə bilərik?

– Necə? Gölün yanına getmək? Siz orada nə axtarırsınız ki? Hələ indiyə qədər ora gedən görməmişəm mən.

– Sən gedə bilərsən, yoxsa yox? Sualıma cavab ver. Qalan məsələlər mənim öz işimdir.

– Əlbəttə, düşərəm. Mən elə-belə sürücülərdən deyiləm. Lap canını da alaram.

Oğlanın həddən artıq boşboğazlığı Kənanı təngə gətirsə də səbir etməyə çalışırdı. Ona görə də oğlana heç bir cavab vermədən birbaşa avtomobilə əyləşdi. Cavan oğlan da onun arxasınca gəlib sükan arxasına keçdi. Avtomobili bir qədər əks istiqamətə döndərib yenidən gölə sarı buruldu. "Niva" bir qədər yırğalansa da göl ətrafına düşmək elə də çətin olmadı. Yoldan aşağı endikdən sonra Kənan əli ilə gölün sağ tərəfini göstərib oradan başlayaraq gölün ətrafında tam bir dövrə vurmağını istədi. Cavan oğlan Kənanın dediyi istiqamətdən hərəkətə başladı. Gölün qırağını qamışlıq tam olaraq əhatəyə almışdı. Yoldan baxdıqda göl görünsə də, artıq bu səviyyədə göl deyil, sadəcə, qamışlar görsənirdi. Cavan oğlan gölün ətrafı ilə yavaş-yavaş hərəkət edir, Kənan isə diqqətlə qamışlığa baxırdı. Gölün arxa hissəsinə çatdıqda Kənan sanki qamışlığın arasında bir parıltı hiss etdi. Cəld oğlana avtomobili saxlamağı tapşırdı. Kənan avtomobildən enib qamışlığa doğru addımladı. Bir qədər yaxınlaşdıqdan sonra bu parıltının şüşənin üstünə düşən gün şüasından yarandığını gördü. Qamışlığa çatıb əli ilə qamışları o tərəf-bu tərəfə itələdi. Bu qamışların əksəriyyəti qoparılıb yenidən düzülən qamışlar idi. Kənan özündən asılı olmayaraq birdən "Nəhayət" deyə qışqırdı. Cavan oğlan da avtomobildən enib onun dalınca qaçdı. Kənanı qamışlığın arasında gizlədilmiş avtomobilin yanında gördü. Kənanın üzü gülürdü. O, cibindən əl dəsmalını çıxarıb qapının qulpundan

yapışdı və qapını açmaq istədi. Lakin qapı bağlı idi. Doğrudur, Kənan bunun belə olacağını gözləyirdi, lakin yenə də kefi pozulmuşdu. Bir neçə dəfə müxtəlif qapıları çəkib açmağa cəhd etsə də qapını açmaq alınmadı. Cavan oğlan yenə də müdaxilə etdi:

– Daha nəyə dartırsan qapıları bir-bir?

Bayaqdan bu cavan oğlana səbir göstərən Kənan artıq səbrini basa bilmədi və qışqırdı:

– Sən həmişə belə özünə aid olmayan işlərə qarışırsan? Bu qapını açmaq mənim üçün çox vacibdir.

Cavan oğlan incik halda çiynini çəkib:

– Niyə qışqırırsınız? Mən nə dedim ki? Deyirəm yəni müxtəlif qapıları dartmağın heç bir mənası yoxdur. Çölün ortasında bir gölün yanındakı qamışlığa gəlib bir maşın tapırsınız, üstəlik onun qapısının açıq olmasını gözləyirsiniz. Qəribə insansınız vallah.

– Sənə dedim axı öz işinlə məşğul ol. Əlindən bir şey gəlirsə et, gəlmirsə danışıb mənim diqqətimi yayındırma.

– İstəsəniz mən bu qapını aça bilərəm.

– Necə? Aça bilərsən? Həqiqətən bacararsan qapını açmağı?

– Hə bacararam. Amma mənə verdiyiniz pul bunun üçün kifayət eləmir. Əgər daha yüz manat versəniz onda sizin üçün qapını açaram.

Kənan cibindən yüz manatlıq əsginas çıxarıb cavan oğlana uzatdı:

– Al bu da istədiyin pul. Amma qapını aça bilməsən bu pulu da üstəlik bayaq verdiyim pulu da geri alacam.

Cavan oğlan özündənrazı halda gülümsəyib:

– Narahat olmayın, müəllim. Mənim üçün sadə bir işdir.

Cavan oğlan sürücünün qapısına yaxınlaşdı. Cibindən çıxardığı kiçik dəmir parçasını avtomobilin kilidinə soxmağa başladı. Dəmir parçasını sağa-sola hərəkət etdirib hərdənbir qapını dartırdı. Yarım saat keçməsinə baxmayaraq hələ də qapını aça bilməmişdi. Kənan artıq səbir edə bilməyib:

– Əgər bacarmayacaqsansa vaxtımızı alma. Başqa birini tapıb ondan kömək istəyərik.

– Darıxmayın, müəllim. Son zamanlar avtomobillərin kilid sistemini gücləndiriblər. Bir qədər çətin olur, amma mütləq nəticə əldə edəcəyik.

Cavan oğlan cümləsini tamamlayan kimi qapı açıldı. O, döyüşdən zəfərlə qayıtmış cəngavər ədası ilə geriyə çəkilib Kənanı dəvət etdi. Qapının açılmasına həm Kənan, həm də cavan oğlan çox sevinmişdilər. Kənan yüyürüb avtomobilə yaxınlaşdı. Açıq qapını aralayıb içəri boylandı. O, avtomobilin içərisində ola biləcək izlərə zərər vermək istəmirdi. Avtomobilin bütün qapılarını açan düyməni sıxdı. Qapıların kilidi açıldı. Kənan arxa qapını açıb içəriyə baxdı. Burada gözünə heç nə dəymədi. Daha sonra avtomobilin yük bölümünü açdı. Burada kiçik qan izləri var idi. Kənan cibindən fənəri çıxarıb qan izlərinin üzərinə işıq saldı və daha yaxından baxmağa başladı. İndi tam dəqiq olaraq bilirdi ki, Kərimi bu avtomobillə qəza baş verən yerdən uzaqlaşdırıblar. Avtomobilin qabaq

sərnişin oturacağına yaxınlaşdı. Qapını açıb avtomobilin bu hissəsinə də diqqətlə nəzər yetirdi. Sərnişin oturacağının qarşısındakı yük bölümünü əl dəsmalı ilə açdı. Fənərin işığını yük bölümünə sarı tutub burada kiçik bir axtarış apardı. Yük bölümündə bir xəncər var idi. Xəncərin dəstəyinin üzərindəki naxışlar Kənanın diqqətini xüsusilə cəlb etdi. Bu naxışların forması Kənana sanki tanış gəlirdi. Əgər yaddaşı onu yanıltmırdısa belə bir naxış formasını daha əvvəl haradasa görmüşdü. Amma indi harada gördüyünü tam olaraq xatırlaya bilmirdi. Mobil telefonunu çıxarıb bu xəncərin şəkillərini çəkdi. Daha sonra xəncəri yerinə qoyub yük bölümünü bağladı. Avtomobildən bir neçə addım uzaqlaşıb avtomobilin də şəkillərini çəkdi. Cavan oğlan yenə də kənardan suallar yağdırırdı. Amma Kənanın bütün diqqəti indi avtomobilin üzərində idi. Buna görə də cavan oğlana, ümumiyyətlə, əhəmiyyət vermirdi. Avtomobilin şəkillərini də çəkdikdən sonra yenidən avtomobilə yaxınlaşıb onun BAN nömrəsinə baxdı. Mobil telefonunda həmin BAN nömrəsini qeyd edib avtomobilin açıq qalan bütün qapılarını bağladı. Çıxardıb kənara atdığı qamışlarla avtomobilin üzərini yenidən örtüb cavan oğlana yaxınlaşdı. Neçə gündən sonra Kənanın kefi ilk dəfə idi ki, yaxşılaşmışdı. Kənan cavan oğlana üzünü tutub:

Hə, dostum, qayıdaq kəndə yenidən, – dedi və keçib avtomobilə əyləşdi.

Cavan oğlan da qaçaraq gəlib avtomobilə əyləşdi. Sükan arxasına keçən kimi yenə də sual verməyə başladı:

– Müəllim, siz kimsiniz? Bu avtomobil niyə buradadır? Niyə avtomobili yenə də gizlətdiniz?

– Cavan oğlan, sənin adın nədir?

– Turxan.

– Turxan, götür bu yüz manatı. Bu pulu sənə gördüklərini heç kimin yanında danışmayasan deyə verirəm.

– Axı siz niyə mənim suallarıma cavab verməkdən imtina edirsiniz?

– Mənə bax, Turxan. İndi ya sən bu pulu götürüb heç kimə heç nə deməməyi seçməlisən, ya da ki, sənin bu avtomobil qapıları açma bacarığını polislə birgə ətraflı müzakirə etməliyik.

Cavan oğlan sakitcə pulu götürüb cibinə qoydu. Mühərriki işə salıb torpaq yola doğru hərəkət etməyə başladı. Torpaq yol hazırda olduqları yerdən bir qədər hündürdə yerləşdiyindən avtomobil yola qalxanadək bir qədər çətinlik çəkdi. Torpaq yola düzəldikdən sonra Kənan yenidən oğlanla söhbətə başladı:

– Qulaq as, qaranlığın düşməsinə az qalıb. İndidən sonra şəhərə qayıtmaq istəmirəm. Bu saatdan sonra otel axtarmaq da istəmirəm. Sizin kənddə mənə gecələmək üçün ev tapmaq olar? Əgər bir gecəlik evini kirayəyə verə biləcək biri varsa ödəniş etməyə də hazıram.

– Mənim əmimgil hazırda Rusiyada yaşayır. Evlərinin açarı da məndədir. Doğrudur, uzun müddətdir ki, ev təmizlənmir. Lakin istəsəniz sizi orada qonaq edə bilərəm. Heç bir ödəniş etməyinizə də ehtiyac yoxdur.

– Lap əla olar. Onda razılaşdıq. Gedək.

Turxan bir neçə dəqiqədən sonra artıq magistral yola çıxmışdı. Kənan isə cibindən mobil telefonunu çıxarıb xəncərin şəkillərinə baxırdı. Xəncərin dəstəyindəki bu bəzəkləri daha əvvəl harada gördüyünü xatırlamağa çalışırdı. Yol boyu heç biri bir kəlmə belə danışmadılar. Turxan da Kənanla son söhbətindən sonra danışmaq istəmirdi. Kəndə gəlib çatdıqdan sonra Turxan əvvəlcə avtomobili götürdüyü evin qarşısına yollandı. Onların hər ikisi avtomobildən endilər. Turxan qapını açarla bağladı və açarları sahibinə qaytarmaq üçün evə daxil oldu. Kənan bir qədər həyətdə var-gəl etdi. Turxan açarı götürərkən tez gəlsə də, geri verərkən nədənsə yubandı. Kənan başa düşdü ki, indi Turxana onun barəsində suallar verirlər. Ona görə də o, ümid edirdi ki, bu cavan oğlan boşboğazlıq etməz. Beş dəqiqədən sonra Turxan içəridən çıxdı:

– Bağışlayın bir az ləngidim. Buyurun gedək. Əvvəlcə bizim evdən əmimgilin açarlarını götürək, daha sonra keçərik ora.

– Sizin eviniz çox uzaqdadır?

– Yox. Narahat olmağa dəyməz. Burdan beş dəqiqəlik yoldu. Əmimgilin evi də bizim evin qonşuluğundadır.

– Yaxşı, onda gedək.

Həqiqətən də dörd-beş dəqiqədən sonra artıq Turxangilin evlərinin qarşısında idilər. Turxan əli ilə əmisigilin evlərini göstərib Kənana orada gözləməyi məsləhət gördü. Özü isə evlərinə keçdi. Kənan asta

addımlarla Turxanın göstərdiyi darvazaya yaxınlaşıb burada dayandı. Turxan bu dəfə çox keçmədən əlində açarlarla qaçıb gəldi. Əvvəlcə darvazanı açıb həyətə daxil oldular. Həyətə baxdıqda doğrudan da uzun müddətdir heç kimin yaşamadığı məlum olurdu. Həyəti alaq otları basmışdı. İri meyvə ağacları yaxşı vəziyyətdə olsalar da, kiçik ağacların əksəriyyəti susuzluqdan qurumuşdu. Həyətin ortasında kiçik bir ev var idi. Turxan otları ayağı ilə əzə-əzə evin giriş qapısına doğru addımladı. Kənan da onun arxasınca hərəkət edirdi. Turxan açarla evin qapısını da açdı. Qapının ağzında hörümçək tor bağlamışdı. Turxan yerdən kiçik taxta parçası götürüb toru bu taxta parçası ilə təmizlədi. Evin içərisini toz basmışdı. İçəridə elə bir əşya yox idi. Görünür, əmisigil Rusiyaya köçərkən əşyaları da aparmışdılar. Turxan yenə də evin vəziyyətinə görə üzr istəyib içəridəki otağa keçdi. Burada bir yataq var idi. Turxan otaqdakı şkafdan döşək və yastıq çıxarıb yatağın üzərinə qoydu. Daha sonra siyirməni açıb buradan döşək və yastıq üzü çıxarıb onları da yatağın üzərinə qoydu:

– Buyurun. Yatacağınız yer buradır. Əgər əlavə bir şeyə də ehtiyacınız varsa çalışaram təmin edim.

– Yox, çox sağ ol. Bunlar kifayətdir elə.

– Onda mən indi gedirəm. Siz rahat istirahət edin. Mobil nömrəmi götürün. Əgər yenə də nəsə lazım olsa əlaqə saxlayarsınız.

Kənan Turxanın nömrəsini telefonuna qeyd etdi. Daha sonra Turxanı yola salıb qapını bağladı. Qayı-

dıb yatağın üstündə oturdu. Bir qədər rahat bir otel tapıb getmədiyi üçün peşman oldu. Lakin sonra buna əhəmiyyət vermədi. Yerini rahatlayıb paltarlarını çıxardı və uzandı. Yenidən beynində həmin xəncər barədə düşünməyə başladı. İndiyə qədər əldə etdiyi nəticələr arasındakı əlaqəni aşkar etməyə çalışırdı. Lakin heç bir qərara gələ bilmirdi. Ən önəmlisi isə qatilin bütün bunları niyə etdiyini tapa bilmirdi. Gecədən xeyli keçməsinə baxmayaraq Kənanın gözünə yuxu getmirdi. Başa düşdüyü qədəri ilə heç səhərə qədər də yuxuya gedə bilməyəcəkdi.

# VII FƏSİL

Kənan avtomobilin axtarışında olan zaman Qurban müəllim hələ də evdə qonaq otağındakı divanda uzanmışdı. Yanına gəlib-gedən qonaqlarla söhbət edirdi. Qurban müəllimin son zamanlar yaşadığı iki böyük faciəyə və səhhətində yaranan problemlərə görə qohum-əqrəbaları onu ziyarət etmək, çətin günündə yanında olmaq istəyirdilər. Axşam saat doqquza yaxınlaşırdı. Artıq qonaqlar da dağılışıb getmişdilər. Qurban müəllim Səkinə xanımın da köməkliyi ilə evin içində bir qədər dövrə vurmağa qərar vermişdi. Bütün gün uzanmaqdan həm yorulmuş, həm də səbri daralmışdı. Buna görə də Səkinə xanımı səsləyib onun köməkliyi ilə evin içində gəzişməyə başladı. Nailə mətbəxdə şam yeməyi üçün süfrə hazırlayırdı. Kamran isə öz otağına keçib kompüterin qarşısında əyləşmişdi. Sosial şəbəkədə dostları ilə söhbətləşirdi. Ən yaxın dostu və keçmiş qrup yoldaşı olan Sahibə öz dərdlərindən danışırdı. Bu zaman tanımadığı birindən mesaj daxil oldu. Mesajı açıb oxuduqdan sonra gözləri bərəldi. Hirsindən sürətlə nəfəs almağa başladı. Yerindən sıçrayıb yumruğu ilə divara zərbə endirib yeyin addımlarla evin çıxış qapısına yönəldi. Qurban kişi Kamranın qapıdan çıxdığını görəndə arxasından qışqırdı:

– Kamran, hara gedirsən, bala, bu saatda?

– Həyətdə bir az gəzib qayıdacağam ata. Ürəyim sıxılır evdə. Çıxım bir az gəzim fikrim dağılsın.

– Yaxşı, get, amma uzaqlaşma. Özün də çox yubanma.

– Narahat olma. Yarım saata qayıdacağam.

Kamran eyni sürətli addımlarla həyətlə hərəkət edib həyət qapısından da çıxdı. Səkinə xanım Qurban kişini yenidən divana uzandırıb Kamranın açıq qoyduğu qapını bağlamağa yollandı. Qapını bağladıqdan sonra yenidən Qurban kişinin yanına qayıdıb:

– Ay kişi, bu Kamranın vəziyyətindən nə isə heç xoşum gəlmədi. Nə isə narahat görsənirdi.

– İndi bizim evdə kim narahat deyil ki, Səkinə? Hamımız üçün ağır vəziyyətdir. Yəqin ürəyi sıxılıb. Qoy çıxsın bir az hava alsın.

Səkinə xanım daha heç nə demədən otaqdan çıxdı. Mətbəxə yollanıb Nailəyə kömək etməyə başladı. Həkimin məsləhət gördüyü yeməklərdən siniyə qoyub Qurban kişiyə gətirdi. Qurban kişinin yeməsinə kömək etdikdən sonra sinini götürüb mətbəxə keçdi. Nailə ilə birlikdə burada şam etdilər. Sonra birlikdə qonaq otağına keçib Qurban kişi ilə birgə oturdular. Nailə telefonu ilə oynamağa başladı. Qurban kişi gözlərini yumub uzanmışdı. Onun dərin fikrə getməsi aşkar hiss olunurdu. Elə Səkinə xanım da gözlərini Qurban kişinin üzünə dikib xəyallara dalmışdı. Uşaqlarının körpə vaxtlarını xatırlayırdı. O, hələ də başlarına gələn bu faciələrə inanmırdı. Elə düşünürdü ki,

çox qorxulu və pis bir yuxu görür və çox keçmədən bu yuxudan ayılacaq, hər şey öz qaydasına düşəcək. Bəlkə də Səkinə xanımı ayaq üstə tutan bu ümid idi. Yoxsa çoxdan taqəti tükənərdi.

Qurban kişinin mobil telefonu zəng çalmağa başladı. O, Nailədən telefonunu gətirməsini istədi. Nailə cəld ayağa qalxıb telefonu götürdü və ekranına baxdı. Telefonu atasına uzadaraq:

– Kamrandı, – dedi.

Qurban kişi telefonu Nailədən alıb telefona cavab verdi:

– Hə, Kamran.

– Ata...

– Alo, Kamran. Nə olub? Alo.

Qurban kişi Kamranın yalnız ata sözünü başa düşə bilmişdi. Daha sonra xırıltılı səslər gəlirdi. Qurban kişi əlaqədə problem olduğunu düşünüb əlaqəni kəsdi və yenidən özü Kamrana zəng vurdu. Cavab gəlmirdi. Telefonun uzanıb gedən qudok siqnalları Qurban kişinin hövsələsini daraldırdı. Baş verən hadisələrdən sonra onsuz da hər an səksəkədə idi. Belə bir telefon zəngi isə onu, ümumiyyətlə, pis vəziyyətə salmışdı. Dəfələrlə telefon zəngləri etməsinə baxmayaraq heç bir cavab ala bilmədi. Qurban kişi bu dəfə ləngimədən dərhal Kənana zəng vurdu. Gecədən xeyli keçməsinə baxmayaraq Kənan sanki telefonun başında gözləyirmiş kimi dərhal cavab verdi:

– Buyurun, Qurban müəllim. Eşidirəm sizi.

– Kənan, indi də Kamran yoxdur ortalıqda. Təxminən iki saat əvvəl evdən çıxıb bir az hava alıb qa-

yıdacağını dedi. On dəqiqə əvvəl isə mənə zəng edib ata dedi, arxasınca isə xırıltılı səslər eşidildi. Daha sonra nə qədər əlaqə saxlamaq istəsəm də alınmadı. Sənə yalvarıram gec olmadan tap oğlumu.

Kənan eşitdiklərindən sonra uzandığı yerdən sıçrayıb ayağa qalxdı:

– Qurban müəllim, siz dərhal Rauf müəllimə də zəng vurub məlumat verin və Kamranın telefon siqnalından harada olmasını tapmasını xahiş edin. Mən də ən qısa vaxtda orada olacağam.

Qurban kişi razılıq verib telefon danışığını sonlandırdı. Kənan cəld hazırlaşıb, qaldığı evdən çıxdı. Avtomobilinə doğru gedərkən Turxana zəng edib evdən çıxdığını deməyi də unutmadı. Çox keçmədən avtomobilinə əyləşib yola düzəldi. Kəndin içində nisbətən yavaş sürətlə hərəkət etsə də magistral yola çıxdıqdan sonra sürətini artırdı. Yoldakı sürət radarlarına belə məhəl qoymadan yüksək sürətlə şəhərə doğru irəliləyirdi. Yolda Rauf müəllimlə özü də danışmaq qərarına gəldi. Telefonunu cibindən çıxarıb Rauf müəllimə zəng etdi:

– Alo. Rauf müəllim, salam.

– Salam Kənan müəllim.

– Yəqin ki, Qurban müəllim sizinlə əlaqə saxlayıb. Məsələdən agahsınız?!

– Bəli. Bir az əvvəl əlaqə saxladı. Mən də uşaqlara xəbər vermişəm. Telefon siqnalından harada olmasını tapmağa çalışırlar.

– Bilirəm deməyə ehtiyac yoxdur, amma çalışın mümkün qədər tez tapasınız. Hər keçən dəqiqə bizim əleyhimizədir.

– Vəziyyəti çox yaxşı başa düşürəm, Kənan müəllim. Narahat olmayın. Uşaqlar əllərindən gələni edirlər.

Kənan daha heç nə demədən telefonu yan oturacağın üzərinə atıb bütün diqqətini yola verdi və sürəti bir az da artırdı. Gecədən xeyli keçməsinə baxmayaraq yolda bir xeyli avtomobil var idi. Bu da Kənanı bir az yubadırdı. On dəqiqə sonra Rauf müəllimdən zəng gəldi. Kənan cəld telefonu götürüb:

– Tapıldı, Rauf müəllim?

– Uşaqlar telefon siqnalını tapıblar. Siqnal köhnə bir beton zavodundan gəlir. Biz hazırda yoldayıq. Ora yollanırıq.

– Mən şəhərdən kənardaydım. Hazırda yoldayam, gəlirəm. Siz də bacardığınız qədər tez gedin. Orada görüşərik.

Kənanın siqnalın beton zavodundan gəlməsindən heç xoşu gəlməmişdi. Artıq əminliklə bilirdi ki, burada həmin o "Əqrəbin" barmağı var. Ona görə daha çox tələsirdi. Avtomobillərin yanlarından sürətlə ötüb keçirdi. Şəhərə çatmağına artıq az qalmışdı. Rauf müəllimdən gələn zəng fikirdə olan Kənanı səksəndirdi. Kənan sanki pis bir xəbər gələcəyinə əminiymiş kimi telefonu götürdü:

– Bəli, Rauf müəllim.

– Kənan müəllim Kamranı tapdıq. Beton zavodunun qarşısında sinəsindən bıçaqlayıblar. Hələ hə-

yatdadır, lakin vəziyyəti ağırdır. Yaxşı ki, yanımızda təcili tibbi yardım stansiyasının işçilərini gətirmişdik. İndi Kamranı şəhər xəstəxanasına aparırlar. Biz də ora gedirik.

– Bilirdim belə bir şey olacağını, bilirdim. Bu Əqrəb mənim əməlli-başlı əsəblərimlə oynayır.

– Əqrəb? Nə əqrəb, Kənan müəllim?

Kənan əqrəb sözünü ağzından qaçırdığını sonradan başa düşdü. Ona görə tez cavab verib telefonu qapadı:

– Qatili nəzərdə tuturam, Rauf müəllim. Yaxşı, mən də birbaşa xəstəxanaya gəlirəm. Siz çalışın hələ ki, Qurban müəllimə xəbər verməyin.

Kənan telefonu yan oturacağın üzərinə hirslə çırpdı. İndi o, tamam hövsələdən çıxmışdı. Əsəblərini heç cür cilovlaya bilmirdi. Sükana bir neçə zərbə də endirdi. Daha sonra özü də hiss etmədən sürəti getdikcə artırmağa başladı. Yarım saat sonra artıq şəhər xəstəxanasının qarşısında avtomobili saxlamışdı. Cəld avtomobildən enib Rauf müəllimin dediyi binaya doğru qaçmağa başladı. Kamranı əməliyyata keçirtmişdilər. Kənan dəhlizdə Rauf müəllimi görüb yaxınlaşdı:

– Rauf müəllim, vəziyyət necədir? Necə oldu, Kamran?

– Yarası ürəyinə çox yaxındır, həm də dərindir. Çox qan itirib. Amma hələ ki, həyatdadır.

– Qurban müəllimə heç bir şey deməmisiz?

– Yox. Bu vəziyyətdə heç demək mümkün də deyil. Kamranın vəziyyəti bilinsin, daha sonra birtəhər xəbər edərik.

– Doğrudur.

Kənan əllərini belində birləşdirib dəhlizdə var-gəl etməyə başladı. Fikrini bir yerə toplayıb son tapdığı məlumatlardan bir nəticə çıxarmağa çalışırdı. Telefonu cibindən çıxarıb çəkdiyi şəkillərə baxmağa başladı. Əvvəlcə avtomobilin ümumi görüntüsünə diqqətlə baxdı. Daha sonra avtomobilin içərisindən tapdığı xəncərin üzərindəki naxışlara baxıb fikrə getdi. Bütün yaddaşını axtarıb buna bənzər naxışı harada gördüyünü xatırlamağa çalışırdı. Bir qədər bu barədə düşünsə də, belə bir naxışı daha harada gördüyünü xatırlaya bilmədi. Sonra avtomobilin BAN nömrəsinə baxdı. Rauf müəllimdən bir qədər uzaqlaşıb zəng etdi. Əslində zəng etdiyi nömrənin hələ də işləyib-işləmədiyini dəqiq bilmirdi. Bu onun tələbə yoldaşının nömrəsi idi. O vaxt Kənan Bakıda olanda yolda təsadüfən rastlaşarkən götürmüşdülər bir-birlərinin nömrələrini. Lakin aradan uzun illər keçmişdi. Hələ də həmin nömrəni istifadə edib-etmədiyini bilmirdi. Zəng artıq getməyə başlamışdı. Elə cavab da özünü çox gözlətmədi. Telefonda cavan bir qadın səsi eşidildi:

– Alo.

– Alo. Salam xanım. Mən Elçin müəllimə zəng vurmuşdum. Amma deyəsən səhv zəng etmişəm.

– Xeyr, xeyr. Bu, Elçin müəllimin nömrəsidir. Hazırda Elçin müəllim iclasdadır. Çıxanda deyim kim zəng vurmuşdu?

– Zəhmət olmasa deyərsiniz tələbə yoldaşı Kənan zəng vurmuşdu. Özümlə əlaqə saxlayar. Bir də deyin ki, çox vacib məsələdir.

– Aydındır. Çatdıraram özünə. Sağ olun.

– Çox sağ olun.

Kənan telefon danışığını yekunlaşdırdıqdan sonra yenə də xəncərin şəkillərinə baxmağa başladı. Axı harada görmüşdü bu naxışı? Heç cür səhv etmirdi. Dəqiq olaraq bilirdi ki, bu naxışı daha əvvəl haradasa görüb. Birdən naxışı gördüyü yeri xatırladı. İndi o, tutqun vəziyyətdə idi. Fikirləri daha da qarışmışdı. Bu dəm Rauf müəllim ağır addımlarla Kənanın yanına yaxınlaşdı:

– Kənan müəllim, siz bayaq telefonda bu Əqrəb məni hövsələdən çıxarır dediniz. Nəyi nəzərdə tuturdunuz əqrəb deyəndə? Mənə elə gəlir ki, siz o sözü mənasız yerə işlətmədiniz.

– Yox. Sadəcə, əsəbiləşmişdim. Həmin vaxt, sadəcə, əqrəb çıxdı ağzımdan.

– Siz yeni nəsə öyrənə bilməmisiniz?

– Mən də sizin kimi hər dəqiqə yeni nəsə öyrənməyə çalışıram. Amma hələ ciddi bir şey yoxdur.

Kənan birdən həkimin əməliyyat otağından çıxdığını gördü. Cəld yüyürüb vəziyyəti soruşdu:

– Həkim, vəziyyəti necə oldu?

– Çox təəssüf xilas etmək mümkün olmadı. Keçindi.

Kənan əsəbindən qışqırdı. Həkim yenidən sözə davam etdi:

– Xəstəxanaya gəlib çatdıqda çox qan itirmişdi. Yarası ürəyini tam olaraq zədələməsə də ürəyə çox yaxın idi. Bundan əlavə, təəccüblü hal, onda eyni zamanda zəhərlənmə əlamətlərinin olması idi.

– Necə yəni zəhərlənmə əlamətləri?

– Xəstədə həm də zəhərlənmə əlamətləri var idi. Böyük ehtimalla qanına zəhər də qarışmışdı.

Rauf müəllim zəhərlə bağlı sözləri eşitdikdə üzünü Kənana doğru döndü. Həkim sözünü qurtarıb onların yanından uzaqlaşdı. Rauf müəllim Kənana:

– Kənan müəllim sizin bayaq işlətdiyiniz əqrəb sözündən sonra bu zəhər məsələsinin ortaya çıxması, fikrimcə, təsadüf deyil. Xahiş edirəm məndən heç nə gizlətməyəsiniz. Deyin görüm nə məsələdir bu əqrəb?

– Darıxmayın, Rauf müəllim. Az qalıb, çox az qalıb. Yaxında sizə hər şeyi başa salacam.

Kənan üzünü çevirib pilləkənlərə doğru cəld addımlarla addımladı. Rauf müəllim arxadan bir neçə dəfə onu səsləsə də ona fikir vermədi. Pilləkənlərlə aşağı düşüb həyətə çıxdı. Avtomobilinə əyləşmək istəyərkən mobil telefonu zəng çaldı. Elçinin nömrəsindən zəng gəlirdi:

– Alo.

– Alo. Salam, Kənan. Bu nə xoş sürpriz oldu belə. Mən sənin Türkiyədə olduğunu eşitmişdim. Burada olduğunu heç bilmirdim.

– Salam, Elçin. Hə, Türkiyədə yaşayırdım. Təzəlikcə köçüb gəlmişəm. İndi deyəcəksən ki, illərdən sonra məni işi düşüb deyə axtarır, amma inan çox vacib məsələdir.

– O nə deməkdir, Kənan? Mən sənin xətrini həmişə çox istəmişəm. Buyur. Nə lazımdırsa canla-başla kömək edərəm.

– Çox sağ ol, Elçin. Əslində bayaq telefonu götürməməyin də qismətdən oldu. Əgər bayaq telefonu götürmüş olsaydın səndən, sadəcə, bir avtomobilin BAN nömrəsini soruşacaqdım. Lakin indi səndən həm həmin BAN nömrəsinin kimə aid olduğunu soruşacam, həm də bir nəfər haqqında məlumat istəyəcəm. Həmin o BAN nömrəsini də, şəxsin adını da indi sənə mesajla yollayacam. Mənə bunları öyrənib deməyini xahiş edirəm səndən.

– Əlbəttə. Sən mesajla yolla. Əlimdən gələni edərəm.

– Hə bir də, həmin şəxsin Qurban Kazımovla və ya onun ailəsi ilə nə kimi bir əlaqəsi olduğunu öyrənməyini xahiş edirəm.

– Hansı Qurban Kazımov?

– Yəqin ki, son günlər baş verən qətllər haqqında eşitmisən. Həmin o Qurban müəllim.

– Düzü, mənim də ağlıma elə o gəldi, amma sənin onunla nə kimi bir əlaqən var, onu başa düşə bilmədim.

– O, barədə bir dəfə oturub çay içərək söhbət edərik.

– Yaxşı, qardaş. Mən mümkün qədər tez öyrənib sənə məlumat verərəm.

– Elçin, səndən bir xahişim daha var. Səndən bu soruşduqlarım barədə heç kimə bir söz demə. Aramızda qalsın.

– O nə sözdür, Kənan?! Arxayın ol.

– İndidən təşəkkür edirəm sənə. Xudahafiz.

– Xudahafiz.

Kənan artıq yavaş-yavaş sona yaxınlaşdığını hiss edirdi. Deyəsən artıq qatilin kim olduğuna əmin idi.

Elçindən alacağı məlumatlar çox şeyi həll edəcəkdi. İndi Qurban müəllimgilə gedib Kamran haqqında bir az məlumat almaq lazım idi. Kənan Qurban müəllimin Kamranın ölümü barədə xəbər tutmasından əvvəl orada olmaq istəyirdi. O, yaxşı başa düşürdü ki, Qurban müəllim bu xəbəri aldıqdan sonra onlarla yenidən söhbət etmək artıq qeyri-mümkün olacaq. Ən azından uzun müddət yaxınlaşmaq olmayacaq yanlarına. Buna görə də Qurban müəllimgilə doğru tələsirdi. Şəhərdə hər zamankı kimi tıxacın olması onu hövsələdən çıxarırdı. Tıxacda bir xeyli yubansa da, nəhayət, Qurban müəllimgilə gəlib çatmışdı. Nailə Kənana qapını açıb onunla salamlaşdı. Kənan Qurban müəllimin oturduğu otağa keçib onunla da salamlaşdı. Keçib Qurban müəllimlə üzbəüz əyləşdi. Kənanın gəldiyini eşidən Səkinə xanım da mətbəxdən qaçıb gəldi. Qurban müəllim səbirsiz halda:

– Nə oldu, Kənan? Bir xəbər bildiniz Kamrandan?

Kənan gözlərini Qurban müəllimdən yayındırıb:

– Xeyr, Qurban müəllim. Hələ heç bir xəbər yoxdur. Bura gəlməkdə məqsədim də elə odur. Siz mənə deyin görüm Kamran nə vaxt evdən çıxdı?

– Təxminən saat 21:15 olardı. Birdən Kamranın qapını açdığını gördüm. Arxasından səsləyib hara getməsini soruşdum. Ürəyi sıxıldığını, bir az hava alıb qayıdacağını dedi. Mən də etiraz etmədim. Amma çox yubanmamasını tapşırdım. Kamran evdən çıxdıqdan sonra anası mənə Kamranın halından xoşu gəlmədiyini dedi. Elə mən də bəyənməmişdim halını. Amma fikirləşdim ki, yəqin bu hadisələrlə bağlıdır.

– Evdən çıxmamışdan əvvəl nə edirdi? Çıxmazdan əvvəl telefonuna zəng gəlməmişdi?

– Öz otağındaydı. Kompüterlə məşğul idi. Telefonun səsini eşitməmişəm. Bəlkə də səssizə qoyubmuş. Onu deyə bilmərəm. Amma nə bizim yanımızda telefonla danışıb, nə də biz telefon səsi eşitmişik.

Kənan Nailədən Kamranın otağını göstərməsini xahiş etdi. Onlar birlikdə Kamranın otağına keçdilər. Kənan Nailəyə minnətdarlıq edib keçib otağa baxmağa başladı. Nailə yenidən atasıgilin yanına qayıtdı. Kənan Kamranın otağına bir qədər nəzər yetirib kompüter stoluna yaxınlaşdı. Burada masanın üstündə bir “notebook” var idi. Kənan onun qapağını açdı. Ekran dərhal işıqlandı. Kənan ekranın dərhal işıqlanmasından Kamranın onu söndürmədən evdən çıxdığını başa düşdü. Görünür, evdən çıxarkən tələsirmiş. Buna görə də, sadəcə, ekranı örtməklə kifayətlənib. İndi daha bir problem var idi. Çünki Kamranın kompüteri şifrə ilə mühafizə olunurdu. Bu Kənanın qanını qaraltdı. Əyləşdiyi stuldan qalxıb Qurban müəllimgilin oturduğu otağa yollandı. Nailədən Kamranın kompüterinin şifrəsini bilib-bilmədiyini soruşdu. Xoşbəxtlikdən bir neçə gün əvvəl Nailə Kamrandan icazə alıb kompüterindən istifadə etmişdi. Həmin vaxt kompüter yenə də şifrə ilə mühafizə olunduğundan Nailə şifrəni qardaşından öyrənmişdi. Nailə Kənana şifrəni səsləndirdi. Kənan yenidən Kamranın otağına qayıdıb kompüterin arxasında əyləşdi. Nailədən öyrəndiyi şifrəni daxil etdi. Kilid aradan qalxdı və kompüter açıldı. Kənan

ekrandakı simvollara nəzər yetirdi. Daha sonra internet proqramının açıq qaldığını gördü. Həmin proqramı açdıqda Kamranın “facebook” profilinin də açıq vəziyyətdə olduğunu gördü. Burada Kamranın mesaj qutusuna daxil olub gələn mesajları gözdən keçirdi. Sahib adlı istifadəçidən gələn bir neçə cavabsız və oxunmamış mesaj var idi. Kənan əvvəlcə həmin mesajı açıb son yazılanları oxudu. Kamran son olaraq Sahibə təcili olaraq evdən çıxmalı olduğunu yazmışdı. Bundan sonra isə Sahib onun hara getməsini maraqlanmaq üçün bir neçə mesaj yollasa da Kamran, görünür, bunları oxumadan evdən çıxmışdı. Kənan yenidən mesaj qutusuna qayıdıb burada olan ikinci mesaja daxil oldu. Bu da İlkin adlı istifadəçidən daxil olmuşdu. Burada Sahibdən fərqli olaraq qarşılıqlı dialoq kimi danışıq yox idi. Sadəcə, İlkindən bir mesaj daxil olmuşdu. Həmin mesajı oxuyanda Kənan Kamranın niyə evdən belə təcili olaraq çıxmasını başa düşmüşdü. Mesajın mətni iki qardaşını itirmiş insan üçün olduqca təsirli idi: “Bu mənəm, qardaşlarının əzrayılı. Nurlanın da, Kərimin da canını mən almışam. Əgər intiqam almaq istəyirsənsə sənə, sadəcə, bir fürsət tanıyacam. Elə indi, səni Bakıxanovdakı köhnə beton zavodunun yanında gözləyirəm. Kişiliyin çatırsa tək gəl və bacarsan qardaşlarının intiqamını al. Bu sənə verəcəyim ilk və son şansdır. Əgər hiss etsəm ki, ora tək gəlməmisən, yanında hər hansı biri var, məni görməyəcəksən. Bundan sonra da onsuz da məni tapa bilməyəcəksən. Gözləyəcəm səni. Təbii ki, əgər kişiliyin

çatsa”. Kənan mesajı oxuduqdan sonra başa düşdü ki, Kamran niyə heç kimə heç nə demədən tələsərək evdən çıxıb. O, Rauf müəllimə zəng edib mesaj barədə məlumat verdi və mətnini ona oxudu. Ondan sonra mütəxəssislərlə birlikdə Qurban müəllimgilin evinə gəlib həmin mesajın hansı ünvandan göndərildiyini tapmasını xahiş etdi. Bir də hələ ki, Qurban müəllimgilə Kamran barədə heç bir şey deməməsini tapşırdı. Daha sonra Kənan yenidən Qurban müəllimin yanına qayıtdı. Otaqdan içəri keçmədən elə qapıdaca xudahafizləşib evdən çıxdı. Həm bir az istirahət etmək, həm də paltarını dəyişmək üçün öz evlərinə getməyi qərara aldı. Uşaqlardan ötrü də çox darıxmışdı. Neçə gün idi ki, uşaqlarla vaxt keçirə bilmirdi. Avtomobilinə əyləşib evə doğru yol aldı. Qapını döydükdə monitordan atalarını görən uşaqların sevinc qışqırıqları eşidildi. Nuridə qapını açar-açmaz uşaqların hər ikisi atalarının üstünə atlandı. Kənan hər ikisini öpüb qucaqladı. Sonra Nuridə ilə də salamlaşıb yataq otağına keçdi. Köynəyini əynindən çıxarıb çarpayının üstünə atdı. Hamama girib duş almaq qərarına gəldi. İsti su onun həm bədənini rahatlaşdıracaqdı, həm də fikirlərini bir yerə toplamağına kömək edəcəkdi. Kənan ilk dəfə idi ki, hamamda bu qədər çox qalırdı. Təxminən bir saatdan sonra çıxdı içəridən. O, adətən on-on beş dəqiqəyə yuyunub çıxmağı sevirdi. Lakin bu dəfə vəziyyət fərqliydi. Bu dəfə bir saatın keçməsindən, ümumiyyətlə, xəbəri yox idi. Dərin fikirlərə dalması ona zamanın keçməsini hiss etdirməmişdi.

Hamamdan çıxdıqdan sonra bir qədər uşaqlarla oynamaq istəsə də beynindəki fikirlər buna mane olurdu. O bu fikirlərdən azad olmamış uşaqlarla oynaya bilməyəcəyini başa düşüb yanlarından ayrıldı. Gəlib öz yerində uzandı. Əslində çox yorğun idi və gözləri yumulurdu. Amma hazırkı vəziyyətdə yatmağı sanki işinə xəyanət kimi qəbul edirdi. Bir də bu fikirlər onsuz da ona yatmağa imkan vermirdi. Hələ ki, edəcəyi çox bir şey də yox idi. Elçindən gələcək cavabı və Kamranın meyitinin ekspertizasının nəticəsini gözləməli idi. Kamrana mesaj yazan həmin o İlkin adlı istifadəçinin mesajı hardan yollamasını öyrənməyin də faydası ola bilərdi. Amma Kənan bunun elə də bir faydası olacağını düşünmürdü. Böyük ehtimalla həmin o profil, sadəcə, Kamrana mesaj yazmaqdan ötrü yaradılmış saxta bir profil idi. Mesajın yollandığı yerlə də hansısa nəticə əldə ediləcəyinə ümid az idi. Buna görə də Kənan buna elə də əhəmiyyət vermirdi. İndi onun üçün ən əsası Elçindən gələcək cavab idi. Kənan beynində bu fikirləri dolandırarkən qeyri-ixtiyarı olaraq yuxuya getdi.

Kənan yuxudan Rauf müəllimin zəngi ilə oyandı. Gözlərini güclə açıb telefonun ekranına baxdıqda Rauf müəllimin adını görüb cavab verdi:

– Alo. Eşidirəm Rauf müəllim.

– Kənan müəllim, mesajın göndərildiyi ünvanı tapdıq. Sonra polis işçiləri ilə birlikdə həmin ünvana yollandıq. Mesaj Nərimanov parkının yaxınlığında yerləşən bir internet klubdan göndərilmişdi.

– Belə olacağını təxmin etmişdim. Bilirdim ki, heç vaxt qatil öz ünvanından yollamaz bu mesajı. İnternet klubda təhlükəsizlik kameraları var?

– Xeyr. Heç bir təhlükəsizlik kamerası yoxdur. Amma klubun yerləşdiyi küçəyə yaxın dövlət yol polisinin nəzarət kameraları var. Hazırda həmin kameralardakı görüntüləri araşdırırıq.

– Bəs internet klubda işləyənlərdən həmin saatda kimlərin gəldiyini bilən yoxdur?

– İnternet klubu işlədən oğlan həmin vaxt, ümumiyyətlə, bütün stollarının dolu olduğunu, ona görə də heç bir şey deyə bilməyəcəyini bildirdi.

– Aydındır. Məncə, heç yol polisinin də kameralarına baxıb özünüzü yormağınıza ehtiyac yoxdur. Heç bir nəticə əldə edə bilməyəcəksiniz.

– Biz yenə də araşdırsaq yaxşıdır. Ancaq mənim də nə isə tapacağımıza ümidim yoxdur.

– Yaxşı. Gecəniz xeyrə.

Kənan telefonu qırağa qoyub yenidən yatmaq qərarına gəldi. Zəngli saatı səhər 09:00-a qurmağı da unutmadı. Səhər tezdən qalxıb ekspertiza mərkəzinə gedəcəkdi.

Səhər zəngli saat çalmamış Kənan özlüyündən oyandı. Telefonun ekranında saata baxdıqda saatın səkkiz olduğunu gördü. Yerindən qalxıb mətbəxə yollandı. Çaydanı qazın üstünə qoyub əl-üzünü yumağa getdi. Nuridəni oyatmaq istəmirdi. Ona görə çayı da özü dəmləyib səhər yeməyi yedi. Yataq otağına qayıdıb paltarını dəyişdikdə Nuridə səsə oyandı:

– Sabahın xeyir.

– Sabahın xeyir.

– Yenə tezdən durmusan. Hara gedirsən belə?

– Bir az işlərim var. Onları yoluna qoymalıyam.

– Bircə bu işlə də qurtarsaydın rahatlaşardıq. Sənə görə çox narahat oluram. Həm də özünü çox yorursan.

– Az qalıb, Nuridə. Narahat olma. Yekunlaşdıracam Allah qoysa.

– Yaxşı. Qoy qalxım sənə bir tikə səhər yeməyi hazırlayım heç olmasa.

– Yox, yox. Qalxma. Yemək yemişəm artıq. Çıxıram evdən.

– Nahaq yerə məni oyatmamısan. Nə isə. Özündən muğayat ol.

– Baş üstə, rəis! – Kənan Nuridənin narahatlığını azaltmaq üçün zarafat etdi. Nuridə də rəis sözündən xoşhal olmuşdu. Kənan öz yataq otaqlarından çıxıb uşaqların yataq otağına keçdi. Uşaqların hər ikisi yatmışdı. Kənan əyilib hər ikisinin üzündən öpüb evdən çıxdı. Avtomobilinə əyləşib birbaşa olaraq ekspertiza mərkəzinə yola düşdü. Son vaxtlar bura tez-tez gəlməsi artıq qapıdakı polis işçilərinin onu tanımasına səbəb olmuşdu. Artıq onlar Kənana heç bir maneçilik törətmədən içəri keçməsinə icazə verirdilər. Kənan Kamranın cəsədinin harada olması ilə maraqlanıb həmin otağa yollandı. İçəri daxil olub buradakı ekspertlə salamlaşdı. Bu ekspert Kənanı tanımırdı. O özünü təqdim etdikdən sonra ekspertin çox da razı

qalmadığını hiss etdi. Görünür, ekspert belə qonaqları lazımsız hesab edirdi. Kənan buna elə də əhəmiyyət verməyərək ekspertlə söhbətə başladı:

– Bilirəm gəlişimlə sizi narahat edirəm, amma çox vaxtınızı almayacam. Sadəcə, bir neçə sual verib gedəcəyəm.

– Yox, buyurun. Problem yoxdur.

– Kamranı əməliyyat edən həkim onda bıçaq yarasından əlavə zəhərlənmə əlamətlərinin olmasından bəhs etdi. Siz belə bir halla rastlaşmısınız?

– Bəli. Kamranın qanında zəhər də aşkar olundu. Böyük ehtimalla bu əqrəb zəhəridir və xəsarəti yetirən bıçağın üzərində olub. Zəhər qana qarışdıqdan bir neçə dəqiqə sonra bədəni iflic vəziyyətinə gətirir.

– Ölümə səbəb həmən bu zəhər idi, yoxsa aldığı xəsarət?

– Yox, bu zəhər bədəni iflic vəziyyətinə gətirsə də öldürücü deyil. Kamranın ölümünə səbəb əsas olaraq çox qan itirməsi olmuşdur.

– Çox sağ olun. Minnətdaram, məlumat verdiyiniz üçün.

– Buyurun.

Kənan ekspertlə sağollaşıb oradan ayrıldı. Avtomobilinə əyləşdikdən sonra cibindən mobil telefonu çıxarıb Elçinə zəng etdi. Elçin telefona dərhal cavab verdi:

– Salam, Kənan. Necəsən?

– Salam, Elçin. Çox sağ ol. Sən necəsən?

– Şükür Allaha. Mən də bir azdan sənə zəng edəcəkdim. İstədiyin məlumatları öyrənmişəm. Deməli...

– Yox, yox, gözlə. Telefonda deməyinə ehtiyac yoxdur. Sənə daha bir zəhmət verib səndən o məlumatları yazılı şəkildə istəyirəm.

– Heç bir zəhməti yoxdur. Onsuz da məndə yazılı vəziyyətdədir. Oradan oxuyacaqdım sənə. Necə çatdırım bu sənədləri sənə?

– İndi özüm gəlib götürəcəm. İş yerindəsən?

– Aha. Gələndə xəbər et, qapıdakı polisə tapşırım səni buraxsın yuxarı.

– Oldu, Elçin. İyirmi dəqiqəyə orada olaram.

– Gözləyirəm.

Kənan telefon danışığını yekunlaşdırdıqdan sonra birbaşa Elçinin iş yerinə yollandı. Elçindən alacağı məlumatlar onun üçün həyati əhəmiyyət kəsb edirdi. Ona görə də həmin məlumatları öyrənmək üçün tələsirdi. Yolda bir qədər yubansa da, nəhayət, Elçinin iş yerinə gəlib çata bilmişdi. İdarəyə daxil olduqda polis işçisi ondan nə lazım olduğunu soruşdu. Kənan polis işçisinə Elçin müəllimin yanına gəldiyini bildirdi. Polis daxili telefonla Elçin müəllimə zəng vurub Kənan adlı birinin gəldiyini məruzə etdi. Aldığı cavabdan sonra dərhal Kənana Elçin müəllimin otağının yerini başa salıb yola saldı. Kənan liftə doğru gedib düyməni sıxdı. Liftin gəlməsini gözləyərkən binaya ümumi nəzər yetirməyə başladı. O, Bakının ötən illər ərzində bu qədər dəyişəcəyini gözləmirdi. Türkiyəyə yollanmamışdan əvvəlki Bakı ilə hazırkı Bakı arasında çox fərq var idi. Elə bu bir neçə gündə getdiyi dövlət binalarında da bunu hiss etmişdi. Köhnə, uçuq-sökük

binalar ya yeniləri ilə əvəz olunmuşdu, ya da əsaslı təmir olunmuşdu. Məhz elə bu bina kimi.

Liftin qapısı açıldı. Kənan içəri daxil olub üçüncü mərtəbənin düyməsini basdı. Elçin liftin qabağında Kənanı gözləyirdi. Qapı açılan kimi bir-birlərini görüb, görüşüb qucaqlaşdılar.

– Kənan, xoş gəlmisən. Həmişə vətənində.

– Xoş gördük, qardaş. Xoş gününə gələk.

– Buyur, keçək kabinetimə.

Dəhlizlə birlikdə addımlayıb Elçinin kabinetinə daxil oldular. İçəri keçdikdə Elçin katibəsinə başı ilə işarə verdi. Kənan Elçinin onu belə qarşılamasından çox razı qalmışdı. Elə Elçinin də üzündə Kənanı gördüyü üçün məmnunluq hiss olunurdu. Elçin gəlib Kənanla üzbəüz əyləşdi. Bir neçə dəqiqədən sonra katibə onlara çay gətirib masanın üstünə qoydu və otaqdan çıxdı. Elçin katibə qapını bağladıqdan sonra söhbətə başladı:

– İllər necə keçib, Kənan. Səni sonuncu dəfə gördüyümdən gör neçə il keçib. Nə yaxşı ki, zəng etdin. Səni gördüyümə çox şad oldum. Ötən illər səni yaman qocaldıb. – Elçin Kənanla zarafatlaşdı. Kənan da öz növbəsində Elçinlə zarafat etdi:

– Sən isə bu ötən illərdə cavanlaşmısan.

– Əşi, saçımız-saqqalımız ağarıb. Çayını iç, soyutma.

Kənan çayından bir qurtum alıb yenidən söhbətə davam etdi:

– Vallah bu qədər ildən sonra işim düşüb deyə səni axtardığıma utanıram. Amma səndən başqa mənə kömək edə biləcək heç kimi tanımırdım.

– O nə sözdür danışırsan? Elə o iş vəsilə oldu. Səni görə bildim. Artıq Bakıdasansa tez-tez görüşərik.

– Hə, artıq Bakıda yaşayacam. Mən də şad olaram səninlə görüşməkdən.

Elçin ayağa qalxıb yazı masasına doğru getdi. Əyilib siyirməsindən bir qovluq çıxardı. Yenidən qayıdıb Kənanla üzbəüz əyləşərək qovluğu ona uzatdı. Kənan qovluğu alıb tez içərisindəki kağızlara nəzər yetirməyə başladı. O, həmin kağızlara nəzər yetirərkən Elçin söhbətə davam etdi:

– Hələ ki, öyrənə bildiklərim bunlardı. Əgər başqa da nə isə lazım olsa çalışaram öyrənim. Amma bu məlumatlar sənin nəyinə lazımdır, axı? Sənin Qurban müəllimlə nə əlaqən var?

– Qurban müəllim məndən ona köməklik etməyimi xahiş edib. Mən də hazırda onun xahişini yerinə yetirirəm. İcazə versən sənə bu haqda daha sonra danışaram. İndi bir qədər tələsirəm.

– Yaxşı. Nə olar?! Sonra söhbət edərik.

– Mənim nömrəm səndə qalıb yəqin ki. Bu yaxınlarda vaxt edib görüşərik. Ailənlə ailəmi də tanış edərik.

– Çox gözəl fikirdir, qardaş. Zəngini gözləyəcəm sənin.

– Xudahafiz.

Elçin ayağa qalxıb Kənanı dəhlizə qədər yola saldı. Kənan dəhlizdə Elçinin əlini sıxıb onunla bir daha sağollaşdı və liftə doğru addımladı. Kağızlarda yazılanları oxumaq üçün səbirsizlənirdi. Elə ona görə də yeriyə-yeriyə oxumağa davam edirdi. Binadan

çıxıb avtomobilinə yönəldi. Keçib sükanın arxasında əyləşib kağızlarda yazılanları oxumağa davam etdi. Burda yazılanları oxuduqca o, artıq gəldiyi nəticənin doğruluğuna əmin olmağa başlamışdı. Lakin bütün bunların törədilmə səbəbi hələ də müəmmalı olaraq qalırdı. Kənan cibindən qələm çıxarıb kağızda qeyd olunan bir ünvanı dairəyə aldı. Daha sonra vərəqləri axıra qədər oxuyub bitirdi. Artıq onun Əqrəbin kimliyi barədə şübhələri qalmamışdı. Sadəcə, bu cinayətlərin törədilmə səbəblərini öyrənə bilmək üçün həmin o ünvana yollanmaq qərarına gəldi. İnformasiya xidmətinə zəng vurub həmin ünvanın harada yerləşməsi barədə məlumat aldı. Daha sonra mühərriki işə salıb həmin ünvana yollandı. Burada bir neçə köhnə ikimərtəbəli binalar var idi. Kənan avtomobildən enib ətrafa nəzər saldı. Yaxınlıqda əllərində siqaretlə dayanıb söhbət edən iki cavan oğlan var idi. Kənan onlara yaxınlaşıb ünvanı soruşdu. Gənclərdən biri bir qədər fikirləşdikdən sonra əli ilə ikimərtəbəli binalardan birini göstərib:

– O binanın ikinci mərtəbəsi olmalıdır səhv etmirəmsə.

– Orada indi kim qalır, bilmirsən?

– Siz niyə axtarırsınız ki, həmin ünvanı?

Kənan kağızlardan oxuduğu qadının adını səsləndirdi:

– Mən onların qohumuyam. Uzun illərdir ki, ölkə xaricindəydim. İndi bu ünvanda yaşadıqlarını eşitmişəm.

– Mən bildiyim qədəri ilə orada elə bir adam yaşamır. Amma yenə də özlərindən soruşarsız. Mən həmin ünvandan bir dənə Yaşar əmini tanıyıram.

– Çox sağ ol.

Kənan gəncin göstərdiyi binaya doğru gedib bloka daxil oldu. Pilləkənlərlə ikinci mərtəbəyə qalxıb qapını döydü. Qapını 55-60 yaşlarında bir kişi açdı. Kənan dərhal özünü təqdim etmək istədi:

– Salam. Mən bu şəkildəki xanımı axtarırdım. Bildiyimə görə bu ünvanda yaşayır – Kənan əlindəki şəkli kişiyə uzatdı.

Kişi şəkli alıb bir qədər diqqətlə baxdıqdan sonra xatırladı:

– Biz evi on il əvvəl bu xanımdan satın almışıq. Şəkildə cavan vaxtlarıdır. Ona görə də dərhal tanıya bilmədim.

– Bilmirsiniz mən bu xanımı necə tapa bilərəm? Mənim üçün çox vacibdir.

– Xeyr, hazırda harada olmasını bilmirəm. Bizim onlarla əlaqəmiz olmayıb. Amma uzun müddət əvvəl xanımın rəhmətə getdiyini eşitmişdim. Lakin doğru olub-olmadığına əmin deyiləm. Siz niyə axtarırsınız ki, bu xanımı?

– Məndə bir əmanət var. Ona çatdırmalıyam. Buna görə də o xanımı tapmaq mənim üçün vacibdir. O, burada tək yaşayırdı?

– Mən o xanımı yalnız bircə dəfə mənzili alarkən görmüşəm. Ona görə bir məlumatım yoxdur. Yalnız qonşuluqda yaşayan Nəsibə xala var. O, tanıyar xanımı. Uzun müddət qonşu olublar.

– Çox sağ olun yardımınıza görə. Üzrlü hesab edin sizi də narahat etdim.

– Buyurun.

Kənan kişidən öyrəndiyi mənzilə doğru getdi. Qapını döydü. Bir qədərdən sonra yaşlı bir qadın səsi içəridən səsləndi:

– Kimdir?

– Adım Kənandır. Sizin köhnə qonşunuzu axtarıram. Ona çatası əmanət var məndə. Mənim üçün çox vacibdir. Qapını açsanız sizinlə rahat danışardıq.

Qapını açan xanım həqiqətən də 70-dən artıq yaşı olan, bir az kök, ağbənizli, nurani üzlü bir qadın idi. Kənan qapını açan xanıma:

– Siz yəqin ki, Nəsibə xalasınız.

– Bəli. Məni hardan tanıyırsan, ay bala?

– Adınızı qonşunuzdan öyrəndim. Mənə dedi ki, bu şəkildəki xanımı siz tanıyarsınız. Sizin qonşunuz olub.

Nəsibə xala şəkli əlinə alan kimi dərhal tanıdı və köksünü ötürdü. Sonra üzünü Kənana çevirib:

– Hə, tanıyıram bu qadını. Uzun müddət əvvəl mənim qonşum olub. Nə edirsən bala bu qadını?

– Məndə ona çatası bir əmanət var, xala. Necə tapa bilərəm onu?

– Artıq heç cür tapa bilməzsən. O qadın səkkiz il əvvəl vəfat edib.

– Siz bunu dəqiq bilirsiniz?

– Başına dönüm, mən onun yas mərasimində də iştirak etmişəm. Hələ bir dəfə qəbrini də ziyarət et-

mişəm. O vaxt aramız yaxşı idi onunla. Köçüb getdikdən sonra ünsiyyətimiz bir qədər zəiflədi. Sonra da qismət elə gətirdi ki, o dünyadan köçdü.

– Başa düşürəm. Onda mənə həmin qadın haqqında və ya qohum-əqrəbası barədə bir məlumat verə bilərsiz?

– Gəl keç içəri. Əyləşək söhbət edək. Mənim ayaqlarımda taqət yoxdur, bala. Sən cavansan, məni özün kimi sanma, – yaşlı qadın gülümsündü.

O, Kənanın üzündən və danışığından pis insan olmadığını hiss etmişdi. Onsuz da bütün gün evdə təklikdən darıxan qadın söhbətləşməyə adam axtarırdı. Kənan xanımın dəvətini qəbul edib içəri daxil oldu. Ayaqqabılarını soyunub yaşlı qadının işarə etdiyi otağa keçib divanda əyləşdi. Ev köhnə və təmirsiz vəziyyətdə idi. Lakin buna baxmayaraq yaşlı qadın evi çox səliqəli saxlayırdı. Nəsibə xala Kənanı divanda əyləşdirdikdən sonra:

– Bala sən otur. Mən bu saat bir stəkan çay süzüm gəlirəm.

– Ay xala, vallah əziyyət çəkmə. Çox vaxtım da yoxdur. Gəl söhbət edək, gedirəm.

– Yox, yox, bala, sən Allah qonağısan. Bu saat bir çay gətirim içə-içə söhbət edərik.

Nəsibə xala mətbəxə yollanıb çay gətirməyə getdi. Kənan isə həmin divanda əyləşib yaşlı qadını gözləyərkən otağın hər tərəfinə nəzər salırdı. Nədənsə bu ev birdən ona uşaqlığını xatırlatdı. O, kasıb ailədə böyümüşdü. Evləri də bundan bəlkə daha da pis vəziy-

yətdə idi. Lakin ailələrindəki mehribanlıq ona həmin vaxt heç hiss elətdirməmişdi evlərinin nə vəziyyətdə olduğunu. Atası zəhməti ilə çalışan adam idi. Səhər tezdən evdən çıxır, bir də gecə saatlarında evə qayıdırdı. Elə o zəhmətlə Kənanı da, qardaşını da oxuda bilmişdi. İndi hər ikisinin imkanı pis deyildi. İndiki vəziyyətlərinə görə də həmişə özlərini rəhmətlik atalarına borclu hesab edirdilər.

Kənan bu fikirlərdəykən Nəsibə xala əlində iki stəkan çayla gəlib onunla üzbəüz əyləşdi. Kənan getdiyi xəyallardan ayılıb Nəsibə xalaya təşəkkür etdi. Daha sonra Nəsibə xala ilə söhbətə başladılar. Nəsibə xala həmin qadından uzun-uzun danışdı. Kənan xeyli söhbətləşdikdən sonra saatına baxdı. Artıq saat yarım idi ki, buradaydı. Kənan söhbəti yekunlaşdırıb oradan ayrılmaq qərarına gəldi:

– Nəsibə xala, çox sağ olun həm çaya görə, həm də verdiyiniz məlumatlara görə. Sizə minnətdaram.

– Xoşdu, başına dönüm.

– İcazə verirsinizsə mən gedim?!

– Buyur, bala. Amma heç çayını da içmədin. Soyutdun. Gəl təzələyim bir stəkan çay iç sonra get.

– Çox sağ olun. Bir az tələsirəm. Gələn səfər içərəm. Sizi tanıdığıma şad oldum, Nəsibə xala.

– Sağ ol, Kənan. Mən də səni tanıdığıma sevindim. Maşallah, çox mərifətli oğlansan. Allah saxlasın səni.

– Xudahafiz, Nəsibə xala.

– Allah amanında bala, Allah amanında.

Kənan ayaqqabılarını geyinib qapıdan çıxdı. Avtomobilinə doğru gedərkən artıq yüngülləşmiş kimi

hiss edirdi. Çünki artıq əqrəbin kimliyini də, bu cinayətləri törətmə səbəbini də bilirdi. Təbii ki, bütün bunların səbəbini daha dəqiq elə əqrəbin özündən öyrənə bilərdi. O, avtomobilinə əyləşən kimi mobil telefonundan Rauf müəllimə zəng çaldı:

– Rauf müəllim, salam.

– Salam, Kənan müəllim.

– Mən Qurban müəllimgilin evinə gedirəm. Sizdən də ora gəlməyinizi xahiş edirəm.

– Nə olub, Kənan müəllim? Nəsə yenilik var?

– Siz gəlin orada hər şeyi danışacam sizə.

– Yaxşı, bu dəqiqə mən də yola düşürəm.

Kənan daha bir neçə nəfərə də zəng edib Qurban müəllimgilə gəlməsini xahiş etdi. Özü isə evə gedib paltarını dəyişib daha sonra Qurban müəllimgilə getmək qərarına gəldi. Avtomobili ilə evə doğru yola düşdü. Çox keçmədən artıq evlərinin həyətində avtomobili saxlayıb yeyin addımlarla yuxarı qalxdı. İçəri keçib Nuridə ilə salamlaşıb, uşaqların üzündən öpüb cəld yataq otağına keçdi. Nuridə onun tələsdiyini görüb arxasınca yataq otağına getdi:

– Nə olub Kənan? Yaman tələsirsən? Xeyirdimi?

– Bu işin də sonuna çatdım, Nuridə. Bu gün artıq yekunlaşır.

– Şükür Allaha. Amma bax mənə söz vermisən ha. Daha bu cür işlər götürməyəcəksən.

– Narahat olma, Nuridə. Bu mənim sonuncu işimdir. Mənim qara kostyumum hardadır? Onu tap ver mənə.

Nuridə şkafın içərisindən qara kostyumu çıxarıb Kənana uzatdı və otaqdan çıxdı. Kənan cəld əynini dəyişib evdən çıxdı. Qurban müəllimgilə çatmağa və bildiklərini hər kəsə çatdırmağa səbirsizlənirdi. Qurban müəllimgilə çatıb həyətə daxil olduqda burada yenə çadırın qurulu olduğunu və içəridə xeyli adam olduğunu gördü. Çadırın içərisinə daxil olub ətrafa nəzər saldı. Qurban müəllim dostları Salman Muradov, Faiq Qürbətov, Fuad Niyazov və Kərimin dostu Elnurla birgə oturmuşdu. Kənan onların yanına yaxınlaşıb salamlaşdı. Daha sonra onlardan birlikdə evə keçməyi xahiş etdi. Masa arxasında əyləşənlər onunla razılaşaraq birlikdə evə keçdilər. Kənan onları qonaq otağına aparıb masanın arxasında əyləşdirdi. Elə bu vaxt Rauf müəllim də içəri daxil oldu. O da masanın arxasında əyləşdi. Kənan digər otaqdan Səkinə xanımı və Nailəni də çağırdı. Onlar da yerlərini aldıqdan sonra Kənan söhbətə başladı:

– Sizi bura yığmaqda məqsədim gəldiyim nəticəni sizə açıqlamaqdır. Mən artıq qatilin kimliyini və bütün bunların baş vermə səbəbini bilirəm.

Qurban müəllim dərhal həyəcanlı səslə:

– Kimdir o vəhşi? Kimdir mənim balalarımın canavarı? – deyərək qışqırdı.

Kənan onu yenidən əyləşdirərək:

– Sakit olun, Qurban müəllim. Bu saat hər şeyi danışacam sizə. Mən Nurlanın qətlini araşdırmağa başlayarkən ilk əvvəl bu cinayətin Qurban müəllimə göz dağı vermək istəyən rəqibləri tərəfindən törədilməsin-

dən şübhələnməyə başladım. Belə bir hadisənin baş verməsi ilə həmin şəxslərin külli miqdarda gəlir əldə etməsi belə bir şübhəyə kifayət qədər əsas verirdi. Oğlunun cənazəsinə başı qarışan Qurban müəllim işlərlə məşğul ola bilməyəcək və nəticədə böyük bir layihəni rəqibləri ələ keçirəcəkdilər. Qurban müəllimdən öyrəndiyim qədəri ilə də onun ən böyük rəqibi "Altay" MMC-nin müdiri Altay Nuriyev idi. Buna görə də ilk əvvəl araşdırmaya ondan başlamaq qərarına gəlmişdim. Lakin sonradan Nurlanın dostu Samirlə görüşüb onunla söhbət etmək, daha sonra Altay Nuriyevlə görüşmək qərarına gəldim. Samirlə görüşüb birlikdə onların Nurlanın itdiyi həmin gün getdikləri çay evinə getdik. Burada həm Samirlə, həm də oradakı ofisiantla söhbət etdim. Ofisiantdan öyrəndim ki, Nurlan son bir aydır daimi olaraq oraya dostu Samir və iki xanımla birgə gəlirmiş. Bu vaxta qədər mənə bu barədə heç bir söz deməyən Samir məcburiyyət qarşısında qalıb həmin xanımların kimliyi barədə danışmağa başladı. Nurlan və Samir həmin gündən iki ay əvvəldən adları Sevinc və Gülşən olan bu xanımlarla görüşürmüşlər. Üstəlik daha ciddi məqam Nurlanın görüşdüyü Sevinc adlı xanımın evli olması idi.

Səkinə xanım yerində donub qalmışdı. Onun gözünə körpə görsənən kiçik övladının belə bir şey edəcəyini ağlı almırdı. Axı o övladlarına belə bir tərbiyə verməmişdi. Ona görə bu sözlər ona güllə kimi dəymişdi. Yalnız diqqətini də Kənandan ayıra bilmirdi. Kənan isə söhbətə davam edirdi:

– Sevinc adlı bu xanımın həyat yoldaşı isə əvvəllər adam öldürmə cinayətindən məhkum olunan bir şəxs idi. Həmin şəxs hadisə baş verməmişdən bir neçə gün əvvəl Nurlana zəng edib xəbərdarlıq etmiş və onunla telefonda mübahisə etmişdi. Bu mübahisə zamanı həmin şəxs Nurlanı təhdid də etmişdir. Bütün bunları Samirdən öyrəndikdən sonra belə bir hadisənin qısqanclıq zəminində törədilə biləcəyi daha məntiqli görünürdü. Elə buna görə də ilk növbədə həmin o Sevinc adlı xanımla, daha sonra isə həyat yoldaşı ilə görüşmək qərarına gəldim.

Otaqda əyləşən hər kəs az qala nəfəs belə almadan diqqətlə Kənanın danışdıqlarına qulaq asırdılar. Hamıya növbəti söylənəcək hər bir söz maraqlı idi. Kənan isə sakit tərzdə etdiklərindən danışır, hamının ona belə diqqətlə qulaq asmasından zövq alırdı. Masanın üzərindəki su stəkanını qaldırıb bir neçə qurtum içdikdən sonra söhbətinə davam etdi:

– Samirdən Sevincin nömrəsini aldım və ona zəng etdim. Onunla görüşüb Nurlan haqqında və həyat yoldaşı haqqında məlumat aldım. Həyat yoldaşının adı Vaqif idi. Vaqif həqiqətən adam öldürmə cinayətinə görə məhkum olunubmuş. Həbsdən azad olunduqdan sonra o gəmidə işə düzəlib və hazırda da orada çalışır. Buna görə də o, ayın on beş gününü dənizdə on beş gününü isə şəhərdə keçirir. Sevinclə söhbətdən sonra Vaqifin hələ bir neçə gün sonra şəhərə qayıdacağını öyrəndiyimdən ertəsi gün Altay Nuriyevlə görüşmək qərarına gəldim. Həmin gecə "Altay" MMC

barədə internetdə araşdırma apardım. Ertəsi gün "Altay" MMC-yə türk iş adamı Erdem Kılıç simasında getdim. Altay Nuriyevlə görüşməkdə məqsədim onu, sadəcə, bir insan kimi tanımaq idi. Onunla, sadəcə, iş barədə söhbətləşdik. Bu söhbət zamanı Altay Nuriyev haqqında məndə heç bir müsbət fikir formalaşmadı. Ona görə də o, hələ də mənim üçün əsas şübhəlilərdən biri hesab olunurdu. Altay Nuriyevin yanından ayrıldıqdan sonra Vaqifə zəng etdim və onunla görüşdüm. Elə bu adam da məndə Altay Nuriyev kimi mənfi fikirlər formalaşdırdı. O, mart ayının ikisində dənizdə olduğunu desə də, sonradan araşdırmaların nəticəsində məlum oldu ki, o ayın ikisi və üçü şəhərdə olmuşdur. Bundan sonra daha bir dəfə onunla görüşüb bu barədə soruşduqda ciyərlərindəki nasazlığa görə şəhərdəki klinikalardan birinə müraciət etdiyini öyrəndim. Məlumatın doğruluğunu yoxladıqdan sonra ona qarşı olan şübhələrim tamamilə aradan qalxmasa da azalmışdı. Bu ərəfələrdə Kərim avtomobil qəzasına uğramışdı. Həmin hadisə yerinə gedib baxdıqda yolda iki fərqli təkərdən olan tormoz izləri olduğunu gördüm. Yoldakı izlərin forması da məndə avtomobillərin bir-birləri ilə qəsdən toqquşduğu fikrini formalaşdırdı. Daha sonra avtomobilin arxa yan hissəsinə baxdıqda burada mavi boya izləri gördüm və bu barədə oradakı polis əməkdaşlarına məlumat verdim. Onlardan müşahidə kameralarına baxaraq həmin gün yolda şübhəli bir mavi rəng avtomobil olub-olmadığını araşdırmalarını xahiş et-

dim. Bir müddət sonra mənə kamera görüntülərində, üzərində dövlət qeydiyyat nişanı olmayan "Toyota" markalı avtomobil aşkar etdiklərini bildirdilər. Həmin vaxt mənim üçün müəmmalı şəkildə ortaya çıxan və eyni tərzdə ortadan yox olan həmin avtomobili tapmaq ən vacib məsələyə çevrilmişdi. Bu avtomobil qatilin qoyduğu tək-tək izlərdən biri ola bilərdi. Lakin həmin avtomobillə maraqlanmağa məqam tapmamış Kərimin öldürüldüyü xəbərini aldım. Sonrasında bildiyiniz kimi Qurban müəllimin nasazlaşması bir az vaxtımı aldı. Lakin morqa qayıdıb Kərimin meyitinə baxdıqda bir şey diqqətimi çəkdi. Kərimin alnında eynən Nurlanda olduğu kimi "V" işarəsi var idi. Bu işarəni Nurlanın cəsədində gördüyümdən bəri mənim diqqətimi çəkmişdi. Həmin işarənin nə məna kəsb etdiyi barədə uzun müddət fikirləşmişdim. Bir neçə cavab versiyam var idi. İlk əvvəl bunun "Victory" , yəni zəfər işarəsi olduğunu fikirləşdim. Daha bir versiyam isə bunun qatilin imzası olması idi. Hətta Nurlanın qətlində gördüyüm bu işarənin Vaqifin adının baş hərfi olacağından da şübhələnmişdim. Lakin sonradan Kərimin cəsədində də eyni işarəyə rast gəldiyim vaxt artıq qatilin Vaqif olmadığına əmin olmuşdum. Kərimin meyitinin qalan hissələrinə baxdıqda burada Roma rəqəmlərinə bənzər işarələr olduğunu aşkar etdim. Həmin vaxt başa düşdüm ki, qatil meyitin hissələrini nömrələyib və hər iki meyitin alnındakı "V" işarəsi də Roma rəqəmiylə 5 işarəsidir. Bundan sonra meyit hissələrinin aşkar olunduğu yerləri xəritə

üzərində qeyd etdim və sadalanan sıralama ilə həmin nöqtələri birləşdirdim. Xəritədə belə bir emblem meydana çıxdı.

Kənan əlindəki qovluqdan Bakının kiçik bir xəritəsini çıxarıb stolun üzərinə qoydu. Xəritənin üzərində müxtəlif nöqtələr qoyulmuş və bu nöqtələr sonradan birləşdirilmişdi. Həmin nöqtələrin birləşməsindən "m" hərfinə bənzər bir işarə meydana çıxmışdı. Masanın ətrafında əyləşən hər kəs xəritəyə doğru əyilib diqqətlə baxırdılar. Kənan əli ilə bu emblemi göstərib söhbətinə davam etdi:

– Həmin bu emblemin nə məna kəsb etdiyini də bir az araşdırmadan sonra tapdım. Bu əqrəb bürcünün emblemi idi. Həmin vaxt artıq doğru iz üstündə olduğumu başa düşdüm. Qatilin bütün bu etdiklərindən nəsə bir oyun oynadığı yaxud nəsə deməyə çalışdığı başa düşülürdü. Daha sonra əqrəb haqqında internetdə araşdırma aparmağa başladım. Əvvəlcə əqrəb bürcü haqqında, daha sonra heyvanın özü haqqında axtarış edirdim. Həmin vaxt təsadüfən qarşıma XX əsrin əvvəllərində Amerikada yaşamış əqrəb ləqəbli qatil haqqında məlumat çıxdı. Bu qatil 34 nəfəri qətlə yetirmişdi və o, da eynən hazırkı qatil kimi cəsədləri hissələrə parçalamışdı. Həmin qətllər o dövrdə çox səs-küy salmış və məşhurlaşmışdı. Bütün bunları oxuduqdan sonra hazırkı qatilin də həmin amerikalı qatilin tərziylə getdiyinə əmin oldum. Başa düşdüm ki, qatil bu cinayətləri törətməklə məşhurlaşmaq istəyir. Lakin qaranlıq qalan əsas məqam niyə təsadüfi

adamları deyil məhz bir ailədən iki nəfəri eyni tərzdə qətlə yetirməsi idi. Törədilən bu ikinci cinayətdən sonra qatilin Vaqif və Altay Nuriyev olmadığına əmin olmuşdum. Mənə elə gəlirdi ki, bütün bu cinayətlərin kökündə keçmişdən gəlmə bir qəzəb yatır. Bu nə arvadı tərəfindən xəyanətə uğrayan kişinin qəzəbidir, nə də rəqibini işlərdən uzaqlaşdırıb pul qazanmaq hərisliyidir. Daha sonra həmin avtomobilin görüntülərinə baxdım. Bu görüntülərdə həmin avtomobilin Kərimin avtomobilini qəsdən vurub yoldan çıxardığı görünürdü. Toyotanın harada olmasını tapmaq üçün Kərimin qəzaya düşdüyü yerə yollandım. Avtomobil bundan sonra daha iki kamerada görsənmişdi. Daha sonra ondan heç bir iz yox idi. Bundan belə nəticəyə gəldim ki, son görsəndiyi kamera ilə növbəti kameranın arasında hardasa yoxa çıxıb. Bu iki kamera arasındakı yolda cəmi iki döngə var idi. Biri kiçik bir kəndə, digəri isə köhnə bir zavoda gedirdi. Qatil şübhə çəkməməkçün şəhərə başqa bir avtomobillə qayıtmalı idi. Ona görə də əvvəldən ya kənddə, ya da zavodun yanında həmin avtomobili gizlətməli idi. Lakin kənd camaatı son bir neçə gündə kəndə tanımadıqları heç bir avtomobilin gəlmədiyini bildirdilər. Bu vəziyyətdə tək variant avtomobilin zavodun yanında gizlədilməsi idi. Zavodun yaxınlığındakı kiçik gölün ətrafına fırlanarkən buradakı qamışlıqların arasında bir parıltı gördüm. Yaxınlaşdığım zaman bunun həmin avtomobil olduğunu başa düşdüm. Avtomobilin içərisinə baxarkən oradan bir xəncər aşkar etdim. Xəncərin üzərində qəribə

naxışlar var idi. Bu naxışlar mənə hardansa tanış gəlirdi. Amma həmin vaxt heç cür xatırlaya bilmirdim. Daha sonra həmin avtomobilin BAN nömrəsini də özümdə qeyd edib oradan ayrıldım. Gecə saatlarında Kamranın beton zavodunda sinəsindən bıçaqlanmış vəziyyətdə tapıldığını eşitdim. Xəstəxanaya çatdıqda sinəsindəki bıçaq yarasından əlavə onda zəhərlənmə əlamətləri olmasını da öyrəndim. Həmin vaxt bu cinayətin də Əqrəb tərəfindən törədilməsinə heç bir şübhəm qalmadı. Daha əvvəl qurbanlarını parçalayaraq şəhər xəritəsinə imzasını atan qatil artıq təxəllüsü ilə eynilik təşkil edən formada qətli həyata keçirmişdi. Eynilə bir əqrəb kimi qurbanını sancaraq öldürmüşdü. Kamranın sinəsinə sancdığı bıçağın üzərində əqrəb zəhəri olmuşdur. Kamranın əməliyyatı zamanı xəstəxanadaykən hafizəm mənə kömək etməyə başladı. Toyotanın içərisində tapdığım xəncərin üzərindəki naxışa bənzər naxışı harada gördüyümü xatırladım. Həmin naxışı bir nəfərin boynundakı boyunbağıda görmüşdüm. Xatırladıqlarımdan sonra başa düşdüm ki, indiyə qədər şübhələnmədiyim bir adamın üzərində həqiqətən də güclü şübhələr varıymış. Bundan sonra bir dostuma zəng edib həmin BAN nömrəsinin kimə məxsus olmasını, bir də xatırladığım şəxsin Qurban müəllimlə və ya onun ailəsi ilə nə kimi əlaqəsi olmasını araşdırmasını istədim. Daha sonra Kamranın kompüterində onun "facebook" profilində gələn bir mesajı gördüm. Əqrəb Kamranı təhrikedici sözlərlə həmin beton zavoda dəvət etmişdi. Kamran da yazı-

lan mesajın təsiri altına düşərək əsəbiləşib heç kimə demədən əqrəbin dəvət etdiyi yerə getmiş və onun işini asanlaşdırmışdı. Ertəsi gün dostumdan gələn cavabdan sonra artıq nəticəyə çatdığımı başa düşdüm. Həmin BAN nömrəsi bir şirkətə məxsus idi. Bu şirkət avtomobilləri icarəyə verməklə məşğul idi və həmin avtomobil bir neçə gün əvvəl şirkətdən icarəyə götürülmüşdü. İcarəyə götürən adam bayaq haqqında danışdığım boyunbağının sahibi ilə eyni adam idi. Mənə verilən məlumatların içərisində maraqlı bir məqam da diqqətimi çəkdi. Bu məlumatların içərisində bir qadının adı çəkilirdi. Onun yaşadığı ünvanı öyrənib həmin ünvana yollandım. Buradakı qonşulardan biri ilə uzun söhbətdən sonra həmin qadın haqqında mənə lazım olan hər şeyi öyrəndim. Artıq qatilin əsl kimliyini də bilirəm.

Qurban müəllim əsəbi halda:

– Kimdi axı o alçaq qatil? Kimdir balalarımın canına qəsd edən canavar?

– Bütün bu vəhşilikləri törədən sizin böyük oğlunuzdur, Qurban müəllim.

– Ə, axmaq köpəkoğlu, sən nə çərənləyirsən? Necə yəni mənim böyük oğlumdur? Kərimin cəsədinin nə halda olduğunu öz gözlərimlə görmüşəm. O necə edə bilər belə bir şeyi?

– Danışığınıza fikir verin, Qurban müəllim. Təhqirə ehtiyac yoxdur. Mən qatilin Kərim olduğunu demədim. Qatil sizin böyük oğlunuzdur. Kərim isə sizin ikinci övladınızdır. Sizin ilk övladınızın adı

Elnurdur. Universitet illərindən yaxşı tanıdığınız Dilarənin və sizin oğlunuz Elnur.

Masanın arxasında əyləşənlərin hamısı birdən üzünü Elnura doğru çevirdi. Elnur başını aşağı dikib dayanmışdı. Qurban müəllim yerində donub qalmış, Kənanın dediklərindən şoka düşmüşdü. Səkinə xanım bir neçə saniyə Qurban müəllimin üzünə nifrətlə baxdıqdan sonra üzünü Elnura doğru çevirdi. Ona da bir neçə saniyə nəzər yetirdikdən sonra qəfildən yerindən sıçrayıb Elnurun üstünə hücum etmək istədi. Yanında əyləşən şəxslər Səkinə xanımı zorla tutub saxladılar. Onu yenidən stula əyləşdirsələr də Səkinə xanım çapalayaraq onların əlindən qurtulmağa, Elnuru dişləri ilə parçalamağa atılmaq istəyirdi. Bir müddət çapaladıqdan sonra halı pisləşdi və ürəyi getdi. Ətrafdakıların köməkliyi ilə onu yan otağa keçirdib çarpayıya uzatdılar. Nailə də onunla birlikdə gedib başının üstündə dayandı. Digərləri yenidən qonaq otağına qayıdıb gəlib masanın arxasında əyləşdilər. Elnur bütün bunlar baş verərkən gözünü bir nöqtəyə dikib sakitcə dayanmışdı. Elə Qurban müəllim də gözlərini Elnura zilləyib səssiz-səmirsiz oturmuşdu. Otaqdakı qadınlardan başqa bayaqkı hamı yenidən masanın ətrafında idi. Kənan danışdıqlarının nə qədər ağır məsələlər olduğunu bilirdi. Ona görə də əvvəldən belə bir vəziyyət yaranacağını təxmin etmişdi. Buna görə də təcili tibbi yardıma əvvəlcədən xəbər vermişdi. Həmin təcili tibbi yardımın həkimləri artıq yan otaqda Səkinə xanımın yanında idilər. Kənan üzünü Elnura tutub:

Hə, Elnur. İndi bütün bunları nəyə görə etmisən sən onu danış bizə.

Elnur bir heykəl kimi heç hərəkət də etmirdi. Başı aşağı dikili vəziyyətdə bir nöqtəyə zillənib donub qalmışdı. Ondan cavab gələnə qədər otaqda yaranmış sükutu heç kim pozmurdu. Bir neçə dəqiqə də beləcə keçdikdən sonra Elnur gözünü həmin nöqtədən çəkmədən danışmağa başladı:

– Anam Dilarənin universitet illərində Qurban adlı bir qrup yoldaşı ilə münasibəti yaranır. Universitetin son kursunda artıq nişanlanmaq və evlənmək barədə fikirləşməyə başlayırlar. Elə universiteti bitirdikdən bir-iki ay sonra anam mənə hamilə olduğunu öyrənir. Əvvəlcə bu utancla yaşaya bilməyəcəyini fikirləşir və özünü öldürmək istəyir. Lakin sonradan məni fikirləşərək bu fikrindən daşınır və Qurbana bu barədə demək qərarına gəlir. Qurbanla görüşən zaman məsələni açıb danışmaq istəyərkən Qurban onu qabaqlayır və atasının onu başqa bir qızla evləndirəcəyini, anamdan ayrılmaq istədiyini bildirir. Anam heç bir söz demədən Qurbanla sağollaşır. Daha sonra yenə də özünü öldürmək qərarına gəlir, lakin bu dəfə də mənim canıma qıymamaq üçün, mənə görə yaşamağı seçir. Aradan bir müddət keçdikdən sonra babam bu məsələdən xəbər tutur və anamı evdən qovalayır. Qohum-əqrəbadan da heç kim bundan sonra anama yaxın durmur. Bir müddət küçələrdə gecələyir. Sonradan anamın əmisi oğlu Vilayət anamla evlənməyə və mənə atalıq etməyə razı olur. Birlikdə bir ev

tutub orada yaşamağa başlayırlar. Sonradan nikaha da daxil olurlar və doğum haqqında şəhadətnaməmdə onun adı yazılır. Vilayət əmi taksi sürücüsü kimi işləyib bizi dolandırırmış. Mənim bir yaşım tamam olduqdan bir az sonra Vilayət əmi avtomobil qəzasında vəfat edir. Anam yenə də qalır çətin vəziyyətdə. Ondan sonra gecə-gündüz harda olsa işləyib məni böyütməyə çalışır. Ağlım kəsdiyi vaxtdan onun necə əziyyətlərlə məni böyütdüyünü görmüşəm. Mən səkkiz yaşıma çatanda anam möhkəm xəstələndi. Mən də uşaq idim. Heç nə edə bilmirdim. Hər gün gözümün qarşısında qan qusurdu. Çalışırdı mənə bildirməsin, amma mən olanları görürdüm. Bununla belə, işdən ayrılmırdı. Xəstəliklə düz iki il mübarizə apardı. Amma imkansızlıqdan nə həkimə gedə bilirdi, nə də bir dərman ala bilirdi. Üstəlik evin də yükü çiyinlərində idi. Mən on yaşındaykən bir gecə anam yenə öskürərək yuxudan ayıldı. Vəziyyəti heç yaxşı deyildi. Ağlayaraq yanına qaçdım. Stəkanda su gətirdim. Cəmi bir neçə qurtum içdi. Sonra dolmuş gözləri ilə mənə baxıb ölməkdən qorxmuram, amma səni bu dünyada yalnız qoyub getmək içimi parçalayır, dedi. Gözlərindən iki damla yaş gəldi və anam gözlərini əbədiyyətə qədər yumdu. Gecə səhərə qədər anamı qucaqlayıb ağladım və gözlərini yenidən açması üçün Allaha dua etdim. Ancaq anam geri gəlmədi. Məni dünyaya gətirən, min bir əziyyətlə məni böyüdən insan qollarımda can verdi. Səhər açıldıqda ağlayaraq qapı qonşumuzun yanına qaçdım. Mənimlə birlikdə

bizə yüyürən qadın anamın cansız bədənini gördükdə məni bağrına basıb ağladı. Sonra qonşular aralarında pul yığıb anama yas verdilər. Bir neçə gün qonşumuzun evində qaldım. Bir axşam qonşumuzun yandakı otaqda babamla danışdığını eşitdim. Qonşumuz babama imkanı olmadığını, artıq mənə baxa bilməyəcəyini deyirdi. Söhbətlərindən başa düşdüyüm qədəri ilə babam hara istəyirsən tulla, mənim elə nəvəm yoxdur, deyirdi. Bu danışığı eşitdikdən sonra mən yenə saatlarla ağladım. Ertəsi gün qonşumuz mənim əlimdən tutub yetimlər evinə gətirib təhvil verdi. Mənə orda daha yaxşı baxacaqlarına məni inandırdı. Mən orda qalmağa başladım. Amma ora heç cür isinişə bilmirdim. Ordakı hər kəs mənə yad gəlirdi, sanki boğulurdum orada. Qonşumuz daha sonra bir neçə dəfə məni ziyarətə gəldi. O hər gələndə ona yalvarıb məni burdan götürməsini xahiş edirdim. O da hər dəfə mənim üçün oranın daha yaxşı olduğuna məni inandırmağa çalışırdı. Bir müddətdən sonra qonşumuzun da gəl-getləri kəsildi və mən köhnə həyatımdan olan sonuncu adamı da itirdim. Ondan sonra yetimlər evindən, ümumiyyətlə, zəhləm getməyə başladı. Ordakı müəllimlər də bizimlə normal rəftar eləmirdi. Gün keçdikcə anamı aldadan, bu günlərə düşməyimizə səbəb olan insana nifrətim artırdı. Artıq demək olar hər gün ondan qisas alacağım günü gözləyirdim. İlk əvvəl yetimlər evindən çıxdıqdan sonra Qurbanı tapıb öldürməyi planlaşdırırdım. Ancaq bu qisas elə-belə olmamalıydı. Onu öldürmək ona əziyyət vermək

deməmək deyildi. Bunun üçün də çəkdiyimiz acıları yaşasın deyə onun övladlarını öldürmək qərarına gəldim. Ancaq bunun üçün əlimdə imkanlarım olmalıydı. Elə buna görə də artıq dərslərimi cidd-cəhdlə oxumağa başladım. Məktəbi bitirər-bitirməz universitetə qəbul olundum. On səkkiz yaşıma çatdıqdan sonra yetimlər evindən ayrıldım. Bir kirayə ev tapıb həm oxumağa, həm də işləməyə başladım. Yetimlər evindən çıxdıqdan sonra Qurbanı və ailəsini yaxından izləməyə başladım. Sonradan Kərimin işlədiyi şirkətdə işə düzəldim və onunla yaxınlaşmağa başladım. Münasibəti elə səviyyəyə gətirdim ki, Kərim məni özünə ən yaxın dost hesab eləməyə başladı. Kərimin ailəsi ilə də münasibətim yaranmağa başladı. Məni ilk dəfə evlərinə qonaq çağıranda Qurban mənə yaxınlaşıb əl uzadaraq salam verdi. Həmin vaxt daxilimdə keçirdiyim sarsıntıları təsəvvür belə edə bilməzsiniz. Anamın həyatını qaraldan, ömrünü puç edən, demək olar ki, ölümünə səbəb olan, mənim uşaq yaşlarımdan min bir əzabla, dərdlə böyüməyimə səbəb olan adam qarşımda dayanıb mənə əl uzadırdı. İçimdəki duyğuları güclə boğub özümü sakitləşdirdim və onun salamını qəbul elədim. Əslində həmin vaxt onu parça-parça edə bilərdim. Amma Qurban bizə yaşatdıqlarının hesabını belə rahatlıqla verməməliydi. Bir gün internetdə təsadüfən qabağıma XX əsrin əvvəllərində Amerikada yaşamış “Scorpion”, yəni Əqrəb ləqəbli bir qatil haqqında məlumat çıxdı. Bu qatil törətdiyi cinayətlərlə çox məşhurlaşmış, barəsində on illərlə danışılmış-

dı. Həmin vaxt ağlıma bir fikir gəldi. Qurbanın oğlanlarını elə bir formada öldürməliyəm ki, bu cinayətlər dünyaya səs salacaq tərzdə olsun. Beləliklə, bu cinayətlərlə maraqlananlar onun törədilmə səbəbi ilə də maraqlanacaqlar və yaşadığım həyatı öyrənəcəklər. Mən fikirləşdim ki, belə bir hərəkət etməklə Qurbankimilərin etdiyi hərəkətlərin nələrə səbəb olacağını dünyaya çatdıra bilərəm. Bununla da gələcəkdə mənim taleyimi yaşayacaqların sayını bir qədər azaldaram. Qurbankimilər etdikləri hərəkətdən əvvəl yenidən fikirləşərlər. İlk növbədə ən rahat öldürə biləcəyim adamdan, Nurlandan başladım. Onu Sevinc adlı qızla mən tanış etdim. Onlar bir neçə ay görüşdülər. Artıq Sevinc onu gecələr də evə getməməyi üçün qızışdırırdı. Nurlan da Sevincin təsiri ilə gecə gec saatlara qədər çöldə olur, evə səhərə yaxın gedirdi. Bu da mənim işimi asanlaşdırırdı. Mart ayının ikisində gecə Nurlan hər kəslə sağollaşdıqdan sonra təkbaşına yeriməyə başladı. Bu zaman onunla təsadüfən rastlaşmış kimi qarşısına çıxdım. Onunla görüşdükdən sonra onu evə aparmağı təklif etdim. Daha sonra yolda onu aldadıb evdən bir şey götürəcəyimi dedim. O, da mənə kömək etmək üçün mənimlə birlikdə evə daxil oldu. Evdə onun boynunun arxasından vurdum. Ürəyi getdikdən sonra onu öldürüb hissələrə parçaladım. Hər bir parçasını ayrı-ayrı nömrələdim. Bacardığım qədər iz qoymamağa çalışırdım. Çünki hələ ki, tutulmamalıydım. Hələ qarşıda Kərim və Kamran dayanırdı. Ona görə mart ayının dördündə səhər hava işıq-

lanmamış maksimum ehtiyatla meyitin hissələrini şəhərin əvvəldən planlaşdırdığım hissələrinə payladım. Daha sonra Kərimdən xəbər gəlməsi üçün gözlədim. Gözlədiyim xəbər gəldikdən sonra isə Kərimin yanında olmağa, ona dəstək olmağa başladım. Bir müddətdən sonra Kərim rayona ezamiyyətə gedəsi oldu. Həm də gecə saatlarında yolda olacaqdı. Evə ancaq normal vaxtlarda gedən Kərimi öldürmək üçün bundan yaxşı fürsət ola bilməzdi. Onun gedəcəyi yolu bildiyimdən əvvəldən bir şirkətdən avtomobil icarəyə götürdüm və o keçəcəyi yolda gözləməyə başladım. Yenə də tapılmamaqdan ötrü avtomobilin nömrələrini çıxarmışdım. Bir qədər gözlədikdən sonra Kərimin avtomobilinin yanımdan ötüb keçdiyini gördüm. Cəld mən də onun dalınca sürməyə başladım. Qəzanı törətmək üçün uyğun yer axtarırdım. Amma eyni zamanda həm də tələsməliydim. Avtomobilin nömrələri üzərində olmadığından heç bir polis postuna çatmadan məsələni həll etməliydim. Nəhayət, uyğun şəraitin yetişdiyini hiss edib arxadan onun avtomobilinə yaxınlaşmağa başladım. İşıqları yandırıb söndürərək ondan yol istədim. O sağa doğru keçməyə başlayandan sonra onu avtomobillə sıxışdırıb yoldan çıxarmağa nail oldum. Kərimin avtomobili yoldan çıxıb ağaca çırpıldı və dayandı. Maşını saxlayıb cəld aşağı düşdüm və yoldan heç kim keçməmiş Kərimin avtomobilinin yanına qaçdım. Kərimin huşu tam olaraq özündə deyildi. Cibindən telefonu çıxarıb kiməsə zəng etmək istəyirdi. Telefonu əlindən alıb arxa otu-

racağa doğru atdım. Kərim üzünü çevirib mənə doğru baxdı, amma tam hərəkət edə bilmirdi. Onun başından zərbə endirdim və tam huşu getdiyinə əmin olduqdan sonra çiynimə alıb öz avtomobilimin baqajına atdım. Daha sonra gəlib köhnə zavodun yanında avtomobili saxladım. Kərimi yaxınlıqdakı meşəyə aparıb orada onu öldürdüm və hissələrə parçaladım. Yerdə qalan qan izlərinin üstünü torpaqla yaxşı-yaxşı örtdüm. Ondan sonra cəsədin hissələrini torbalara doldurub zavodun yanına qayıtdım. Əvvəldən aparıb zavodun arxasında gizlətdiyim avtomobilin baqajına cəsədin hissələrini qoydum. Yenidən mavi "Toyata"-nın yanına qayıdıb onu gölün qırağına sürdüm və gölün arxa tərəfində qamışlığın arasında gizlədib üzərini qamışlarla örtdüm. Daha sonra yenidən zavodun arxasındakı avtomobillə dərhal şəhərə doğru yola düşdüm. Bu dəfə də meyitin hissələrini Nurlanda olduğu kimi nömrələmişdim. Yenə də əvvəldən planlaşdırdığım yerlərə meyitin hissələrini yerləşdirdim və evə qayıtdım. Yenə də bu barədə xəbərin gəlməsini gözləyirdim. Xəbər gəldikdən sonra isə sədaqətli bir dost kimi Kərimin ailəsinin yanında olduğumu göstərməyə başladım. Artıq məqsədimə çatmağıma az qalmışdı. Geriyə bir tək Kamranı öldürmək qalırdı. Onu necə ələ keçirəcəyim barədə xeyli fikirləşdim. İki nəfəri itirən ailə kifayət qədər ehtiyatlı hərəkət edəcəkdi. Sonda riskə getməyi və Kamranın özünə açıq-aşkar mesaj yazmağı seçdim. Artıq ailədən iki nəfəri qətlə yetirmişdim və bunun özü də kifayət qə-

dər səs gətirmişdi. Artıq tutulmaqdan da o qədər qorxmurdum. Ona görə də Kamrana “facebook”dan mesaj yazdım və onu mənimlə görüşməyə vadar etdim. Bu dəfə Nurlan və Kərimdəki kimi bir cinayətə ehtiyac yox idi. Çünki artıq Kənan dediyi kimi Əqrəb olaraq imzamı atmışdım. İndi mənə, sadəcə, nə formada olursa olsun, Kamranı öldürmək qalırdı. Beton zavoda gəlib məni qarşısında görərkən çaşdı. Ona yaxınlaşa bilmək üçün hələ də büruzə vermədim nə məqsədlə orda olduğumu. Onu izləyib dalınca gəldiyimi və onu tək qoymamaq üçün yanında olduğumu dedim. Yaxınlaşdıqdan sonra ona onu beton zavoda çağıran adamın mən olduğumu etiraf etdim. Mənə bir yumruq ilişdirdi. Sonra da yenə üstümə cummağa davam edirdi. Mən də onu vurduqdan sonra əvvəldən özümdə gətirdiyim əqrəb zəhərinə batırılmış xəncərlə onu sinəsindən xəncərlə vurdum. Yerə sərildi. Vəziyyətinə baxdıqda əlavə heç nə etməmək qərarına gəldim və oradan uzaqlaşdım. Beləliklə, son cinayətimi də əsl əqrəb kimi zəhər ilə sancaraq törətmiş oldum. Dərindən baxdıqda Əqrəb ləqəbi təsadüfən seçilmiş bir ləqəb deyil. Həm Amerikada peyda olan o qatil, həm də mən əqrəb kimi əvvəlcə insanların etibarını qazanıb sonda həmin etibardan onların əleyhinə istifadə etmişdim. Ancaq indi mən üzümü burdakı hamıya, xüsusilə də Qurbana tutub sual verirəm. Kimdir əqrəb? Bir qadının etibarından istifadə edib onun və onunla birgə onlarla adamın həyatını pula qurban verən sən, yoxsa intiqam hissilə yetimxanada böyüyüb bir neçə nəfəri öldürən mən?

Qurban Kazımov göz yaşları içərisində boğularaq oturmuşdu. Səsini çıxara bilmir, ümumiyyətlə, heç nə demirdi. Sadəcə, hönkürtü ilə ağlayırdı. Bütün bunlara səbəb olmaq, demək olar ki, bütün övladlarının qatili olmaq dünyanı onun başına yıxmışdı. Elə oturduğu yerdəcə ölmək istəyirdi. Elnur üzünü göz yaşları içində boğulan Qurbana doğru tutub:

Üç oğlan övladını öldürən sonuncu oğlun da gözlərinin qarşısında can verəcək. Bu da əqrəbin son zəhəri – deyərək cibindən çıxardığı dərmanı ağzına atdı. Otaqdakılar cəld ona doğru atıldılar. Onun ağzından dərmanı çıxarmağa çalışsalar da bu mümkün olmadı. Kənan cəld yan otaqdan təcili tibbi yardım işçilərini çağırdı. Lakin onlar da Elnura kömək edə bilmədilər. Elnurun cansız bədəni stolun üstünə sərilib qalmışdı. Qurban kişi bərəlmiş gözləri ilə son oğlunun meyitinə baxırdı.

# SON

Artıq səhərisi gün bütün qəzetlərdə, radio və televiziyalarda bu xəbərdən danışılırdı. Elnurun həyat hekayəsi və törətdiyi cinayətlər hamının marağına səbəb olmuşdu. Əqrəb məqsədinə çatmışdı. Ancaq qarşısına qoyduğu bu məqsədlə həqiqətən Qurbankimilərə dərs vermişdimi? Bunu isə zaman göstərəcəkdi. Elnurun meyitinin dəfn olunması işləri ilə Kənan məşğul oldu. Arxasından kiçik bir yas məclisi də təşkil etdi. Bütün bu hadisələrdən sarsılan Səkinə xanım insult keçirdi. Xəstəxanada yanına gəlmək istəyən Qurban müəllimi görməkdən həm Səkinə xanım, həm də qızı Nailə imtina etdi. Özünə qapanan Qurban müəllim günlərcə evdən çıxmadı. Demək olar ki, bütün qohum-əqrəbalar da ondan üz döndərmişdi. Təxminən bir həftə sonra qonşuları Qurban kişinin meyitini yaşadığı evin zirzəmisində tapdılar. Qurban kişi özünü həmin zirzəmidə asmış və günlərcə orada qalmışdı. Elnurun törətdiyi qətllərə görə hamının tanıdığı Qurban müəllimin yalnızlıq içində intihar etməsi xəbəri də bir neçə gün söhbət mövzusu oldu.

Kənan bu iş üzrə məvacib almaqdan imtina etdi. Heç həmin vaxt Qurban müəllimin də bu barədə fikirləşmək imkanı yox idi. Yalnız Qurban müəllim intihar etməzdən əvvəl vəsiyyət edib Kənana 100000

manat məbləğində pul qoymuşdu. Kənan həmin pula əl vurmadan birbaşa olaraq yetimlər evinə bağışladı. Növbəti əqrəblərin yetişməməsi, oradakı uşaqların cəmiyyətimizə yararlı bir gənc kimi formalaşması üçün bunu kiçik bir yardım kimi etmişdi.